RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 125 (10145) 17 iyul 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## "Siz həqiqətən də Sülh İnsanısınız"




### Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampa təşəkkür edib

**Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirləri paylaşdığı üçün ABŞ Prezidenti Donald Trampa təşəkkür edib.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin sosial media hesablarında paylaşım edilib.

Paylaşımda deyilir: "Cənab Prezident,

Şuşa Qlobal Media Forumunda səsləndirdiyim və "Breitbart" nəşrinə istinadən Sizi "Sülh İnsanı" kimi xarakterizə etdiyim fikirlərimi paylaşdığınıza görə Sizə təşəkkür edirəm.

Tarixi Vaşinqton Sammitinin birinci ildönümünə bir aydan az vaxt qaldığı bir dövrdə Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün bərqərar olunması istiqamətində əvəzsiz rolunuza görə Sizə bir daha səmimi minnətdarlığımı ifadə etmək istərdim.

Sizin liderliyiniz regionumuzun sülhə, sabitliyə və rifaha yaxınlaşmasına tarixi töhfə verib.

Siz həqiqətən də Sülh İnsanısınız".

## Yüksək etimad nümunəsi

### ABŞ Prezidenti Donald Trampın Prezident İlham Əliyevin sözlərini paylaşması Azərbaycan liderinin qlobal nüfuzunun bariz göstəricisidir



Prezident İlham Əliyevin ABŞ Prezidenti ilə ötən ilin avqustunda Vaşinqtonda, bu ilin yanvarında Davos İqtisadi Forumu çərçivəsində keçirdiyi görüşlər, eləcə də ABŞ vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana səfəri Bakı-Vaşinqton əlaqələrindəki intensivliyin əsas göstəriciləridir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, bütün yüksəksəviyyəli təmaslar Azərbaycan-ABŞ münasibətlərinin hazırda pik səviyyədə olduğunun isbatıdır. Sirr deyil ki, münasibətlərin bu səviyyəyə yüksəlməsi Azərbaycanın regionda təhlükəsizliyin qarantı, qlobal enerji və nəqliyyat dəhlizlərinin mərkəzi kimi çıxış etməsi ilə birbaşa bağlıdır. ABŞ rəhbərliyi Azərbaycanı etibarlı tərəfdaş, müstəqil xarici siyasət yürüdən və regional sabitliyi təmin edən güc mərkəzi kimi qəbul edir. Bununla həm də ölkəmizin regionun əsas geosiyasi oyunçusu və sülhün əsas memarı olduğunu təsdiqləyir.

2



# Azərbaycanın orta güc reallığı

### Müstəqil xarici siyasət və regional liderlik ölkəmizin söz sahibinə çevrilməsini, artan nüfuzunu şərtləndirən əsas amillərdir

Orta güc olmaq həm də məsuliyyət daşımaq deməkdir. Belə dövlətlər yalnız öz maraqlarını qorumaqla kifayətlənmir, yerləşdikləri regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasına da töhfə verirlər. Azərbaycanın sülh təşəbbüsləri, regional əməkdaşlıq çağırışları və qonşu ölkələrin suverenliyinə hörmətlə yanaşaraq əlaqələri inkişaf etdirməsi bu məsuliyyət anlayışının əməli təzahürüdür.

Forumda Prezident İlham Əliyev bir daha bəyan etdi ki, Azərbaycan regionda davamlı sülhün tərəfdarıdır və Ermənistanla münasibətlərin beynəlxalq hüququn prinsipləri əsasında normallaşdırılmasını dəstəkləyir. Bu yanaşma göstərir ki, rəsmi Bakı postmünaqişə dövründə regional əməkdaşlığın genişlənməsini, iqtisadi inteqrasiyanın güclənməsini və uzunmüddətli sabitliyin təmin olunmasını strateji məqsəd kimi müəyyənləşdirib. Azərbaycan müasir geosiyasi proseslərə passiv müşahidəçi kimi deyil, təşəbbüskar və məsuliyyətli tərəfdaş kimi yanaşır. Ölkəmizin xarici siyasət kursu, müstəqil qərarvermə iradəsi və beynəlxalq hüquqa sadiqliyi onun regional lider statusunu daha da gücləndirir.

Azərbaycanın öz sərhədlərindən kənarda baş verən proseslərə təsir göstərmək imkanları həm də ölkəmizin üstün coğrafi mövqeyi ilə bağlıdır. Lakin Prezident İlham Əliyevin qeyd etdiyi kimi, qonşularla qarşılıqlı etimada və faydalı əməkdaşlığa əsaslanan münasibətlər olmadan heç bir ölkənin etibarlı tranzit mərkəzinə çevrilməsi mümkün deyil. Məhz bu prinsipə əsaslanan xarici siyasət kursu nəticəsində Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin əsas iştirakçılarından birinə çevrilib, Avrasiya məkanında etibarlı logistika və enerji tərəfdaşı kimi mövqeyini daha da gücləndirib.

3

## Azərbaycan müstəqil və suveren Fələstin dövlətinin yaradılmasını dəstəkləyib



### Prezident İlham Əliyev Fələstinin Baş nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Fələstin Dövlətinin Baş naziri Məhəmməd Mustafanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Baş nazir Məhəmməd Mustafanın ölkəmizə səfərinin Azərbaycanla Fələstin arasında qardaşlıq münasibətlərinin gücləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi.

2

## "John Deere" şirkəti ölkəmizlə əməkdaşlığı genişləndirməkdə maraqlıdır



### Prezident İlham Əliyev "John Deere" şirkətinin nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da "John Deere" şirkətinin MDB və Mərkəzi Asiya ölkələri üzrə prezidenti, "John Deere Walldorf International" MMC-nin Baş icraçı direktoru Çaba Leykonu və şirkətin MDB üzrə vitse-prezidenti Peter Zakseni qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının Çaba Leyko ilə ötən il Bakıda görüşü məmnunluqla xatırlandı.

Qonaqlar ölkəmizdə gördükləri inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdığını dedilər.

2

## "Bakı ilə Bratislava arasında münasibətlər strateji tərəfdaşlıq məzmunu qazanıb"





Prezident İlham Əliyevin bəyanatında vurğuladığı kimi, Slovakiya-Azərbaycan əlaqələrinin inkişafı uğurla davam edir və bizim siyasi təmaslarımız müntəzəm xarakter alır. İki ölkə arasında münasibətlər sistemli və davamlı inkişaf edir. Prezident İlham Əliyevin ötən ilin sonunda Slovakiyaya etdiyi rəsmi səfər və Slovakiya Prezidentinin Azərbaycana cavab səfəri diplomatik münasibətlərdə qarşılıqlılıq prinsipinin və yüksək etimadın göstəricisidir.

7

## *Ortaq tarixdən strateji birliyə:* Azərbaycan-Mərkəzi Asiya ölkələri əməkdaşlığının yeni dövrü




Qlobal iqtisadiyyatda baş verən dəyişikliklər, beynəlxalq yükdaşımaların yeni marşrutlar üzrə istiqamətlənməsi və enerji bazarlarında yaranan yeni reallıqlar Mərkəzi Asiya ilə Azərbaycan arasında əməkdaşlığın əhəmiyyətini daha da artırır. Məhz buna görə də Xəzər hövzəsini əhatə edən nəqliyyat və logistika layihələri qlobal iqtisadi təhlükəsizlik baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın müasir liman infrastrukturu, dəmir yolları, avtomobil magistralları və tranzit imkanları Mərkəzi Asiya ölkələrinin dünya bazarlarına çıxışını sürətləndirən etibarlı bağlantılar yaradır.

6

# Azərbaycan müstəqil və suveren Fələstin dövlətinin yaradılmasını dəstəkləyib

## Prezident İlham Əliyev Fələstinin Baş nazirini qəbul edib



*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidenti ölkəmizin paytaxtı Şərqi Qüds olmaqla, müstəqil və suveren Fələstin dövlətinin yaradılmasını dəstəklədiyini vurğuladı.

Dövlətimizin başçısı ilə görüşməkdən şərəf hissi duyduğunu bildirən Məhəmməd Mustafa Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Mahmud Abbasa çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Mahmud Abbasın ölkəmizə səfərini, həmçinin beynəlxalq tədbirlər çərçivəsində onunla görüşlərini məmnunluqla xatırladı.

Məhəmməd Mustafa Fələstində hazırda çətin vəziyyətin hökm sürdüyünü deyərək, bu durumdan dostların köməyi ilə çıxa biləcəklərinə ümidvarlığını ifadə etdi. Bu xüsusda o, Azərbaycanın Fələstinə göstərdiyi dəstəyə, həmçinin humanitar dəstək kimi Fələstində orta məktəbin tikintisi ilə bağlı niyyətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Söhbət zamanı Ramallah şəhərində Azərbaycanın Təmsilçilik Ofisinin açılması, Fələstinin ölkəmizdəki səfirliyinin xərclərinin isə Azərbaycan dövləti tərəfindən qarşılanması ikitərəfli əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirildi.

Görüşdə 2013-cü ildə ölkəmizin evsahibliyi etdiyi "İslam Maliyyə Təhlükəsizliyi Şəbəkəsinin yaradılmasına dair Konfrans"ın və "Qüds şəhərinin inkişaf etdirilməsi məqsədilə sektor planının maliyyələşdirilməsinə dair Donor ölkələrin Konfransı"nın nəticəsi olaraq Azərbaycanın Fələstinə 5 milyon dollar maliyyə yardımı etməsi xatırlanaraq, ölkəmizin, eyni zamanda BMT-nin UNRWA təşkilatı vasitəsilə də Fələstinə yardım etdiyi vurğulandı.

"Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" hesabına 23, ümumilikdə isə 37 fələstinli tələbənin Azərbaycanda təhsil alması yüksək qiymətləndirildi.

Baş nazir bunlara görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Söhbət zamanı Fələstinin bəzi kənd təsərrüfatı məhsullarının ölkəmizə güzəştli şərtlərlə ixracı məsələsi müzakirə olundu, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



# Yüksək etimad nümunəsi

## ABŞ Prezidenti Donald Trampın Prezident İlham Əliyevin sözlərini paylaşması Azərbaycan liderinin qlobal nüfuzunun bariz göstəricisidir

**Beynəlxalq münasibətlər sistemində liderlər səviyyəsində qurulan şəxsi etimad, qarşılıqlı hörmət və strateji dialoq dövlətlərarası əlaqələrin dinamikasına təsir edən ən mühüm amillərdən biridir. Bu təsdiqlənmiş bir reallıqdır. Elə götürək Azərbaycan-ABŞ nümunəsini.**

ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevin onun haqqında səsləndirdiyi fikirlərin yer aldığı məqaləni özünün "Truth" sosial şəbəkə hesabında paylaşıb. Geniş məqalə "Breitbart"da dərc olunub. "Azərbaycan Prezidenti İlham Əliyev Donald Trampı sülh adamı adlandırdı və Ermənistan-Azərbaycan razılaşmasını onun xidmətləri ilə əlaqələndirdi" başlıqlı məqalədə dövlətimizin başçısının Prezident Donald Tramp və onun komandasının Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin irəliləməsinə mühüm töhfə verdiyi, Trampı isə sülh insanı kimi xarakterizə etdiyi vurğulanıb.

Xatırladaq ki, Prezident İlham Əliyevin bu açıqlamaları iyulun 13-də keçirilən IV Şuşa Qlobal Media Forumunun açılış mərasimində beynəlxalq media nümayəndələrinin suallarını cavablandırarkən səsləndirilib. Donald Trampın sülhsevər və sülhü gətirə biləcək insan olduğunu qeyd edən dövlətimizin başçısı bildirib ki, Donald Tramp dünyanın müxtəlif bölgələrində artıq 8 müharibəni dayandırıb: "Bu onun baxışı, təbiəti və siyasətidir. Azərbaycan-Ermənistan məsələsində də onun rolu çox vacib idi, çünki Azərbaycan və Ermənistan danışıqların yekun mərhələsində olarkən Tramp və onun komandası elə bir çərçivə yaratdı ki, sülh mümkün oldu". Prezident İlham Əliyev həmkarı Donald Trampla həm ötən ilin avqustunda Vaşinqtondakı, həm bu ilin yanvarında Davosdakı görüşlərini və vitse-prezident Ceyms Devid Vensin Azərbaycana səfərini xatırladaraq iki ölkə arasındakı münasibətlərə toxunub: "Bütün bu meyarlar nümayiş etdirir ki, Azərbaycan-ABŞ münasibətləri hazırda pik səviyyədədir".

ABŞ Prezidenti Donald Trampın sözügedən paylaşımından sonra Azərbaycan Prezidenti İlham Əliyev həmkarına təşəkkürünü bildirib. Dövlətimizin başçısı növbəti dəfə Donald Trampın Azərbaycan və Ermənistan arasında sülh prosesində oynadığı rolu yüksək qiymətləndirib: "Cənab Prezident, Şuşa Qlobal Media Forumunda səsləndirdiyim və "Breitbart"ın istinad etdiyi çıxışımı paylaşdığınıza görə Sizə təşəkkür edirəm. Həmin çıxışımda Sizi "Sülh adamı" adlandırmışdım". Vaşinqtonda keçirilmiş tarixi sammitin birinci ildönümünə bir aydan az vaxt qaldığını xatırladan Prezident İlham Əliyev bu münasibətlə Donald Trampa bir daha minnətdarlığını ifadə edib: "Sizin liderliyiniz regionumuzun sülhə, sabitliyə və rifaha daha da yaxınlaşmasına tarixi töhfə verib".

Donald Trampın Prezident İlham Əliyevin onun haqqında səsləndirdiyi fikirlərin yer aldığı məqaləni özünün rəsmi sosial platformasında paylaşması Azərbaycan dövlətinin və onun liderinin qlobal miqyasda qəbul olunan nüfuzunun bariz göstəricisidir. Eyni zamanda dövlətimizin başçısının rəyinin dünya nəhəngləri tərəfindən yüksək dəyərləndirildiyinin təzahürüdür. Eləcə də Bakı ilə Vaşinqton arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının təcəssümüdür. Azərbaycan Prezidentinin Şuşa Forumunda səsləndirdiyi fikirlərin Ağ Ev rəhbəri tərəfindən dərhal paylaşılması rəsmi Bakının xarici siyasət gündəliyinin Vaşinqtonda nə dərəcədə yaxından izlənildiyini də nümayiş etdirir.

Bu, həm də İkinci Qarabağ müharibəsindən sonra formalaşan yeni regional reallıqların dünyanın birnömrəli gücü tərəfindən tam qəbul olunmasının növbəti təsdiqidir.

Dəfələrlə qeyd olunduğu kimi, ABŞ-nin əvvəlki administrasiyasının birtərəfli və qərəzli yanaşmalarından fərqli olaraq, Donald Tramp və onun komandası tərəflərin maraqlarına hörmət edən, balanslaşdırılmış və nəticəyə yönəlmiş sülh platformasının təşəbbüskarı olub. Məhz bu konstruktiv çərçivə Cənubi Qafqazda tarixi sülhün əldə olunmasında mühüm rol oynayıb. Dövlətimizin başçısı bu məqamı vurğulayaraq həmkarına təşəkkürünü bildirib.

Prezident İlham Əliyevin ABŞ Prezidenti ilə ötən ilin avqustunda Vaşinqtonda, bu ilin yanvarında Davos İqtisadi Forumu çərçivəsində keçirdiyi görüşlər, eləcə də ABŞ vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana səfəri Bakı-Vaşinqton əlaqələrindəki intensivliyin əsas göstəriciləridir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, bütün yüksəksəviyyəli təmaslar Azərbaycan-ABŞ münasibətlərinin hazırda pik səviyyədə olduğunun isbatıdır. Sirr deyil ki, münasibətlərin bu səviyyəyə yüksəlməsi Azərbaycanın regionda təhlükəsizliyin qarantı, qlobal enerji və nəqliyyat dəhlizlərinin mərkəzi kimi çıxış etməsi ilə birbaşa bağlıdır. ABŞ rəhbərliyi Azərbaycanı etibarlı tərəfdaş, müstəqil xarici siyasət yürüdən və regional sabitliyi təmin edən güc mərkəzi kimi qəbul edir. Bununla həm də ölkəmizin regionun əsas geosiyasi oyunçusu və sülhün əsas memarı olduğunu təsdiqləyir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*



# "John Deere" şirkəti ölkəmizlə əməkdaşlığı genişləndirməkdə maraqlıdır

## Prezident İlham Əliyev "John Deere" şirkətinin nümayəndə heyətini qəbul edib

*Əvvəli 1-ci səh.*

"John Deere" şirkətinin Azərbaycanda uğurlu fəaliyyətinə toxunan Çaba Leyko ölkəmizlə əməkdaşlığı genişləndirməkdə maraqlı olduqlarını bildirdi. Görüş əsnasında ölkəmizdə kənd təsərrüfatının geniş potensialının olduğu vurğulandı, bu sahədə müasir texnologiyaların tətbiq edildiyi bildirildi, kənd təsərrüfatının inkişafı ilə bağlı dövlət səviyyəsində həyata keçirilən işlərə toxunuldu və bu xüsusda qəbul olunmuş yeni Dövlət Proqramının əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı Azərbaycanla "John Deere" şirkəti arasında gələcək əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi, kənd təsərrüfatının bir çox istiqaməti üzrə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Qeyd edək ki, "John Deere" 1837-ci ildə ABŞ-də yaradılıb. Kənd təsərrüfatı, tikinti və meşəçilik avadanlıqlarının istehsalı sahəsində qlobal miqyasda aparıcı şirkətlərdən biri olan "John Deere"nin 30-dan çox ölkədə zavodları və ofisləri fəaliyyət göstərir.

# Türkiyənin "Limak Group" şirkətinin rəhbərliyi Azərbaycanın əlverişli işgüzar və investisiya mühiti barədə məlumatlandırılıb

İqtisadiyyat Nazirliyində keçirilən görüşdə Türkiyənin "Limak Group" şirkəti ilə dövlət-özəl tərəfdaşlığı modelinin tətbiqi və təcrübə mübadiləsinin genişləndirilməsi imkanları müzakirə edilib.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov Türkiyənin aparıcı infrastruktur və tikinti şirkətlərindən olan "Limak Group"un fəxri prezidenti Nihat Özdemirlə görüşüb.

Görüşdə Azərbaycanın əlverişli işgüzar və investisiya mühiti, Ələt Azad İqtisadi Zonası və işğaldan azad olunmuş ərazilərdə geniş əməkdaşlıq imkanları, ölkəmizdə həyata keçirilən strateji layihələr, eləcə də özəl sektorun inkişafı üçün tətbiq olunan dəstək mexanizmləri barədə məlumat verilib.

Tərəflər infrastrukturun inkişafı, investisiya layihələrinin həyata keçirilməsi, dövlət-özəl tərəfdaşlığı sahəsində əməkdaşlıq və müvafiq sahələrdə təcrübə mübadiləsinin genişləndirilməsi perspektivlərini nəzərdən keçirib. Görüşdə qarşılıqlı maraq doğuran istiqamətlər üzrə əməkdaşlığın inkişafı məsələləri barədə fikir mübadiləsi aparılıb.

# Baş Qərargah rəisi Belarusda səfərdədir

Belarusda rəsmi səfərdə olan Azərbaycanın müdafiə nazirinin birinci müavini - Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və rəhbərlik etdiyi nümayəndə heyəti bir sıra hərbi obyektləri ziyarət edib.



Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan nümayəndə heyəti Belarus Silahlı Qüvvələrinin aviabazasında və əlahiddə desant-hücum briqadasında olub. Burada Xüsusi Əməliyyat Qüvvələrinin və radioelektron mübarizə bölmələrinin silahlanmasında olan hərbi və xüsusi texnikalarla tanışlıq keçirilib.

Plana uyğun olaraq general-polkovnik Kərim Vəliyev Pilotsuz Aviasiya Komplekslərinin Tətbiqi və Hazırlığı Mərkəzinə, həmçinin Dövlət Hərbi-Sənaye Kompleksinin müəssisəsinə baş çəkib. Mərkəzin fəaliyyəti ilə tanışlıqdan sonra nümayəndə heyətinə pilotsuz aviasiya kompleksləri operatorlarının hazırlığı və trenajorlarda iş prinsipləri barədə məlumat verilib.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Minsk şəhərində Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin büstünü də ziyarət edib, önünə gül dəstəsi qoyaraq onun xatirəsini ehtiramla anıb.



# "Eternity-2026" təliminin əsas planlaşdırma konfransı keçirilib

Azərbaycan, Gürcüstan və Türkiyənin Müdafiə nazirlikləri arasında hərbi əməkdaşlıq planına əsasən ölkəmizdə icra olunacaq "Eternity-2026" kompüter dəstəkli komanda-qərargah təliminin əsas planlaşdırma konfransı keçirilib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, cari ilin noyabr ayında baş tutacaq təlimdə üç ölkənin hərbi qulluqçuları ilə yanaşı, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və Azərbaycan Dəmir Yollarının əməkdaşları da iştirak edəcəklər.

Qeyd edək ki, təlimin planı iştirakçı ölkələrin ərazisindən keçən strateji obyektlərin və kommunikasiya xətlərinin taktiki səviyyədə mühafizə və müdafiə ssenarisi üzərində qurulub.

Konfransda təlimin mövzusu, məqsədləri, birgə qərargahın tərkibi, ərazidə icra olunacaq taktiki epizodlar və digər təşkilati məsələlər müzakirə olunub.



# Baş nazir Əli Əsədov Fələstinin Baş naziri ilə görüşüb

İyulun 16-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə rəsmi səfərdə olan Fələstin Dövlətinin Baş naziri Məhəmməd Mustafa ilə görüşüb.



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Fələstin arasında dostluğa və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi qeyd olunub, beynəlxalq və regional təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın və qarşılıqlı dəstəyin əhəmiyyəti vurğulanıb.

Azərbaycanın Fələstin məsələsinin beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həllini dəstəklədiyi bir daha diqqətə çatdırılıb.

Azərbaycanın Fələstin dövlətinə və xalqına ardıcıl siyasi dəstəyinə, humanitar yardımlarına, həmçinin təhsil və digər sahələrdə həyata keçirilən təşəbbüslərə görə minnətdarlıq ifadə olunub.

Görüş zamanı Azərbaycan ilə Fələstin arasında qarşılıqlı faydalı əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə olunub.

# Milli Məclisin Sədri Sahibə Qafarova Fələstin Dövlətinin Baş naziri Məhəmməd Mustafa ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova iyulun 16-da ölkəmizdə səfərdə olan Fələstin Dövlətinin Baş naziri Məhəmməd Mustafa ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Fələstin arasında dostluq münasibətlərindən və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıqdan bəhs edən parlamentin spikeri qeyd edib ki, ölkələrimizi ortaq dini-mənəvi və ailə dəyərləri, habelə xalqlarımız arasında mövcud olan dostluq münasibətləri birləşdirir. Dövlətlərarası əlaqələrin dərinləşməsində yüksəksəviyyəli səfərlərin, eləcə də keçirilən görüşlərin mühüm rolunu vurğulayan Milli Məclisin Sədri, Fələstin Baş nazirinin ölkəmizə cari səfərinin iki ölkə arasında münasibətlərin daha da inkişafına və əməkdaşlığın genişlənməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Spiker Sahibə Qafarova Azərbaycanın Fələstin məsələsində prinsipial mövqe tutduğunu qeyd edərək, bu mövqeyin beynəlxalq təşkilatlar çərçivəsində də ardıcıl şəkildə izləndiyini vurğulayıb.

Söhbət zamanı 2023-cü ildə Ramallah şəhərində Azərbaycanın Təmsilçilik Ofisinin fəaliyyətə başlamasının ikitərəfli münasibətlərin inkişafında mühüm addım olduğu vurğulanıb. Parlamentin Sədri xatırladıb ki, 2022-ci ilin noyabr ayında Milli Məclis bu Ofisin təsis edilməsi haqqında qanunu yekdilliklə qəbul edib.

Parlamentlərarası əməkdaşlığın əhəmiyyətinə toxunan Sahibə Qafarova qeyd edib ki, Azərbaycan Parlamenti Fələstin Milli Şurası ilə həm ikitərəfli formatda, həm də Parlamentlərarası İttifaq, İƏT Parlament İttifaqı (PUIC), Asiya Parlament Assambleyası və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi çərçivəsində səmərəli əməkdaşlıq edir. Diqqətə çatdırılıb ki, Azərbaycan beynəlxalq təşkilatlar və digər çoxtərəfli platformalar çərçivəsində Fələstin məsələsini daim diqqət mərkəzində saxlayır və bu məsələyə xüsusi həssaslıqla yanaşır.

Görüşdə humanitar, xüsusilə təhsil və mədəniyyət sahələrində əməkdaşlıq imkanları da müzakirə olunub. Azərbaycanda fələstinli tələbələrin təhsil almasından məmnunluq ifadə edilərək, "Heydər Əliyev Beynəlxalq Təhsil Qrantı" proqramının onlara yaratdığı əlverişli imkanlar yüksək qiymətləndirilib.

Fələstin Dövlətinin Baş naziri Məhəmməd Mustafa Azərbaycan dövlətinə, xalqına və parlamentinə Fələstin məsələsində göstərilən ardıcıl siyasi, diplomatik, humanitar dəstəyə görə təşəkkür edib. Azərbaycan Prezidenti və Baş naziri ilə keçirdiyi görüşlərin əhəmiyyətini qeyd edən qonaq, ölkəmizin rəhbərliyinin davamlı dəstəyinin Fələstin xalqı tərəfindən heç vaxt unudulmayacağını vurğulayıb. Baş nazir həmçinin Azərbaycanın beynəlxalq sülh təşəbbüslərinə töhfəsini yüksək qiymətləndirərək, ölkəsinin "iki dövlət" prinsipi əsasında ədalətli və davamlı sülhə sadiq olduğunu bildirib.

Məhəmməd Mustafa iki ölkə arasında kənd təsərrüfatı, təhsil və humanitar sahələrdə əməkdaşlığı genişləndirmək üçün böyük potensialın olduğunu diqqətə çatdırıb. Bu çərçivədə o, Azərbaycanın dəstəyi ilə Fələstində məktəb tikintisini və digər birgə layihələri xüsusi qeyd edib. Parlamentlərarası əməkdaşlığın inkişafına xüsusi önəm verdiyini bildirən Baş nazir, bu əməkdaşlığın müxtəlif istiqamətlər üzrə daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

Sonda Azərbaycandakı sürətli inkişaf və quruculuq işlərindən heyranlığını ifadə edən qonaq, Azərbaycan xalqına sülh, firavanlıq və uğurlar arzulayıb.

*"Azərbaycan"*

# Azərbaycanın orta güc reallığı

## Müstəqil xarici siyasət və regional liderlik ölkəmizin söz sahibinə çevrilməsini, artan nüfuzunu şərtləndirən əsas amillərdir

İyulun 13-14-də Şuşada keçirilən IV Qlobal Media Forumu Azərbaycanın qlobal miqyaslı siyasi dialoq məkanına çevrildiyini göstərməklə yanaşı, ölkəmizin artan beynəlxalq nüfuzunun, etibarlı tərəfdaş imicinin və müstəqil xarici siyasət kursunun növbəti nümayişi oldu.

Forumun açılış mərasimində iştirakçıların regional və beynəlxalq gündəmə dair çoxsaylı suallarını cavablandıran Prezident İlham Əliyevin xüsusi diqqət yönəltdiyi məqamlardan biri də Azərbaycanın orta güc dövləti kimi artan roluna strateji baxış idi. Dövlətimizin başçısı vurğuladı ki, çağdaş dünyada dövlətlərin nüfuzu qlobal proseslərə təsir imkanları və beynəlxalq münasibətlərdə etibarlılığı ilə ölçülür.

Azərbaycanın orta güc kimi qiymətləndirilməsinin meyarlarını sadalayan Prezident İlham Əliyev bəyan etdi ki, milli maraqları müstəqil şəkildə müdafiə etmək, hərbi və siyasi potensiala malik olmaq, regional proseslərə təsir göstərə bilmək və beynəlxalq məsuliyyət daşımaq bu statusun əsas elementləridir: "Mənim fikrimcə, bu terminologiya ölkənin potensialının, böyük güclərin necə düşündüyü və ya etdiyindən asılı olmayaraq, onun öz milli maraqlarını müdafiə etmək bacarığının, əgər kimsə sizə zərər vurmaq istəyirsə, bütün potensialınızla müqavimət göstərmək qabiliyyətinin etiraf olunmasını nəzərdə tutur. Müdafiə qabiliyyəti, özü də təkcə hərbi paradda deyil, döyüş meydanında göstərilmiş həmin qabiliyyət vacibdir. Əlbəttə, fikrimcə, mühüm meyarlardan biri hüdudlarınızdan kənarda baş verən hadisələrə təkcə bir sözünüzlə və ya bəyanatınızla təsir göstərmək qabiliyyəti də olmalıdır. Azərbaycan bunu dəfələrlə nümayiş etdirib".

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, orta güc terminologiyasına aid edilə biləcək meyarlardan biri də məsuliyyətdir: "Ölkəmizin daxilində və müəyyən dərəcədə bütöv regionda baş verənlərə görə olan məsuliyyətdir. Düşünürəm ki, bütün bu dediklərimi Azərbaycana aid etmək olar. Ola bilsin bu səbəbdən bir sıra ekspertlər bizi orta güc adlandırır və səmimi desəm, mən buna etiraz etmirəm".

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, orta güc olmaq yalnız coğrafi ərazi, əhali sayı və ya iqtisadi göstəricilərlə bağlı deyil. Əsas meyarlar dövlətin öz iradəsini həyata keçirmək, xarici təsirlər qarşısında dayanıqlılıq nümayiş etdirmək və ətrafında baş verən proseslərə təsir göstərmək qabiliyyətidir. Azərbaycanın bu istiqamətdə əsas üstünlüklərindən biri müstəqil və çoxşaxəli xarici siyasət həyata keçirməsidir. Məhz bu siyasət ölkəmizə müxtəlif qlobal güc mərkəzləri ilə qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq münasibətləri qurmağa imkan verir. Son illər Azərbaycanın enerji təhlükəsizliyi, nəqliyyat-logistika marşrutları, regional əməkdaşlıq təşəbbüsləri və humanitar diplomatiya sahəsində artan rolu göstərir ki, ölkəmiz Avrasiya məkanında mühüm geosiyasi aktorlardan birinə çevrilib.

Orta güc olmaq həm də məsuliyyət daşımaq deməkdir. Belə dövlətlər yalnız öz maraqlarını qorumaqla kifayətlənmir, yerləşdikləri regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasına da töhfə verirlər. Azərbaycanın sülh təşəbbüsləri, regional əməkdaşlıq çağırışları və qonşu ölkələrin suverenliyinə hörmətlə yanaşaraq əlaqələri inkişaf etdirməsi bu məsuliyyət anlayışının əməli təzahürüdür.

Forumda Prezident İlham Əliyev bir daha bəyan etdi ki, Azərbaycan regionda davamlı sülhün tərəfdarıdır və Ermənistanla münasibətlərin beynəlxalq hüququn prinsipləri əsasında normallaşdırılmasını dəstəkləyir. Bu yanaşma göstərir ki, rəsmi Bakı postmünaqişə dövründə regional əməkdaşlığın genişlənməsini, iqtisadi inteqrasiyanın güclənməsini və uzunmüddətli sabitliyin təmin olunmasını strateji məqsəd kimi müəyyənləşdirib. Azərbaycan müasir geosiyasi proseslərə passiv müşahidəçi kimi deyil, təşəbbüskar və məsuliyyətli tərəfdaş kimi yanaşır. Ölkəmizin xarici siyasət kursu, müstəqil qərarvermə iradəsi və beynəlxalq hüquqa sadiqliyi onun regional lider statusunu daha da gücləndirir. Azərbaycanın öz sərhədlərindən kənarda baş verən proseslərə təsir göstərmək imkanları həm də ölkəmizin üstün coğrafi mövqeyi ilə bağlıdır. Lakin Prezident İlham Əliyevin qeyd etdiyi kimi, qonşularla qarşılıqlı etimada və faydalı əməkdaşlığa əsaslanan münasibətlər olmadan heç bir ölkənin etibarlı tranzit mərkəzinə çevrilməsi mümkün deyil. Məhz bu prinsipə əsaslanan xarici siyasət kursu nəticəsində Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin əsas iştirakçılarından birinə çevrilib, Avrasiya məkanında etibarlı logistika və enerji tərəfdaşı kimi mövqeyini daha da gücləndirib.

Son illər həyata keçirilən irimiqyaslı infrastruktur layihələri, enerji təhlükəsizliyi sahəsində qazanılan nailiyyətlər, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı və çoxtərəfli əməkdaşlıq siyasəti ölkəmizin regionun aparıcı dövlətlərindən biri kimi mövqeyini daha da möhkəmləndirib. Bu kimi amillər həm də Azərbaycanın orta güc kimi çıxış etməsinə yol açır. Ölkəmizin enerji və nəqliyyat dəhlizlərinin yaradılmasında oynadığı rol, mötəbər tədbirlərə evsahibliyi etməsi, beynəlxalq təşəbbüslər irəli sürməsi və fəal iştirakçısı olması Azərbaycanın orta gücə çevrildiyini göstərən əsas amillərdir.

Azərbaycanın regional liderlikdən orta güc səviyyəsinə yüksəlməsi Prezident İlham Əliyevin uzaqgörən strategiyasının, milli maraqlara söykənən müstəqil siyasətinin, ölkəmizin güclü müdafiə qabiliyyətinin və beynəlxalq məsuliyyət anlayışının qanunauyğun nəticəsidir. Ancaq orta güc statusu daim inkişaf etdirilməli olan bir prosesdir. Orta güc statusu dayanıqlı iqtisadiyyat, çevik diplomatiya, elmi və texnoloji potensial tələb edir. Bu baxımdan, iqtisadiyyatın şaxələndirilməsi, rəqəmsal transformasiya və institusional islahatlar Azərbaycanın beynəlxalq mövqeyini daha da möhkəmləndirən əsas hərəkətverici qüvvələrdir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# "Azərbaycanda şəhər transformasiyası sahəsində baş verən prosesləri öyrənmək istəyirik"

"Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilən 13-cü Sessiyasından (WUF13) sonra Azərbaycanla uzunmüddətli əməkdaşlığımız formalaşıb". Bu sözləri AZƏRTAC-a açıqlamasında **UN-Habitatın icraçı direktoru Anaklaudia ROSSBAX** deyib.

Onun sözlərinə görə, əməkdaşlığın əsasını təcrübə, ekspertiza və bilik mübadiləsi təşkil edir. "WUF13-ün uğuruna əsaslanaraq, məqsədimiz Azərbaycanda həyata keçirilən layihələrin beynəlxalq bilik, təcrübə və ekspertizadan faydalanmasını təmin etməkdir. Eyni zamanda Azərbaycanda şəhər transformasiyası sahəsində baş verən prosesləri də öyrənmək istəyirik. Bu, qarşılıqlı əməkdaşlıqdır. Biz eyni zamanda həm həyata keçirir, həm öyrənir, həm də təcrübəmizi bölüşürük", - deyə UN-Habitatın icraçı direktoru bildirib.

O deyib ki, Azərbaycanın həm COP29-a, həm də Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına evsahibliyi etməsi daha geniş əməkdaşlıq üçün möhkəm zəmin yaradıb. "Hazırda dünyanın müxtəlif ölkələrində tətbiq olunan uğurlu təcrübələrin toplanaraq hökumətlərarası müzakirə prosesinə daxil edilməsi imkanlarını müzakirə edirik. Məsələn, Azərbaycan Mənzil Məsələləri üzrə Açıq Tərkibli İşçi Qrupuna həmsədrlik edir. Bu, mühüm tövsiyələrin hazırlanacağı, eyni zamanda, müxtəlif ölkələrin təcrübələrinin bir araya gətiriləcəyi vacib prosesdir. Məqsəd həmin təcrübələri qlobal mənzil böhranının həlli üçün üzv dövlətlərin, ölkələrin və şəhərlərin istifadəsinə təqdim olunan ümumi faydaya çevirməkdir", - deyə A.Rossbax vurğulayıb.

# Azərbaycan-Türkiyə münasibətləri qardaş xalqlar modelinin dünyada ən uğurlu nümunələrindən biridir

"Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri tarixdən gələn ortaq köklərə, eyni milli-mənəvi dəyərlərə və qarşılıqlı etimada söykənən nümunəvi əməkdaşlıq modelidir. Bu model təkcə iki dövlət arasında siyasi və iqtisadi münasibətləri deyil, eyni zamanda xalqların mənəvi birliyini, ortaq mədəniyyətini və gələcəyə birgə baxışını özündə ehtiva edir".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında **türk turizm eksperti Adnan ZAMBURKAN** bildirib.

Ekspert qeyd edib ki, son illərdə iki ölkənin dövlət başçılarının siyasi iradəsi nəticəsində Azərbaycan-Türkiyə əlaqələri keyfiyyətcə yeni mərhələyə yüksəlib. Enerji, nəqliyyat, müdafiə sənayesi, ticarət, təhsil, elm, səhiyyə, rəqəmsallaşma, mədəniyyət və turizm kimi strateji sahələrdə əməkdaşlıq daha da genişlənib.

Onun sözlərinə görə, Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə münasibətlərini hüquqi baxımdan müttəfiqlik səviyyəsinə yüksəldən tarixi sənəddir. Bu sənəd iki qardaş ölkənin təhlükəsizlik, müdafiə, iqtisadiyyat, humanitar əməkdaşlıq və regional sabitlik istiqamətində birgə fəaliyyətini daha da möhkəmləndirib.

Adnan Zamburkan bildirib ki, Azərbaycan və Türkiyə arasında humanitar əməkdaşlıq münasibətlərin ən mühüm istiqamətlərindən biridir. Qarşılıqlı şəkildə keçirilən mədəniyyət günləri, musiqi festivalları, teatr tamaşaları, kino həftələri, kitab sərgiləri və incəsənət layihələri xalqlar arasında qarşılıqlı anlayışın və mənəvi bağların daha da güclənməsinə xidmət edir.

"Türkiyədə Azərbaycan mədəniyyətinə maraq ildən-ilə artır. Eyni zamanda Azərbaycanda da Türkiyə mədəniyyətinə böyük sevgi və hörmət var. Bu qarşılıqlı maraq xalqlarımızın ortaq köklərinin və ortaq mənəvi dəyərlərinin təbii nəticəsidir", - deyə ekspert vurğulayıb.

Turizm sahəsinə toxunan Adnan Zamburkan qeyd edib ki, son illərdə bu istiqamətdə əməkdaşlıq yeni inkişaf mərhələsinə qədəm qoyub. Qarşılıqlı turist axınının artması, viza prosedurlarının sadələşdirilməsi, şəxsiyyət vəsiqəsi ilə qarşılıqlı səfər imkanları, birbaşa aviareyslərin sayının çoxalması və turizm şirkətləri arasında əməkdaşlığın genişlənməsi insanların gediş-gəlişini daha da asanlaşdırıb. Azərbaycan turistləri Türkiyənin İstanbul, Antalya, Muğla, İzmir, Trabzon və Kapadokiya kimi məşhur turizm bölgələrinə böyük maraq göstərirlər. Eyni zamanda Türkiyədən gələn turistlərin Bakıya, Şuşaya, Qarabağa, Qəbələyə, Şəkiyə, Naftalana, Qusara və Azərbaycanın digər turizm məkanlarına marağı da durmadan artır.

Ekspertin sözlərinə görə, Qarabağda aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri bölgənin beynəlxalq turizm xəritəsində öz layiqli yerini tutmasına şərait yaradır. Tarixi və dini abidələrin bərpası, yeni yolların, hava limanlarının, mehmanxanaların və müasir turizm infrastrukturunun yaradılması gələcəkdə Türkiyədən bu bölgəyə turist axınının daha da artmasına səbəb olacaq.

O deyib ki, Azərbaycan və Türkiyə beynəlxalq turizm sərgilərində birgə iştirak etməklə türk dünyasının zəngin mədəni irsini və turizm potensialını birlikdə tanıda bilər: "Ortaq turizm marşrutlarının hazırlanması, tarixi İpək yolunu əhatə edən layihələrin genişləndirilməsi, ortaq reklam kampaniyalarının həyata keçirilməsi və rəqəmsal turizm platformalarının yaradılması hər iki ölkənin turizm sektoruna əlavə töhfələr verəcək. Ali təhsil müəssisələri arasında əməkdaşlıq, turizm üzrə mütəxəssis hazırlığı, tələbə mübadiləsi proqramları, peşə təhsili layihələri və birgə elmi tədqiqatlar da gələcək əməkdaşlığın əsas istiqamətlərindən biri olmalıdır. Turizm təkcə iqtisadi gəlir mənbəyi deyil. Turizm xalqları bir-birinə yaxınlaşdıran, mədəniyyətləri tanıdan və qarşılıqlı etimadı möhkəmləndirən ən güclü vasitələrdən biridir. Azərbaycan və Türkiyə bu sahədə çox böyük üstünlüklərə malikdir və bu potensialdan birgə istifadə etməlidir".

Adnan Zamburkan hesab edir ki, Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən layihələr də Azərbaycan və türkiyə arasında turizm və mədəni əlaqələrin daha da genişlənməsinə yeni imkanlar açır: "Ortaq mədəni irsin qorunması, türk dünyasının tarixi abidələrinin beynəlxalq səviyyədə tanıdılması və birgə turizm marşrutlarının hazırlanması gələcək əməkdaşlığın mühüm istiqamətlərindəndir. Azərbaycan-Türkiyə münasibətləri bütün dünyada qardaşlıq, etimad və qarşılıqlı dəstəyə əsaslanan ən uğurlu dövlətlərarası əməkdaşlıq modellərindən biri kimi qəbul olunur. Bu möhkəm təməl üzərində qurulan münasibətlər gələcək illərdə də mədəniyyət, turizm, iqtisadiyyat, təhsil və digər sahələrdə yeni nailiyyətlərlə zənginləşəcək, həm iki qardaş ölkənin rifahına, həm də bütövlükdə türk dünyasının inteqrasiyasına mühüm töhfələr verəcək".

# IV Şuşa Qlobal Media Forumu

## IV Şuşa Qlobal Media Forumu: qlobal çağırışlar fonunda Azərbaycan



Hər bir tarixi dövr özünəməxsus çağırışları və inkişaf trayektoriyası ilə fərqlənir. Cəmiyyət isə bu çağırışlara uyğun strategiyalar müəyyən etməklə transformasiya prosesindən keçir və yeni reallıqlara uyğunlaşmağa çalışır. Qlobal münaqişələrin, geosiyasi gərginliklərin və informasiya manipulyasiyalarının artdığı müasir dövrdə sülhün təşviqi, etibarlı informasiyanın yayılması və həqiqətin qorunması xüsusi əhəmiyyət daşıyır.

Məhz bu qlobal transformasiyalar fonunda "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr olunmuş IV Şuşa Qlobal Media Forumu xüsusi əhəmiyyət kəsb edir. Forum çərçivəsində media mühitində mövcud çağırışlar, dezinformasiya ilə mübarizə, süni intellektin jurnalistikaya təsiri, rəqəmsal transformasiya, beynəlxalq informasiya əməkdaşlığının gücləndirilməsi, eləcə də sülhün və qarşılıqlı etimadın təşviqində medianın rolu geniş müzakirə olundu.

Qlobal siyasətdə baş verən sürətli dəyişikliklər, regional münaqişələrin genişlənməsi, informasiya müharibələrinin yeni mərhələyə keçməsi və enerji təhlükəsizliyi ətrafında formalaşan yeni geosiyasi konfiqurasiya dövlətlərin xarici siyasət prioritetlərinə yenidən baxmasını zəruri edir. Belə mürəkkəb beynəlxalq şəraitdə Azərbaycanın təşəbbüsü ilə keçirilən IV Şuşa Qlobal Media Forumu təkcə media nümayəndələrinin bir araya gəldiyi platforma deyil, həm də qlobal çağırışların, beynəlxalq münasibətlər sistemində müşahidə olunan transformasiyaların və gələcək inkişaf istiqamətlərinin müzakirə olunduğu mühüm siyasi dialoq məkanı oldu.

"Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr olunmuş forumda Prezident İlham Əliyev tədbir iştirakçılarının suallarını cavablandırdı. Dövlət başçımız Azərbaycanın xarici siyasət prioritetləri, regional təhlükəsizlik məsələləri, beynəlxalq nəqliyyat və enerji layihələrinin perspektivləri, rəqəmsal transformasiya, "yaşıl enerji" strategiyası və ölkənin dəyişən dünya nizamındakı yeri barədə fikirlərini bölüşdü.

Prezident İlham Əliyevin vurğuladığı kimi, artıq dördüncü dəfə keçirilən Şuşa Qlobal Media Forumu beynəlxalq nüfuzunu ildən-ilə artırır. Bu il 53 ölkədən 160 nümayəndənin, onlarca beynəlxalq media qurumunun və təşkilatın iştirakı isə forumun qlobal xarakter qazandığını bir daha sübut etdi.

Bu isə öz növbəsində Azərbaycanın postmünaqişə dövründə Qarabağı beynəlxalq əməkdaşlıq və dialoq platformasına çevirmək siyasətinin praktik nəticəsidir. Bir neçə il əvvəl dağıntılarla yadda qalan Şuşa bu gün beynəlxalq forumlara, siyasi müzakirələrə və qlobal media nümayəndələrinin görüşlərinə evsahibliyi edir.

Forumun əsas mövzusu müasir dövrdə informasiya təhlükəsizliyinin nə qədər aktual olduğunu bir daha göstərdi. Süni intellekt texnologiyalarının inkişafı, dezinformasiyanın geniş yayılması və informasiya manipulyasiyalarının artdığı bir dövrdə medianın üzərinə düşən məsuliyyət daha da artır.

Prezident İlham Əliyev forumda dəfələrlə vurğuladı ki, həqiqətin qorunması və etimadın bərpası müasir jurnalistikanın əsas missiyası olmalıdır. Bu yanaşma xüsusilə postmünaqişə regionlarında böyük əhəmiyyət daşıyır. Qarabağla bağlı uzun illər beynəlxalq mediada formalaşdırılmış birtərəfli yanaşmalar fonunda forum xarici media nümayəndələrinin bölgədə baş verən dəyişiklikləri yerində müşahidə etməsinə imkan yaradır.

Prezident İlham Əliyev Azərbaycanın nəqliyyat-logistika imkanlarından da bəhs etdi. Dövlət başçısı qeyd etdi ki, son onilliklər ərzində yaradılmış infrastruktur bu gün ölkəmizi Avrasiyanın əsas tranzit mərkəzlərindən birinə çevirib.

Burada diqqətçəkən əsas məqamlardan biri yalnız yolların, limanların və dəmir yollarının tikintisi deyil. Cənab Prezident xüsusi vurğuladı ki, tranzit ölkəyə çevrilməyin əsas şərtlərindən biri qonşu dövlətlərlə qarşılıqlı etimad və əməkdaşlıq münasibətləridir. Azərbaycanın həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" nəqliyyat dəhlizlərində fəal iştirak etməsi məhz bu siyasətin nəticəsidir.

Hazırkı geosiyasi vəziyyət isə bu marşrutların əhəmiyyətini daha da artırır. Orta Şərqdə davam edən gərginliklər, alternativ daşınma yollarına tələbatın artması və Avrasiya məkanında dəyişən logistika marşrutları Azərbaycanın tranzit potensialını strateji üstünlüyə çevirir.

Azərbaycanın enerji siyasəti Prezident İlham Əliyevin nitqində xüsusi yer tutdu. Dövlət başçısı Almaniya və Avstriyaya qaz ixracının başlanmasını Avropa enerji bazarında ölkənin mövqeyinin daha da möhkəmlənməsinin göstəricisi kimi qiymətləndirdi.

Bu gün Azərbaycan artıq 16 ölkəyə qaz ixrac edir və boru kəmərləri vasitəsilə qaz tədarükünün coğrafi əhatəsinə görə dünyanın aparıcı ölkələrindən biridir.

2032-ci ilədək 8 giqavat bərpaolunan enerji gücünün yaradılması planı, Qarabağda həyata keçirilən su və günəş-elektrik stansiyaları layihələri, "yaşıl enerji" zonalarının formalaşdırılması Azərbaycanın uzunmüddətli enerji siyasətində yeni mərhələnin başlandığını göstərir.

Beləliklə, Azərbaycan paralel şəkildə həm ənənəvi enerji ixracatçısı, həm də "yaşıl enerji" istehsalçısı modelini formalaşdırır.

Prezident İlham Əliyev rəqəmsal transformasiya və süni intellekt məsələlərini də ölkənin strateji prioritetləri sırasında göstərdi. Bu istiqamətdə vahid koordinasiya mexanizminin yaradılması Azərbaycanın rəqəmsal idarəetmə modelini daha da inkişaf etdirmək niyyətindən xəbər verir.

Müasir dünyada rəqəmsal texnologiyalar artıq yalnız iqtisadi inkişaf vasitəsi deyil, həm də milli təhlükəsizliyin, dövlət idarəçiliyinin və beynəlxalq rəqabət qabiliyyətinin əsas elementlərindən biridir. Azərbaycanın bu sahədə institusional islahatlara başlaması qlobal texnoloji transformasiya prosesindən geri qalmamaq məqsədi daşıyır.

Prezident İlham Əliyevin diqqət çəkdiyi əsas məqamlardan biri Azərbaycanın balanslaşdırılmış xarici siyasət kursunun davam etdirilməsi oldu.

Türkiyə ilə münasibətlər "bir millət, iki dövlət" prinsipinin praktiki təzahürü kimi təqdim edildi. Şuşa Bəyannaməsinin regionda təhlükəsizlik və sabitliyin təmin olunmasında mühüm rol oynadığı vurğulandı.

Dövlət başçımız ABŞ ilə strateji tərəfdaşlığın yeni mərhələyə qədəm qoyduğunu qeyd etdi. 907-ci düzəlişin artıq geosiyasi reallıqlarla uzlaşmadığını bildirən Prezident İlham Əliyev bu məhdudiyyətin tamamilə ləğvinin zəruriliyini vurğuladı.

Prezident İlham Əliyev forumda regional təhlükəsizlik məsələlərinə də xüsusi diqqət ayırdı. Dövlət başçısı qeyd etdi ki, Azərbaycan uzun illər müharibə şəraitində yaşasa da, bu gün sülhün tərəfdarıdır. Onun fikrincə, dayanıqlı sülh yalnız beynəlxalq hüquq prinsiplərinə əsaslanmalıdır. Dövlətlərin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq hüququn norma və prinsipləri gələcək təhlükəsizlik sisteminin əsasını təşkil etməlidir.

Cənab Prezident vurğuladı ki, Azərbaycanın öz suverenliyini bərpa etdikdən sonra hərbi əməliyyatları dayandırması və regionda uzunmüddətli sabitliyin tərəfdarı kimi çıxış etməsi məsuliyyətli dövlət davranışı nümunəsidir.

Çıxışın mühüm hissəsi milli həmrəyliyin qorunmasına həsr olundu. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanın əldə etdiyi bütün uğurların əsasında xalqın dövlət ətrafında birliyi dayanır.

Dövlət başçısı xüsusilə gənc nəslə müraciət edərək milli kimliyin qorunmasının, vətənpərvərlik ruhunun gücləndirilməsinin və dövlətçilik ənənələrinin davam etdirilməsinin gələcək inkişaf üçün həlledici əhəmiyyət daşıdığını qeyd etdi.

Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirlər göstərdi ki, Azərbaycan artıq regional proseslərin formalaşmasına təsir göstərən aktorlardandır.

Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, "yaşıl enerji", rəqəmsal transformasiya, beynəlxalq hüquq, informasiya təhlükəsizliyi və sülh diplomatiyası ölkənin xarici siyasət strategiyasının əsas sütunlarını təşkil edir.

Şuşa Forumu isə bu siyasətin beynəlxalq ictimaiyyətə təqdim olunduğu mühüm platformaya çevrilməkdədir. Azərbaycanın məqsədi qlobal dialoqun, qarşılıqlı etimadın və beynəlxalq əməkdaşlığın inkişafına töhfə verməkdir.

IV Şuşa Qlobal Media Forumunda səsləndirilən fikirlər göstərdi ki, Azərbaycan dəyişən beynəlxalq münasibətlər sistemində öz strateji mövqeyini daha da möhkəmləndirməkdədir. Enerji təhlükəsizliyi, beynəlxalq nəqliyyat dəhlizləri, rəqəmsal transformasiya, "yaşıl enerji", regional əməkdaşlıq və beynəlxalq hüquqa əsaslanan sülh siyasəti ölkənin xarici siyasət kursunun əsas istiqamətlərini təşkil edir. Forum çərçivəsində verilən mesajlar Azərbaycanın yalnız regional deyil, qlobal proseslərdə də fəal iştirak edən etibarlı tərəfdaş və konstruktiv dialoq təşəbbüskarı kimi çıxış etdiyini bir daha nümayiş etdirdi.

***Ziyafət ƏSGƏROV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini***

## Postmünaqişə dövrünün qlobal humanitar hadisəsi

Müasir beynəlxalq münasibətlər sistemində regional təhlükəsizlik və sülh quruculuğu prosesləri, sadəcə, hərbi-siyasi amillərlə deyil, həm də qlobal informasiya ekosisteminin sağlamlaşdırılması və humanitar dialoq platformalarının effektivliyi ilə şərtlənir. Postmünaqişə dövrünün yeni reallıqları fonunda iyulun 13-də Şuşada "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda keçirilən IV Şuşa Qlobal Media Forumu bu transformasiyanın ən bariz nümunəsi olmaqla yanaşı, qlobal miqyasda yeni "yumşaq güc" mərhələsinin əsasını qoydu.

Müharibə ritorikasının neytrallaşdırılması, dezinformasiya ilə mübarizə və cəmiyyətlər arasında etimadın yenidən qurulması missiyasını üzərinə götürən forum artıq lokal çərçivələri tamamilə aşaraq qlobal miqyasın ən mühüm humanitar və informasiya siyasəti hadisələrindən birinə çevrildi. Bu müstəvidə forum Azərbaycanın beynəlxalq arenada intellektual, humanist və strateji təsir imkanlarını nümayiş etdirən universal bir yumşaq güc aləti kimi çıxış etdi.

IV Şuşa Qlobal Media Forumunun gündəliyi və müzakirə istiqamətləri birbaşa qlobal humanitar hüququn əsas prinsipləri və beynəlxalq konvensiyalarla uzlaşaraq onun ümumbəşəri mahiyyətini təsdiqləyir. BMT-nin İnsan Hüquqları Haqqında Ümumi Bəyannaməsinin 19-cu maddəsində təsbit olunmuş "düzgün və dürüst informasiya almaq, onu yaymaq" hüququ bu gün rəqəmsal manipulyasiyaların qurbanına çevrilməkdədir. Forum dezinformasiyanın kütləvi şüura və fundamental insan haqlarına vurduğu humanitar fəsadları ön plana çıxarmaqla, qlobal informasiya təhlükəsizliyinə birbaşa töhfə verir. Xüsusilə forumun əsas mövzularına - rəqəmsal dövrdə medianın fəaliyyəti, saxta xəbərlərin yayılma arealı və onların qarşısının alınması mexanizmlərinə nəzər saldıqda aydın olur ki, dürüstlük artıq, sadəcə, jurnalistika etikası deyil, həm də dövlətlərin suverenliyini qoruyan milli təhlükəsizlik qalxanıdır.

Süni intellekt, rəqəmsal alətlər və yeni media platformalarının sürətli inkişafı fonunda aparılan müzakirələr göstərir ki, informasiya ekosisteminin deqradasiyası birbaşa sülh quruculuğu cəhdlərini baltalayır. Bu mənada forumun seçdiyi mövzular regional və qlobal səviyyədə sülhün və dayanıqlılığın təmin edilməsində dürüst media fəaliyyətinin əvəzsiz olduğunu elmi-praktik cəhətdən sübut edir. Eyni zamanda münaqişələrdən zərər çəkmiş regionlarda etimadın bərpası və sülhün təşviqi istiqamətində medianın üzərinə düşən məsuliyyət BMT-nin Nizamnaməsində təsbit edilmiş fundamental prinsipləri rəhbər tutur. Süni intellektin və yeni texnologiyaların media subyektlərinə təsiri məsələsinin humanitar aspektlərinin müzakirəsi isə UNESCO-nun rəqəmsal etika standartları ilə birbaşa uzlaşır. Bu platforma beynəlxalq birliyə mesaj ötürür ki, dürüst media fəaliyyəti qlobal humanitar təhlükəsizliyin ayrılmaz tərkib hissəsidir və dövlətlərin intellektual dialoq vasitəsilə qlobal gündəliyi formalaşdırması beynəlxalq hüququn aliliyini gücləndirir.



Azərbaycan Respublikası qlobal çağırışlara adekvat cavab verən daxili hüquqi bazasını inkişaf etdirməklə bu beynəlxalq forum üçün mükəmməl bir model və təcrübə mübadiləsi mühiti təqdim edir. Azərbaycanın "Media haqqında" qanunu ölkədə söz və ifadə azadlığını, eləcə də informasiya məkanının təhlükəsizliyini təmin etmək üçün humanist bəşəri dəyərlərə və qəbul edilmiş normalarda əksini tapan prinsiplərə əsaslanır. Təsadüfi deyil ki, milli qanunvericilikdə nəzərdə tutulan informasiya suverenliyinin qorunması, fərdlərin və cəmiyyətin manipulyativ xəbərlərdən mühafizə edilməsi mexanizmləri forumun əsas müzakirə mövzularından biri idi. Azərbaycan öz milli təcrübəsi ilə nümayiş etdirir ki, azad media mühitinin dəstəklənməsi ilə milli-mənəvi dəyərlərin, dövlət maraqlarının və humanitar sabitliyin qorunması arasında qanuni balansı necə qurmaq olar. IV Şuşa Qlobal Media Forumu milli qanunvericiliyin bu uğurlu arxitekturasını beynəlxalq media standartları ilə sintez edən universal bir körpü oldu. Qlobal informasiya siyasətində bu hüquqi və konseptual modelin təqdim olunması ölkəmizin beynəlxalq hüquq yaradıcılığı və informasiya idarəçiliyi sahəsində də yumşaq güc mərkəzi kimi qəbul edilməsini şərtləndirdi.

Bu mötəbər tədbirin qlobal miqyasda humanitar fenomenə və yeni mərhələ yumşaq güc platformasına çevrilməsi birbaşa Prezident İlham Əliyevin siyasi iradəsinin, uzaqgörən strateji baxışının və şəxsi konseptual yanaşmalarının məhsuludur. Dövlət başçısının Şuşanı, sadəcə, tarixi-mədəni paytaxt deyil, həm də beynəlxalq sülh, intellektual fikir və humanitar dialoq mərkəzi kimi formalaşdırmaq konsepsiyası forumun fəlsəfəsini təşkil edirdi. Prezident forumdakı çıxışında ölkəmizin üzləşdiyi çoxillik informasiya blokadasını, təzyiqləri və buna qarşı aparılan milli mübarizəni geniş təhlil edərək həqiqətin bərpası naminə medianın rolunu xüsusi vurğuladı. Ölkəmizə qarşı aparılan yalan və iftira kampaniyalarına toxunan dövlət başçısı qeyd etdi ki, Azərbaycan uzun illər ərzində təkcə fiziki işğalla deyil, həm də misilsiz bir informasiya müharibəsi ilə üzbəüz qalmışdı. Lakin həm döyüş meydanında, həm də informasiya məkanında ədalətin bərpa olunması nümayiş etdirdi ki, dürüstlük və beynəlxalq hüquq hər zaman qalib gəlir. Prezident İlham Əliyev postmünaqişə dövründə medianın üzərinə düşən beynəlxalq missiyanı və həqiqətin bərpası zərurətini qiymətləndirərkən açıq formada bəyan etdi: "Biz regionda yeni reallıqlar yaratmışıq və bu reallıqlar beynəlxalq hüquqa, ədalətə əsaslanır. Medianın üzərinə düşən ən böyük missiya bu reallıqları olduğu kimi, təhrif olunmadan dünya ictimaiyyətinə çatdırmaq, həqiqəti müdafiə etməkdir".

Bu yanaşma forumun qlobal mediaya ünvanlanan əsas çağırışı olmaqla yanaşı, haqlı mövqeyin hərbi uğurlardan sonra məhz intellektual platformalarda, yəni yumşaq güc vasitəsilə möhkəmləndirilməsinin bariz nümunəsi idi. Dövlət başçısının xarici media nümayəndələrinin, analitiklərin və jurnalistlərin suallarına verdiyi əhatəli cavablar Azərbaycanın beynəlxalq sülh və əməkdaşlıq təşəbbüslərinə sadiqliyini bir daha ortaya qoydu. Dayanıqlı sülhün və etimad mühitinin yaradılmasında humanitar faktorun rolunu hər zaman ön plana çəkən Prezident İlham Əliyevin bu istiqamətdəki fikirləri qlobal miqyasda humanitar diplomatiyanın düsturu kimi qəbul edilə bilər: "Sülh təkcə kağız üzərində imzalanan müqavilə deyil, sülh həm də cəmiyyətlərin, medianın və insanların düşüncəsində qurulmalıdır. Biz Cənubi Qafqazı əməkdaşlıq və dayanıqlı inkişaf regionuna çevirmək istəyirik".

IV Şuşa Qlobal Media Forumu regionun və dünyanın aparıcı media ekspertlərini, beyin mərkəzlərini və dövlət rəsmilərini bir araya gətirməklə, postmünaqişə dövrünün ən fundamental qlobal humanitar hadisəsinə çevrildi. Bu platforma sübut edir ki, informasiya siyasəti beynəlxalq hüquq normalarına və güclü milli qanunvericilik bazasına əsaslandıqda humanitar fəsadların qarşısını alan ən effektiv alətə çevrilir. Eyni zamanda forum Azərbaycanın beynəlxalq arenadakı rolunu yalnız hərbi və iqtisadi güclə deyil, həm də qlobal ideyalar irəli sürən, media etikasını formalaşdıran və sülh gündəliyini diktə edən yeni "yumşaq güc" mərhələsi qismində nümayiş etdirir. Cənab İlham Əliyevin rəhbərliyi ilə Şuşadan ucalan bu sülh, ədalət və dürüstlük çağırışı rəqəmsal əsrdə qlobal medianın yol xəritəsini müəyyənləşdirməklə, ölkəmizin qlobal informasiya siyasətindəki strateji nüfuzunu daha da gücləndirir.

***İbrahim ZAHİDLİ,***
***siyasi şərhçi, Geneva EU Business School məzunu***

## Şuşadan dünyaya uzanan dialoq körpüsü

Prezident İlham Əliyevin beynəlxalq tədbirlərdəki çıxışları və müsahibələri qlobal media məkanında hər zaman diqqət mərkəzində olur. "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda keçirilən IV Şuşa Qlobal Media Forumunun açılış mərasimində Azərbaycan Prezidentinin jurnalistlərin və ekspertlərin suallarına verdiyi dolğun cavabların aparıcı beynəlxalq KİV tərəfindən geniş işıqlandırılması da məhz bu reallığın bariz nümunəsidir. Dünyanın nüfuzlu media təmsilçilərinin bu mötəbər tədbirdə fəal iştirakı Azərbaycan liderinin qətiyyətli mövqeyinə, onun uzaqgörən siyasətinə və regionda cərəyan edən proseslərə olan qlobal marağın aydın göstəricisidir.

IV Şuşa Qlobal Media Forumunda 53 ölkədən 160 qonaq, o cümlədən 30-a yaxın beynəlxalq xəbər agentliyinin nümayəndələri, 60-dan artıq qlobal media qurumu, bu sahədə fəaliyyət göstərən 10 beynəlxalq təşkilat və təsisat iştirak edib. Son dörd il ərzində bu möhtəşəm forum ümumilikdə 81 ölkənin 600-ə yaxın nüfuzlu media nümayəndəsini vahid platformada bir araya gətirərək böyük bir uğura imza atıb.

Bu forum artıq regional çərçivələri aşaraq dünya miqyaslı intellektual müzakirə meydanına çevrilib. Tədbirdə iştirak edən aparıcı media qurumlarının çəkisi və coğrafiyası bunu aydın sübut edir. Forumun iştirakçıları sırasında "Euronews" telekanalının, Türkiyənin "Anadolu" Agentliyinin, "Əl-Cəzirə" qlobal yayım şəbəkəsinin, ABŞ-nin məşhur informasiya nəhəngi CNN kanalının, həmçinin "Breitbart News" xəbər portalının, dünyanın ən böyük peşəkar şəbəkəsi olan "Linkedln" şirkətinin, "Əl-Ərəbiyə" telekanalının, Konqonun "Voice of Congo" media qurumunun, Ukraynanın tanınmış "Media Gordon Ukraine" platformasının, qlobal kommunikasiya şirkəti "Yurovich Communications"ın, "Soxnut" yəhudi agentliyinin, Yaponiyanın məşhur "JiJi Press" İnformasiya Agentliyinin, Çinin dövlət informasiya agentliyi olan "Sinxua"nın, Argentinanın nüfuzlu "Perfil" mətbu orqanının, Pakistan Televiziyasının, Özbəkistanın "Sevimli TV" kanalının, Dünya İnformasiya Agentlikləri İttifaqının, Afrikanın "K254 Media Africa" media qurumunun, Rusiya Beynəlxalq Əlaqələr Şurasının, Gürcüstanın "Fortuna Radio Holding" şirkətinin və sair media təmsilçiləri yer alıblar. Bu media qurumlarının rəhbərlərinin və peşəkar jurnalistlərinin forumda iştirak etməsi ölkəmizin artan nüfuzunun bariz göstəricisidir.

Prezident İlham Əliyev forumun açılış mərasimində jurnalistlərin suallarına diplomatik uzaqgörənliklə əhatəli şəkildə cavab verdi. Dövlətimizin başçısı sülhün və etimadın yaradılmasında medianın rolu barədə fikirlərini bu sözlərlə ifadə etdi: "Əvvəlcə burada, Azərbaycanda, Qarabağda, Şuşada bu cür mötəbər auditoriyanı qəbul etmək böyük şərəfdir. Forumun ideyası maraq doğuran məsələləri, qarşılıqlı surətdə narahatlıq doğuran sualları müzakirə etmək, həmçinin Qarabağ və Şuşa ilə tanış olmaq məqsədilə dünyanın müxtəlif guşələrindən media nümayəndələri üçün mühit yaratmaqdan ibarətdir. Əminəm ki, vaxt keçdikcə dövri olaraq buraya gələn qonaqlarımızın bir çoxu Qarabağın inkişafını, yenidənqurmanı görürlər. Onlar ilk dəfə gəldikləri zaman bəlkə də yalnız dağıntıları gördülər, lakin indi şəhərləri görürlər. Onlar yeni mənzillərdə və evlərdə yaşayan insanları görürlər. Bir sözlə, bu, müxtəlif meyarların kombinasiyasıdır. Birincisi, hər dəfə, hər il forumun mövzusu, sadəcə, cari çağırışları əks etdirir. İkincisi, mühit çox mehriban, çox müsbətdir və müxtəlif mediadan olan bir çox insanlar, əminəm ki, Şuşada görüşlərdən sonra yaxın dostlara çevrilirlər. Əlbəttə ki, bizim üçün mühüm meyar qərarların qəbul edilməsi prosesinə təsir göstərən, öz ölkələrində və onun hüdudlarından kənarda ictimai rəyi formalaşdıran insanlardan ibarət böyük qrupu toplamaqdır və Qarabağın öz köklərinə qayıtmasını, bu torpaqların yiyələrinin qayıtmasını, real inkişafı göstərməkdir".

Prezident İlham Əliyevin forumdakı fikirləri, suallara verdiyi cavablar dövlətimizin başçısının güclü liderliyini və yüksək diplomatik məharətini növbəti dəfə nümayiş etdirdi. IV Şuşa Qlobal Media Forumu sübut etdi ki, Azərbaycan regional güc olmaqla yanaşı, həm də sülhün və ədalətin səsidir. Şuşa artıq qlobal müzakirələrin ünvanına çevrilib və bu cür tədbirlər ölkəmizin haqlı səsini dünyaya çatdırır.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***



# AZƏRBAYCANIN YENİ RƏQƏMSAL ARXİTEKTURASI



### Rəqəmsal gələcəyin hüquqi tənzimləmələri və islahatlar

Rəqəmsal keçid bu sahədə təkmil qanunvericilik bazasının yaradılmasını şərtləndirir. Parlamentdə son həftələr müzakirə edilən layihələr bu məqsədə xidmət etməklə yanaşı, qlobal rəqabətdə ölkəmizin mövqeyini gücləndirmək məqsədi daşıyır. Bu mənada rəqəmsal qanunvericiliyin formalaşdırılması prosesi Azərbaycan ekosisteminin inkişafında keyfiyyətcə yeni başlanğıcdır.

Azərbaycanın yaxın və uzaq perspektiv üçün müəyyən etdiyi strateji hədəf ölkəni regionun ən cəlbedici texnologiya, innovasiya mərkəzinə və İKT məhsullarının ixracatçısına çevirməkdir. Bu hədəfə nail olmaq üçün hazırlanmış yeni qanunvericilik paketi Azərbaycanın texnoloji inkişaf tarixində ən əhatəli, fundamental hüquqi islahat dalğasıdır. Qanunvericiliyə təklif edilən kompleks islahat paketi 34 qanuna, 9 Prezident fərmanına və 3 Nazirlər Kabineti qərarına əhatəli dəyişiklikləri nəzərdə tutur və ölkənin texnoloji gələcəyini tənzimləyən beş əsas strateji istiqaməti əhatə edir. Hazırlanmış hüquqi islahat paketi innovasiya ekosistemini tamamilə yenidən qurmaq məqsədilə bir-birini tamamlayan beş əsas sütun üzərində layihələndirilmişdir.

İslahatın birinci istiqaməti ekosistem üçün zəruri olan hüquqi fundamentin qurulmasıdır. İlk dəfə olaraq milli qanunvericilikdə rəqəmsal texnologiyalar, süni intellekt, innovasiya məhsulu, kibertəhlükəsizlik, texnologiya transferi və sərbəst çalışan şəxslərin (frilanser) fəaliyyət anlayışlarının dəqiq hüquqi çərçivəsi müəyyən edilir. Eyni zamanda innovativ layihələrin qan damarı hesab olunan vençur kapitalı fondlarının hüquqi statusu təsbit olunur. Kiçik və ortahəcmli fondlar üçün xüsusi sadələşdirilmiş qeydiyyat mexanizmi yaradılır. Bu da startap layihələrinin yerli maliyyə bazarlarına çıxışını kəskin şəkildə asanlaşdıracaq və investisiya proseslərini sürətləndirəcək.

İkinci istiqamət xarici və yerli şirkətlər üçün vergi güzəştlərini özündə ehtiva edir. Rəqəmsal texnologiyalar, süni intellekt və kibertəhlükəsizlik sahələrində fəaliyyət göstərən şirkətlər üçün tam 20 illik vergi güzəştləri nəzərdə tutulur. Yüksəkixtisaslı texnologiya mütəxəssisləri üçün isə gəlir vergisi 0 faiz dərəcəsi ilə tətbiq olunacaq. Həmçinin xüsusi texnoloji laboratoriya avadanlıqlarının idxalının gömrük rüsumu və ƏDV-dən azad edilməsi yaxın illərdə ölkəyə nəhəng qlobal investisiya axını vəd edir.

Üçüncü istiqamət startapların maliyyələşmə alətlərinin müasirləşdirilməsinə yönəlikdir. Silikon Vadisində geniş istifadə olunan SAFE (Gələcək Səhmlər üçün Sadə Razılaşma) və Convertible Note (konvertasiya olunan istiqraz) kimi çevik investisiya alətləri rəsmi olaraq qanuniləşdirilir. Startapların yüksəkixtisaslı kadrları yüksək maaşla deyil, şirkət payı (opsion) təqdim edərək komandaya cəlb etməsinə şərait yaradan ESOP (İşçilərin Səhmdarlıq Planı) mexanizmi hüquqi status qazanır. Vençur fondlarının investisiya gəlirləri vergidən tam azad olunur və kraudfandinq (kütləvi maliyyələşmə) üzrə hüquqi mexanizmlər formalaşdırılır. Bu alətlər startapların erkən mərhələdə çevik maliyyələşməsi və qlobal səviyyəli istedadları komandada saxlamaq imkanı yaradır.

Dördüncü istiqamət elmi-təcrübi araşdırmaların real iqtisadiyyata inteqrasiyası ilə bağlıdır. Patentlərin və digər intellektual mülkiyyət obyektlərinin kommersiyalaşdırılması stimullaşdırılır.

Beşinci və sonuncu istiqamət isə qloballaşma şəraitində respublikada insan kapitalının inkişaf etdirilməsi ilə bağlıdır. Dünyadakı frilanser texnoloqları, proqramçıları və rəqəmsal menecerləri ölkəyə cəlb etmək üçün "Rəqəmsal səyyah" vizası və xüsusi yaşayış icazəsi tətbiq edilir. Texnologiya şirkətləri üçün xarici valyuta əməliyyatları tamamilə liberallaşdırılır. Dövlət satınalmalarında yerli startaplar və innovativ yerli məhsullar üçün xüsusi imtiyazlı kvotalar yaradılır. Bu addım dövlətin özünü innovasiya sahəsində ən böyük, etibarlı və ilkin alıcıya çevirməsini təmin edəcək və yerli startaplar üçün zəmanətli daxili bazarı formalaşdıracaqdır. Yəni irimiqyaslı qanunvericilik islahatları Azərbaycanın İKT bölməsində qabaqcıl təcrübəyə malik milli kadrların inkişafına, onun rəqabətqabiliyyətliliyinin artırılmasına xidmət edəcək, institusional və hüquqi ekosistemi tamamilə yeniləyəcək, ölkəni regionun rəqəmsal mərkəzinə çevirəcək.

### Qanunvericilik bazasının müasirləşdirilməsi və "kibergigiyena" standartları

Hazırda "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Rəqəmsal İnkişaf Konsepsiyası", "Süni İntellekt Strategiyası" və "Rəqəmsal inkişafın sürətləndirilməsinə dair Fəaliyyət Planı" strategiyalarının qanunvericilik bazasının formalaşdırılması mərhələsi həyata keçirilir. Rəqəmsal inkişafın sürətləndirilməsi istiqamətində hazırlanan qanunvericilik paketi ölkənin yeni inkişaf modelinin hüquqi əsaslarını yaradacaq. Məqsəd ölkədə rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik istiqamətlərini özündə birləşdirən vahid rəqəmsal inkişaf arxitekturası formalaşdırmaqdır. Bu model rəqəmsal dövlət idarəçiliyini, rəqəmsal iqtisadiyyatı və rəqəmsal cəmiyyəti əhatə etməklə Azərbaycanın texnoloji potensialının gücləndirilməsinə və innovasiyaya əsaslanan iqtisadi modelə keçidin sürətləndirilməsinə xidmət edir. Qanunvericilik paketi Azərbaycanın innovasiya əsaslı inkişaf modelinə keçidində mühüm hüquqi mərhələ olacaq, milli iqtisadiyyatda keyfiyyət dəyişikliklərinə təkan verəcək.

*(Əvvəli qəzetin 16 iyul tarixli nömrəsində)*



# Rəqəmsal keçid Azərbaycanın gələcəyə hədəflənmiş inkişaf modelinin əsas istiqamətlərindən biri kimi

## İnformasiya və kommunikasiya texnologiyaları sahəsində həyata keçirilən konseptual islahatlar ölkəmizi innovasiya mərkəzinə çevirir

Qanunvericilikdə ilk dəfə olaraq kiberdayanıqlılıq, kibergigiyena, kiberməkan və kibertəhlükəsizlik kimi anlayışların dəqiq hüquqi əsasları formalaşdırılır. Bu terminoloji və hüquqi bazanın yaradılması rəqəmsal mühitdə fəaliyyət göstərən bütün subyektlər üçün vahid, məcburi və effektiv təhlükəsizlik standartlarının bərqərar olmasına imkan verəcək. Hüquqi aydınlıq həm dövlət, həm də özəl sektorun kiberhədələrə qarşı eyni dildə danışmasını və eyni məsuliyyəti bölüşməsini təmin edir. Digər məqam operativliyi maksimuma çatdıran mərkəzləşdirilmiş idarəetmə modelinin yaradılmasıdır. Bu məqsədlə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində xüsusi səlahiyyətlərə və nəzarət funksiyalarına malik Milli Kibertəhlükəsizlik Agentliyi təsis edilmişdir. Ən mükəmməl proqram təminatı belə rəqəmsal savadlılığı aşağı olan istifadəçinin səhvi ucbatından sıradan çıxa bilər. Bunun qarşısını almaq üçün ali və peşə təhsili müəssisələrində beynəlxalq kibertəhlükəsizlik sertifikatlaşdırma proqramları tədris planlarına daxil edilir, gənc mütəxəssislərin yetişdirilməsi sürətləndirilir, əhalinin rəqəmsal savadlılığını artırmağa yönəlmiş genişmiqyaslı maarifləndirmə kampaniyaları həyata keçirilir.

### Süni intellekt strategiyası və milli hesablama infrastrukturunun qurulması

Süni intellekt texnologiyalarının dövlət idarəçiliyinə və cəmiyyət həyatına sürətli inteqrasiyası 2026-2028-ci illər Fəaliyyət Planının ən strateji sütunlarından biridir. Azərbaycan bu sahədə, sadəcə, istehlakçı kimi deyil, həm də öz milli süni intellekt potensialını formalaşdırmaq hədəfini qoymuşdur. Həmin yüksəksəviyyəli milli hesablama gücünün yaradılması üçün hərəkətə keçilmiş, ilkin mərhələdə 64 ədəd yüksəkperformanslı qrafik prosessorun (GPU) təchizatçısının seçimi yekunlaşdırılmışdır. Bu xüsusi avadanlıqlar cari ilin sonunadək quraşdırılaraq milli süni intellekt modellərinin öyrədilməsində əsas baza rolunu oynayacaq.

Süni intellekt sahəsində innovativ həllərin hüquqi maneələrə rast gəlmədən, təhlükəsiz və çevik şəkildə sınaqdan keçirilməsini təmin etmək məqsədilə xüsusi "Tənzimləyici test mühiti" (Regulatory Sandbox) yaradılır. Müvafiq hüquqi akt layihəsi və əməliyyat modeli artıq yekun mərhələdədir. Bu çərçivədə uğurla sınaqdan keçmiş süni intellekt həllərinin dövlət xidmətlərinə tam inteqrasiyası təmin ediləcək. Qanunvericilik işləri ilə paralel olaraq, ölkədə avtonom nəqliyyat həllərinin tətbiqi istiqamətində də ilkin araşdırmalara başlanılmışdır.

Real həyata tətbiqi baxımından 2026-cı il ərzində "mygov" platformasında 4, digər strateji dövlət qurumlarında isə 9 fərqli süni intellekt həllinin həyata keçirilməsi planlaşdırılmış və icrasına başlanılmışdır. Artıq "mygov" platformasında vətəndaşlara 24/7 rejimində fasiləsiz xidmət göstərəcək və onların suallarını cavablandıracaq süni intellekt əsaslı virtual vətəndaş köməkçisinin ilkin versiyası istismara verilmişdir. Bununla yanaşı, səhiyyə, gömrük və təhsil sahələrini əhatə edən potensial süni intellekt həlləri müəyyən edilmişdir. Burada dövlətin əsas yanaşması səmərəliliyi təmin etməkdir. Yəni bir dövlət qurumunda uğurla tətbiq olunan süni intellekt həlli digər qurumlarda da təkrar istifadə edilərək dövlət vəsaitlərinə qənaət olunacaq. Rəqəmsal transformasiyanın miqyası ölkə həyatının bütün sahələrində genişləndikcə dövlətin informasiya sis-



temlərinin, biznes sektorunun və vətəndaşların fərdi məlumatlarının kiberhədələrdən qorunması artıq, sadəcə, texniki tapşırıq deyil, birbaşa milli təhlükəsizlik məsələsinə çevrilir.

Digər mühüm məqamlardan biri süni intellektin müxtəlif sahələrə tətbiqi ilə paralel meydana çıxan müəyyən təhdidlərin, zərərli meyillərin mümkün qədər neytrallaşdırılmasıdır. Xatırladaq ki, Prezident İlham Əliyevin 19 mart 2025-ci il tarixli sərəncamı ilə ölkəmizdə "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" təsdiq edilib. Sərəncamın imzalanmasında məqsəd Azərbaycanda süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, infrastrukturunun əlçatanlığını təmin etmək, habelə ixtisaslı kadr potensialını gücləndirməkdir. Ən əsası isə dövlət orqanlarında süni intellektin tətbiq edildiyi sahələrdə informasiya təhlükəsizliyi risklərinin təhlilini həyata keçirmək, informasiya təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görməkdir.

### Tədris prosesində rəqəmsallaşma və yeni hədəflər

Rəqəmsal gələcəyin və davamlı milli inkişafın ən mühüm təminatçısı müasir texnoloji biliklərə və rəqəmsal kompetensiyalara malik insan kapitalıdır. Bu səbəbdən elm və təhsil sahəsində həyata keçirilən genişmiqyaslı rəqəmsal transformasiya dalğası fəaliyyət planının real sektorda ən uğurlu, ölçülə bilən və proqressiv nəticələr verən strateji istiqamətlərindəndir. Son 5 il ərzində ölkənin bütün ümumtəhsil və ali təhsil müəssisələri vahid, yüksəksürətli və təhlükəsiz internet şəbəkəsi infrastrukturuna qoşulmuş, tədris ocaqlarına 235 mindən çox müasir kompüter texnikası paylanılmışdır.

Tədris prosesinin operativ idarə olunmasında, müəllim-şagird-valideyn münasibətlərinin rəqəmsallaşmasında "Rəqəmsal məktəb" platforması müstəsna və mərkəzi rol oynayır. Hazırda 900 mindən çox aktiv istifadəçini (şagirdlər, müəllimlər, valideynlər və məktəb rəhbərlikləri) eyni şəffaf rəqəmsal mühitdə birləşdirən bu irimiqyaslı platforma Bakı şəhəri üzrə 354 məktəbi tam əhatə edir. Qazanılmış müsbət təcrübə əsasında 2026-2027-ci tədris ilindən etibarən bu layihə coğrafi əhatə dairəsini genişləndirərək daha 400-dən çox region məktəbinə uğurla inteqrasiya olunacaq. Təhsil xidmətlərinin rəqəmsallaşdırılması çərçivəsində vətəndaşlara ümumilikdə 62 elektron xidmət onlayn formatda təqdim olunur ki, onların da 8-i artıq dövlətin vahid "mygov" platformasına uğurla inteqrasiya edilib. Hər il 320 mindən çox vətəndaş bu xidmətlərdən aktiv şəkildə yararlanır.

Gələcəyin yüksək texnologiyalar sektorunu yerli kadrlarla təmin etmək məqsədilə orta məktəblərdə yaradılan, proqramlaşdırma və alqoritmik təfəkkürü inkişaf etdirən "Rəqəmsal bacarıqlar" layihəsi 500 mindən çox şagirdi, modern mühəndislik, robototexnika və dizayn prinsiplərini aşılayan "STEAM Azərbaycan" layihəsi isə 300 mindən çox məktəblini əhatə edir. Ali təhsil müəssisələrində də əmək bazarının tələblərinə uyğun olaraq ciddi keyfiyyət və kəmiyyət dəyişikliyi baş vermiş, 2015-2025-ci illər ərzində İT ixtisaslarına qəbulun sayı tam 5 dəfə artmışdır.

### Böyük qayıdış və azad edilmiş ərazilərdə yeni texnologiya

Azərbaycanda həyata keçirilən rəqəmsal transformasiya siyasətinin ən strateji istiqamətlərindən biri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında reallaşdırılan irimiqyaslı "ağıllı şəhər", "ağıllı kənd" layihələridir. "Böyük Qayıdışa dair Dövlət Proqramı"nın prioritet hədəflərinə uyğun olaraq, otuz illik işğaldan sonra tamamilə dağıdılmış ərazilər ənənəvi üsullarla deyil, ən müasir rəqəmsal şəbəkələr və texnoloji infrastruktur əsasında yenidən qurulur. Bu yanaşma azad edilmiş torpaqlarımızda məskunlaşan soydaşlarımızın həyat keyfiyyətini kəskin şəkildə yüksəltməklə yanaşı, bütövlükdə regionun innovasiya əsaslı iqtisadi sıçrayışına zəmin yaradır.

Zəngilanın Ağalı kəndində tətbiq olunan və qlobal miqyasda böyük maraq doğuran ilk "ağıllı kənd" modeli rəqəmsal idarəetmənin real həyatdakı ən parlaq təzahürüdür. Füzuli, Ağdam, Laçın və Şuşa şəhərlərində inşası sürətlə davam edən "ağıllı şəhər" infrastrukturları rəqəmsal arxitekturanın regional miqyasda genişlənməsini təmin edir. Bu şəhərlərdə tətbiq olunan ağıllı işıqlandırma, intellektual nəqliyyat idarəetmə sistemləri (ITS), rəqəmsal tullantı idarəçiliyi və yüksəksürətli 5G şəbəkəsi gələcəyin dayanıqlı urbanizasiya modelini formalaşdırır. Azad edilmiş ərazilərdə bütün dövlət binalarının, təhsil və səhiyyə müəssisələrinin ilkin mərhələdən tam rəqəmsal platformalara inteqrasiya olunmuş şəkildə layihələndirilməsi bu regionları ölkənin ən mütərəqqi "rəqəmsal zonası"na çevirir.

### "Yaşıl rəqəmsallaşma": texnoloji inkişaf və ekoloji dayanıqlıq

Müasir dövlət idarəçiliyinin mühüm qlobal çağırışlarından biri rəqəmsal transformasiya prosesləri ilə ekoloji dayanıqlıq hədəflərinin sinxronlaşdırılması, yəni beynəlxalq təcrübədə "ikili keçid" adlandırılan strateji modelin tətbiqidir. Azərbaycan dövləti rəqəmsallaşmanı, sadəcə, texnoloji hədəf kimi deyil, həm də ətraf mühitin qorunması, karbon emissiyalarının azaldılması və "yaşıl artım" iqtisadiyyatına keçidin əsas katalizatoru kimi nəzərdən keçirir. Bu xətt ölkəmizin qlobal iqlim dəyişikliyi ilə mübarizə və ekoloji təhlükəsizlik strategiyası ilə tam uyğunlaşır.

Rəqəmsal inkişafın gətirdiyi ən böyük çağırışlardan biri nəhəng məlumat mərkəzlərinin (Data Centers) və rəqəmsal infrastrukturun yüksək həcmdə elektrik enerjisi istehlak etməsidir. Bu problemi qabaqlayıcı qaydada həll etmək məqsədilə, ölkədə yaradılmasına başlanılmış mərkəzləşdirilmiş Dövlət Məlumat Hövzəsinin və genişlənən Hökumət Buludu (G-Cloud) infrastrukturunun tamamilə ekoloji təmiz, bərpaolunan "yaşıl enerji" mənbələri ilə qidalanması strateji hədəf kimi müəyyən edilib. Bu addım Azərbaycanda İKT sektorunda dekarbonizasiya standartlarının bərqərar olmasına imkan verir. Eyni zamanda rəqəmsal texnologiyalar digər ənənəvi sənaye sahələrinin, energetika və logistika sistemlərinin "yaşıllaşdırılması" üçün güclü alət rolunu oynayır. Süni intellekt əsaslı enerji şəbəkələri elektrik enerjisinin istehsalı və paylanmasında itkiləri real vaxt rejimində təhlil edərək optimallaşdırır.

### Digər mühüm sahələrdə rəqəmsallaşma: iqtisadiyyat, sənaye və səhiyyə

Rəqəmsal transformasiya dalğası təhsil sahəsi ilə məhdudlaşmayaraq, ölkənin sosial-iqtisadi həyatının digər bütün mühüm sahələrini də kompleks şəkildə əhatə etməkdədir. Sənaye və iqtisadiyyat sahələrində rəqəmsallaşma isə ölkənin qeyri-neft sektorunun səmərəliliyinin və şaxələndirilməsinin əsas iqtisadi rıçaqıdır. IV Sənaye İnqilabı prinsiplərinin (Industry 4.0) real istehsalat sahələrinə tətbiqi, fabriklərdə və zavodlarda avtomatlaşdırılmış əşyaların interneti (IoT) idarəetmə sistemlərinin qurulması, logistik zəncirin və tədarük proseslərinin rəqəmsal əkizlər vasitəsilə izlənilməsi yerli məhsulların tranzaksiya maya dəyərini aşağı salır, itkiləri minimuma endirir. Beynəlxalq bazarlarda Azərbaycan məhsullarının rəqabət gücünü kəskin artırır. Eyni zamanda rəqəmsal iqtisadiyyatın inkişafı, elektron ticarətin (e-commerce) coğrafiyasının regional miqyasda genişlənməsi, gömrük bəyannamələrinin və vergi sistemlərinin tam avtomatlaşdırılaraq şəffaflaşdırılması və biznes sektoru üçün açıq dövlət məlumatlarının təhlükəsiz API-lər (tətbiqi proqramlaşdırma interfeysləri) vasitəsilə əlçatan edilməsi ölkədə sahibkarlıq və investisiya mühitini tamamilə innovativ relslər üzərinə köçürür. Bütün bu sahələrdə sinxron şəkildə aparılan institusional islahatlar milli iqtisadi artımın dayanıqlılığını və rəqəmsal suverenliyi uzunmüddətli perspektivdə təmin etməyə xidmət edir.

Səhiyyə sahəsinin tam rəqəmsallaşdırılması da vətəndaşların tibbi xidmətlərə keyfiyyətli əlçatanlığını köklü surətdə yeniləyir. "e-Təbib", "e-Səhiyyə" və xüsusilə həkim reseptlərinin elektron dövriyyəsini təmin edərək şəffaflığı artıran, kağız daşıyıcıları sıradan çıxaran "Reseptim" sisteminin "mygov" ekosisteminə inteqrasiyası vətəndaşların tibbi tarixçəsinin, analiz nəticələrinin və rentgen/MH şəkillərinin vahid, təhlükəsiz platformada toplanmasına şərait yaradır. Yaxın gələcəkdə səhiyyə sistemində geniş tətbiq olunacaq süni intellekt və maşın öyrənməsi həlləri xəstəliklərin erkən diaqnostikasında, rentgen analislərinin oxunmasında və müalicə protokollarının optimallaşdırılmasında həkimlərə etibarlı virtual köməkçi olacaqdır.

### Süni intellekt əsaslı logistika: Orta dəhlizin rəqəmsal gələcəyi

Azərbaycanın rəqəmsal transformasiya, texnologiya və süni intellekt sahəsində atdığı addımlar ölkənin Orta dəhlizdə logistika və enerji mərkəzi kimi rolunu keyfiyyətcə yeni mərhələyə daşımaq potensialına malikdir. Fiziki infrastrukturun rəqəmsal və süni intellekt ekosistemi ilə inteqrasiyası Azərbaycanı təkcə tranzit ölkə deyil, məlumat, texnologiya və "ağıllı logistika həlləri" yaradan regional innovasiya mərkəzinə çevirə bilər.

Orta dəhlizin rəqəmsallaşdırılması nəqliyyat proseslərində səmərəliliyi və proqnozlaşdırılmanı əhəmiyyətli dərəcədə artırar. Süni intellekt əsasında tələbin proqnozlaşdırılması, gömrük prosedurlarının avtomatlaşdırılması və yüklərin real vaxt rejimində izlənməsi tranzit müddətlərini qısaldır, xərcləri azaldır və təchizat zəncirində şəffaflığı gücləndirir. Bu yanaşma Orta dəhlizi coğrafi alternativdən texnoloji baxımdan üstün ticarət yoluna çevirə bilər. Eyni zamanda bu, Azərbaycanı Avropa ilə Asiya arasında təkcə malların deyil, məlumat və rəqəmsal xidmətlərin axınının da mühüm mərkəzinə çevirir.

### Qlobal rəqəmsallaşmada Azərbaycanın böyük hədəfləri

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən rəqəmsal inkişaf strategiyası Azərbaycanın uzunmüddətli milli, iqtisadi və təhlükəsizlik maraqlarına xidmət edən ən fundamental islahatlar paketidir. Bu strateji kurs dövlət aparatının, sadəcə, formal olaraq modernləşdirilməsi deyil, bütövlükdə dövlət-vətəndaş-biznes münasibətlərinin yeni bir idarəetmə fəlsəfəsi üzərində qurulması prosesidir.

Dövlətimizin başçısının keçirdiyi tarixi müşavirə, Rəqəmsal İnkişaf Şurasının yaradılması, 2026-2028-ci illəri əhatə edən mükəmməl Fəaliyyət Planının qəbulu və iyunun 29-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə şuranın ilk iclasının keçirilməsi ölkəmizin bu yolda nə qədər inamlı, sistemli və sürətli addımlarla irəlilədiyini əyani şəkildə sübut edir. Atılan hər bir addım tək bir strateji hədəfə yönəlmişdir. Məqsəd Azərbaycanı cəmiyyət həyatının bütün sahələrində ən müasir texnologiyalar əsasında idarəolunan qabaqcıl, çevik və vətəndaşyönümlü dövlətlər sırasına çıxarmaqdır.

Bu böyük transformasiyanın makroiqtisadi və sosial təsirlərini daha dərindən anlamaq üçün qabaqlayıcı dövlət modelinə keçidi xüsusi vurğulamaq lazımdır. Fəaliyyət Planının təməl hədəflərindən biri olan proaktiv dövlət xidmətlərinin payının 50 faizə çatdırılması çox önəmli məqamdır. Bu model genişləndikcə Dövlət Məlumat Hövzəsinə inteqrasiya olunmuş süni intellekt alətləri vətəndaşların müraciət etməsini gözləmədən onların sosial ehtiyaclarını proqnozlaşdıracaq. Aztəminatlı ailələrin müəyyən edilməsi, ünvanlı sosial yardımların verilməsi və ya əlillik təyinatları alqoritmlər vasitəsilə tam obyektiv şəkildə, insan amili və subyektivlik olmadan icra ediləcək.

Digər tərəfdən, Azərbaycan uzun illərdir regional nəqliyyat və enerji qovşağı kimi qlobal layihələrin mərkəzində dayanır və mövcud rəqəmsal transformasiya bu fiziki dəhlizləri "Rəqəmsal dəhliz" statusu ilə tamamlayır. Dünyanın müxtəlif ölkələrindən dəvət edilən yüksəkixtisaslı texnologiya mütəxəssislərinə və frilanserlərə verilən "Rəqəmsal səyyah" vizaları ilə 0 faiz gəlir vergisi güzəşti Bakını regionun İT brendinə çevirir və bu da yerli kadrların qlobal təcrübə qazanmasını sürətləndirir. Texnologiya, süni intellekt və kibertəhlükəsizlik şirkətlərinə tanınan 20 illik vergi və gömrük imtiyazları isə qlobal İKT nəhənglərinin Azərbaycanda regional ofislərini açması üçün güclü stimuldur. Bu addımlar ölkənin qeyri-neft ixracatında proqram təminatı və texnoloji xidmətlərin payını əhəmiyyətli dərəcədə artıracaq.

Rəqəmsal iqtisadiyyatın şəffaflıq və səmərəlilik effekti də eyni dərəcədə inqilabi xarakter daşıyır. IV Sənaye İnqilabı prinsiplərinin iqtisadiyyat, o cümlədən sənaye və kənd təsərrüfatı sahəsinə transferi ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini yeni pilləyə daşıyır. Blokçeyn əsaslı gömrük və vergi sistemləri, tam avtomatlaşdırılmış elektron ticarət platformaları və biznes üçün açıq API-lər sayəsində maliyyə dövriyyəsi tam şəffaflaşır, kölgə iqtisadiyyatı minimuma enir və sağlam rəqabət mühiti bərqərar olur. Dövlət satınalmalarında yerli innovativ məhsullara kvotaların ayrılması isə erkən mərhələdə olan startapların daxili bazarda sürətlə böyüməsinə və maliyyə dayanıqlığı qazanmasına zəmanət verir ki, bu zəmanət yerli vençur kapitalı fondlarının aktivliyini daha da artırır.

Nəhayət, rəqəmsallaşma sürətləndikcə müdafiə mexanizmlərinin də eyni dərəcədə güclənməsi milli suverenliyin əsas şərtinə çevrilir. Yaradılan Milli Kibertəhlükəsizlik Agentliyi və süni intellekt əsaslı qabaqlayıcı platformalar dövləti potensial hibrid müharibələrdən və transmilli kiberhədələrdən etibarlı şəkildə qoruyur. Kritik infrastrukturların Hökumət Buluduna tam köçürülməsi və cəmiyyətdə "kibergigiyena" mədəniyyətinin formalaşdırılması Azərbaycanı xarici rəqəmsal təhdidlərə qarşı tam qorunan bir rəqəmsal qalaya çevirir.

Həyata keçirilən bu kompleks və sistemli islahatlar əminliklə deməyə əsas verir ki, Azərbaycan yaxın illərdə nəinki regionun siyasi, iqtisadi və nəqliyyat mərkəzi statusunu qoruyacaq, həm də Cənubi Qafqazın və geniş Avrasiya coğrafiyasının aparıcı rəqəmsal, texnoloji və innovasiya mərkəzinə çevriləcək. Qlobal səviyyədə rəqəmsallaşma sahəsində lider dövlətlərdən biri kimi öz sözünü deyən ölkəmizin bu strateji gedişi Azərbaycanın gələcək onilliklərdəki dayanıqlı inkişafının və sarsılmaz rəqəmsal suverenliyinin ən böyük, ən etibarlı təminatıdır. Bütün bunlar heç şübhəsiz, Azərbaycanı inkişafının daha yüksək keyfiyyət mərhələsinə yüksəldəcək.

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda jurnalistlərin çoxsaylı suallarını cavablandırarkən bir çox məsələyə, o cümlədən rəqəmsal transformasiyaya da toxundu. Dövlətimizin başçısı bir daha bəyan etdi ki, gündəliyimizin əsas istiqamətlərindən biri rəqəmsal transformasiyanın və süni intellektin inkişafıdır. Beləliklə, rəqəmsal keçid Azərbaycanın gələcəyə hədəflənmiş inkişaf modelinin prioritet istiqamətlərindən biri olacaq və bu sahədə həyata keçirilən konseptual islahatlar ölkəmizi innovasiya mərkəzinə çevirəcək.

*Ziyad SƏMƏDZADƏ,*
*akademik*



# Dəyişən dünyada dəyişməz dəyər - milli birlik

Müasir dünyanın mürəkkəb geosiyasi mənzərəsi, o cümlədən qarşıdurmaların artması nəticəsində yaranan gərginliklər və yeni çağırışlar hər bir dövlət üçün milli həmrəyliyin, müstəqil düşüncənin və güclü iradənin nə qədər vacib olduğunu bir daha göstərir. Belə bir dövrdə Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri milli birliyi qorumaq, əldə olunan nailiyyətləri daha da möhkəmləndirmək və gələcək nəsillərə güclü dövlət miras qoymaqdır.

Azərbaycan dövləti Vətən müharibəsində qazandığı böyük Zəfərlə haqsızlığa son qoydu, ədaləti bərpa etdi. 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış Qarabağ və Şərqi Zəngəzuru azadlığa qovuşduran ordumuz bizi məğlubiyyət əzabından xilas etdi. O böyük Zəfərin əbədi qüruru, tükənməz sevinci qalib xalq olaraq yaşamaqdır.

Xalqın və dövlətin bir yumruq kimi birləşməsi, milli birliyimizin möhtəşəm gücü tarixi qələbəmizin reallaşmasında mühüm rol oynadı. Prezident İlham Əliyevin istər Vətən müharibəsindən əvvəl, istər müharibə, istərsə də sonrakı dövrlərdə müxtəlif çıxış və müraciətlərində diqqət mərkəzində saxlanılan əsas məqamlardan biri də məhz milli birlik, öz gücünə inam və müstəqilliyin qorunmasıdır. Dövlət başçısı hər zaman xüsusi vurğulayır ki, Azərbaycan xalqı gələcəyini ilk növbədə öz iradəsi, birliyi və əzmi ilə müəyyən etməlidir. Prezident İlham Əliyev iyulun 13-də IV Şuşa Qlobal Media Forumundakı çıxışında demişdir: "Müraciətlərim məzmunca fərqli olsa da, deyə bilərəm onların ana xətti dəyişməz olaraq qalır ki, biz ancaq özümüzə güvənə bilərik".

Milli birliyimiz dövlətçilik tariximiz və xalqımızın milli-mənəvi dəyərləri ilə sıx bağlıdır. Bu birlik xalqımızın dövlətinə bağlılığını, gələcəyə inamını və ümumi məqsədlər uğrunda fəaliyyət göstərmək iradəsini nümayiş etdirir. Bu baxımdan IV Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısı Azərbaycan cəmiyyətində formalaşmış həmrəyliyi yüksək qiymətləndirmişdir: "Çünki bu, ürəkdən gələn, insanların zehnindən gələn bir birlikdir. Elə bil ki, iki çay birləşir bir yerə. Bax, odur bu birlik - həm qəlbən, həm də necə deyərlər, fikir olaraq".

Zaman göstərir ki, hər bir müstəqil dövlətin ən böyük dayağı yalnız iqtisadi və siyasi imkanları deyil, həm də cəmiyyətin vahid məqsədlər ətrafında birləşmək bacarığıdır. Ölkəmizin son illər əldə etdiyi mühüm uğurların əsas amillərindən biri cəmiyyətin dövlətçilik ideyaları ətrafında sıx birləşməsidir. Bu birlik həm də ölkənin gələcək inkişaf perspektivlərinin təmin olunmasında mühüm rol oynayır. Məhz buna görə də milli həmrəyliyin qorunması hər bir dövr üçün aktual və vacib məsələ olaraq qalır.

Bu baxımdan təsadüfi deyil ki, gələcəyə baxış və yeni çağırışlara hazırlıq məsələləri Prezident İlham Əliyevin çıxışlarında xüsusi yer tutur. Dövlət başçısı forumda bir daha diqqətə çatdırdı ki, biz gələcəyə baxmalıyıq, dünya dəyişir: "Yeni təhdidlər, yeni təxribatlar ortaya çıxır. Əgər kimsə fikirləşir ki, bizi istəməyən qüvvələr bizdən əl çəkəcək, olmayacaq, heç vaxt olmayacaq. Bu mübarizə daimi olmalıdır - mübarizə öz hüquqlarımızı qorumaq üçün, mübarizə öz milli kimliyimizi qorumaq üçün, öz müstəqilliyimizi öz əlimizdə saxlamaq üçün".

Müstəqilliyin qorunması dövlət, eləcə də cəmiyyətin qarşısında duran əsas vəzifədir. Bunun üçün milli kimliyə bağlılıq, tarixə hörmət, dövlətçilik ənənələrinə sədaqət və vətəndaş məsuliyyəti mühüm amillərdir. Sevindiricidir ki, ölkəmizdə gənc nəsil də bu dəyərlərə hörmət, ehtiram ruhunda böyüyür, tərbiyə alır. Milli dəyərlərə bağlı, savadlı, vətənpərvər və fəal vətəndaş kimi formalaşan gənclərimiz yalnız gələcəyin qurucuları deyil, onlar həm də bu günün ictimai həyatında mühüm rol oynayan qüvvədir. Gənclərimizin müasir biliklərə yiyələnməsi, yeni texnologiyaları mənimsəməsi, eyni zamanda milli-mənəvi dəyərlərə sadiq qalması Azərbaycanın qarşıdakı inkişaf mərhələləri üçün böyük əhəmiyyət daşıyır.

Yüz illər boyu başı bəlalar çəkmiş, sınaqlardan keçmiş xalqın gələcəyi olan gənclər öz tarixini heç zaman unutmamalı, ondan dərs almalı, ayıqsayıq olmalıdırlar. Dövlətimizin başçısı forumda bu mühüm məsələyə da toxunmuşdur: "Bir çox misallar var ki, bəzi ölkələr, onların rəhbərləri kiminsə qanadının altına sığınırlar və hesab edirlər ki, bu, onları qoruyacaq. Amma nəticə etibarilə olurlar qurban. Böyük oyunların qurbanları".

Prezident qeyd etmişdir ki, bizim xalqımız həm işğal görüb, həm dağıntılar görüb, həm Zəfər görüb, həm də bu gün bu bərpa və dirçəliş dövrünü həm görür, həm də bunun iştirakçısıdır: "Ona görə bu sözlərim gələcək nəsillərə, gənc nəslədir ki, Azərbaycan xalqı əbədi, yəni qürurlu xalq kimi, qalib xalq kimi yaşasın, milli kimlik hər şeydən üstün olmalıdır, milli ləyaqət hər şeydən üstün olmalıdır. Məğlub ola bilərsən, - indi olur belə hadisələr, - amma gərək heç vaxt əyilməyəsən, sınmayasan. Heç vaxt işğalçı ilə razılaşmayasan, işğalçının diktəsi ilə oturub-durmamalısan. Lazım olsa, ölsən də belə gərək ləyaqətlə yaşayasan və öz övladlarına, nəvələrinə, nəticələrinə bunu aşılayasan. Ona görə bizim gələcək inkişafımız gənc nəslə bağlı olacaq, təqribən 20 il, 30 il, 50 il sonra. Onlar da bizim kimi Vətənə bağlı, mətin, iradəli, güclü olmalıdırlar ki, Azərbaycan daim yüksəklərdə olsun".

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# Nəqliyyat-logistika əməkdaşlığı Azərbaycan-Çin strateji tərəfdaşlığını daha da möhkəmləndirir

Çin Azərbaycanın ən böyük tərəfdaşlarından biridir və hər ötən il iki ölkə arasında əlaqələr daha da dərinləşir. Azərbaycan və Çin arasında iqtisadi əməkdaşlığın mühüm istiqamətlərindən biri Orta dəhlizin inkişafı ilə bağlıdır. Avropa ilə Asiyanı birləşdirən bu mühüm nəqliyyat marşrutu yüklərin təhlükəsiz və sürətli daşınması baxımından böyük əhəmiyyətə malikdir. Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün əsas komponentlərindən biri olan dəhliz Pekin və Bakı arasında əlaqələrin inkişafına daha da təkan verir.

"Şərq-Qərb" Beynəlxalq Nəqliyyat Dəhlizinin tərkib hissəsi olan Orta dəhliz yalnız nəqliyyat marşrutu deyil, iki qitə arasında iqtisadi və geosiyasi əməkdaşlığı gücləndirən strateji platformadır. Bu baxımdan nəqliyyat marşrutunun keçdiyi ölkələrdən biri kimi Azərbaycanla əlaqələrin genişləndirilməsi Çin üçün də vacibdir.



Azərbaycan Orta dəhlizin inkişafı istiqamətində bir sıra mühüm nəqliyyat və logistika layihələri həyata keçirib. Müasir nəqliyyat infrastrukturunun qurulması, logistika mərkəzlərinin modernləşdirilməsi, gömrük və sərhəd prosedurlarının rəqəmsallaşdırılması marşrutun rəqabət qabiliyyətini gücləndirib. Bütün bunları nəzərə alaraq Azərbaycan bu gün yalnız dəhlizin tranzit ölkəsi deyil, beynəlxalq nəqliyyat marşrutunun inkişafını təşviq edən, regional əməkdaşlığı gücləndirən strateji tərəfdaşdır. Bu isə Çin, Mərkəzi Asiya və Avropa arasında ticarət əlaqələrinin genişlənməsinə mühüm töhfə verir.

**Milli Məclisin deputatı Vüqar BAYRAMOV** mövzu ilə əlaqədar qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda çıxışı zamanı bir sıra strateji istiqamətlərə toxunub və bunlardan biri də Orta dəhlizin imkanlarının genişləndirilməsi, bu kontekstdən Çin Xalq Respublikası ilə əməkdaşlıq idi: "Azərbaycan Orta dəhlizin infrastrukturunun genişlənməsinə töhfə verən ölkələrdəndir. Bir tərəfdən Ələt ticarət limanının ötürmə qabiliyyəti 15 milyon tondan 25 milyon tona qədər yüksələcək. Bu da, təbii ki, Azərbaycan üzərindən daha çox yükün daşınmasına imkan verəcək. Digər tərəfdən, Zəngəzur dəhlizinin (TRIPP) istifadəyə verilməsi və onun "Şərq-Qərb", bütövlükdə Orta dəhlizə inteqrasiyası da region üzərindən daha çox yükün daşınmasına şərait yaradacaq".

Bu baxımdan Azərbaycan-Çin münasibətlərinin kifayət qədər strateji və vacib olduğunu qeyd edən deputat əlavə edib ki, iki ölkə strateji tərəfdaşdır və bütün bunlar çox fərqli sahələrdə əməkdaşlığın inkişafına imkan verir. "Artıq bir ildən çoxdur ki, Azərbaycan və Çin vətəndaşları üçün vizasız rejim tətbiq olunub. Bu, ölkələr arasında turizm və biznesin inkişafına xüsusi təkan verir. Eyni zamanda Çin Azərbaycanın ən böyük üç tərəfdaşından biridir, hətta son statistikada Çin ikinci ən böyük ticarət tərəfdaşına çevrilib. Pekinlə Bakı arasında strateji tərəfdaşlıq həm də iki ölkə arasında ticarət dövriyyəsinə təsir göstərir və artımlar müşahidə olunur", - deyə o bildirib.

V.Bayramov vurğulayıb ki, Azərbaycan və Çin arasında nəqliyyat və logistika sahəsindəki əməkdaşlıq strateji baxımdan ölkələr arasında münasibətlərin daha da dərinləşməsinə xidmət edəcək.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# *Ortaq tarixdən strateji birliyə:* Azərbaycan-Mərkəzi Asiya ölkələri əməkdaşlığının yeni dövrü

XXI əsr beynəlxalq münasibətlər sisteminə yeni siyasi və iqtisadi reallıqlar gətirib. Qlobal güc mərkəzlərinin təzədən formalaşdığı, enerji təhlükəsizliyinin, nəqliyyat-kommunikasiya xətlərinin və beynəlxalq ticarət marşrutlarının strateji əhəmiyyət qazandığı bir dövrdə regionlar arasında əməkdaşlığın mahiyyəti də dəyişir. Artıq dövlətlər təkcə coğrafi yaxınlıq prinsipi ilə deyil, ortaq maraqlar, qarşılıqlı etimad və uzunmüddətli inkişaf strategiyaları əsasında yeni inteqrasiya platformaları yaradırlar.

Məhz bu baxımdan XXI əsrdə Mərkəzi Asiya ortaq iqtisadi maraqların, strateji nəqliyyat-kommunikasiya dəhlizlərinin və türk dünyasının siyasi həmrəyliyinin formalaşdığı yeni geostrateji coğrafiyaya çevrilib. Azərbaycanın bu coğrafiyanın iştirakçısı kimi qəbul olunması isə son illərin ən mühüm geosiyasi hadisələrindəndir. Çünki ölkəmiz coğrafi baxımdan Cənubi Qafqazda yerləşsə də, onun Mərkəzi Asiya dövlətləri ilə əlaqələri xəritələrin müəyyən etdiyi sərhədlərdən qat-qat qədimdir. Ortaq etnik köklər, dil və mədəniyyət birliyi, əsrlər boyu formalaşmış mənəvi dəyərlər, tarixi İpək yolunun yaratdığı iqtisadi münasibətlər və qarşılıqlı etimad bu əlaqələrin möhkəm bünövrəsini təşkil edir.

Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli xarici siyasət nəticəsində Azərbaycan Mərkəzi Asiya dövlətləri ilə münasibətlərini ikitərəfli əməkdaşlıq çərçivəsi ilə bərabər, bütövlükdə türk dünyasının siyasi, iqtisadi və humanitar inteqrasiyasının mühüm istiqamətlərindən biri kimi inkişaf etdirib. Bu gün ölkəmiz Mərkəzi Asiya dövlətləri üçün etibarlı tərəfdaş, Avropaya açılan əsas nəqliyyat qapısı və Xəzər hövzəsində mühüm logistika mərkəzi kimi qəbul edilir.

Son illər baş verən hadisələr və geosiyasi proseslər göstərir ki, Azərbaycan və Mərkəzi Asiya dövlətləri yeni geoiqtisadi məkan formalaşdırırlar. Orta dəhlizin inkişafı, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarının artması, enerji resurslarının şaxələnməsi, rəqəmsal kommunikasiya xətlərinin çəkilməsi və logistika infrastrukturuna qoyulan investisiyalar regionun iqtisadi xəritəsini dəyişdirən əsas amillərə çevrilib. Bu layihələr təkcə yükdaşımaların həcmini artırmır, həm də Mərkəzi Asiya ilə Avropa arasında etibarlı və davamlı əlaqələrin qurulmasına xidmət edir.

Bu yeni mərhələnin mahiyyəti Prezident İlham Əliyevin Şuşada keçirilən IV Qlobal Media Forumundakı çıxışında da aydın ifadəsini tapdı. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına tamhüquqlu üzv kimi qoşulması təsadüfi qərar deyil. Prezidentin qeyd etdiyi kimi, coğrafi baxımdan Cənubi Qafqazda yerləşməyimizə baxmayaraq, ortaq tarix, mədəniyyət, etnik bağlılıq və qarşılıqlı siyasi etimad Mərkəzi Asiya dövlətlərinin ölkəmizi bu ailənin ayrılmaz hissəsi kimi qəbul etməsinə möhkəm zəmin yaradıb. Bu yanaşma həm də onu təsdiqləyir ki, türk dünyasının gələcəyi coğrafi sərhədlərlə deyil, ortaq strateji maraqlarla müəyyənləşir.

Qlobal iqtisadiyyatda baş verən dəyişikliklər, beynəlxalq yükdaşımaların yeni marşrutlar üzrə istiqamətlənməsi və enerji bazarlarında yaranan yeni reallıqlar Mərkəzi Asiya ilə Azərbaycan arasında əməkdaşlığın əhəmiyyətini daha da artırır. Məhz buna görə də Xəzər hövzəsini əhatə edən nəqliyyat və logistika layihələri qlobal iqtisadi təhlükəsizlik baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın müasir liman infrastrukturu, dəmir yolları, avtomobil magistralları və tranzit imkanları Mərkəzi Asiya ölkələrinin dünya bazarlarına çıxışını sürətləndirən etibarlı bağlantılar yaradır.




Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasında tamhüquqlu üzv kimi təmsil olunması bu proseslərin institusional əsaslarını daha da möhkəmləndirir. Bu platforma qarşılıqlı qərarların daha operativ razılaşdırılmasına, ortaq layihələrin əlaqələndirilməsinə və region dövlətlərin beynəlxalq təşəbbüslərinin uzlaşdırılmasına yeni imkanlar açır. Başqa sözlə, söhbət yalnız siyasi dialoqdan deyil, vahid strateji baxışın formalaşdırılmasından gedir. Prezident İlham Əliyev forumdakı çıxışında bu yanaşmanı daha da konkretləşdirərək bildirdi ki, ölkəmizin Məşvərət Şurasına tamhüquqlu üzv kimi qəbul edilməsi qarşılıqlı etimadın və ortaq dəyərlərin məntiqi nəticəsidir. Dövlətimizin başçısının Özbəkistanla münasibətləri nümunə göstərməsi bir daha təsdiqlədi ki, bu gün qardaş ölkələr arasında əməkdaşlıq siyasi bəyanatlardan real iqtisadi layihələrə, qarşılıqlı sərmayələrə və birgə inkişaf proqramlarına transformasiya olunur.

Əlamətdar cəhətlərdən biri də ondan ibarətdir ki, bu yeni əməkdaşlıq modeli heç bir qarşıdurma və ya blok siyasətinə əsaslanmır. Əksinə, onun fəlsəfəsində açıq əməkdaşlıq, qarşılıqlı fayda, bərabərhüquqlu tərəfdaşlıq və regional sabitlik dayanır. Məhz buna görə Azərbaycanın təşəbbüsləri beynəlxalq səviyyədə də maraqla qarşılanır. Çünki ölkəmiz Şərqlə Qərbi, Cənubla Şimalı birləşdirən mühüm nəqliyyat qovşağı olmaqla yanaşı, etibarlı dialoq və əməkdaşlıq məkanı kimi də öz mövqeyini möhkəmləndirib.

Tarix xalqları bir-birinə yaxınlaşdırır, siyasət onları tərəfdaşa çevirir, ortaq maraqlar isə uzunmüddətli strateji birliyi təmin edir. Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında bu gün müşahidə olunan inteqrasiya məhz belə möhkəm təməl üzərində yüksəlir. Bu birlik yalnız ortaq keçmişin yox, həm də ortaq gələcəyin nəticəsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və uzaqgörən siyasət sayəsində ölkəmiz artıq bu böyük geostrateji məkanın ayrılmaz iştirakçısı, etibarlı tərəfdaşı və təşəbbüskar dövlətlərindən biridir.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

# *Hüsamettin İNANÇ:* "Türkiyə-Azərbaycan münasibətləri bütün türk dünyası üçün nümunəvi əməkdaşlıq modelidir"

"Azərbaycan ilə Türkiyə arasındakı münasibətlər təkcə dostluq və qardaşlıq anlayışları ilə məhdudlaşmır. Bu münasibətlər tarixi inkişaf prosesində formalaşmış, ortaq tarixə, ortaq mədəniyyətə, ortaq kimliyə və ortaq strateji maraqlara əsaslanan xüsusi tərəfdaşlıq modelidir. Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda Türkiyə-Azərbaycan münasibətləri ilə bağlı səsləndirdiyi fikirlər də məhz bu tarixi reallığı bir daha təsdiqləyir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında **türk politoloq Hüsamettin İNANÇ** deyib.

Hüsamettin İnanç bildirib ki, 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfər bu münasibətlərin daha da möhkəmlənməsində həlledici rol oynayıb.

Ekspert vurğulayıb ki, iki ölkə arasında əməkdaşlıq yalnız təhlükəsizlik sahəsi ilə məhdudlaşmır. "Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində həyata keçirilən layihələr də münasibətlərin strateji mahiyyətini nümayiş etdirir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, təbii qaz layihələri və digər iri enerji təşəbbüsləri iki ölkə arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etməsinə mühüm töhfə verib. Bu gün Türkiyə-Azərbaycan münasibətləri Ümummilli Lider Heydər Əliyevin irəli sürdüyü "Bir millət, iki dövlət" fəlsəfəsinin ən parlaq təzahürüdür.

Bu gün Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər həqiqətən də Heydər Əliyevin ifadə etdiyi 'Bir millət, iki dövlət' prinsipi üzərində qurulub. Çünki bizi birləşdirən yalnız siyasi maraqlar deyil. Ortaq dilimiz, milli kimliyimiz, soy birliyimiz və ortaq tarixi təcrübəmiz mövcuddur. Məhz bu amillər münasibətlərimizi fərqləndirən əsas xüsusiyyətlərdir. Türk Dövlətləri Təşkilatının inkişafı da Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə xidmət edir. Türk Dövlətləri Təşkilatının fəaliyyətinin genişlənməsi münasibətləri daha güclü institusional əsas üzərində inkişaf etdirir. Son qəbul olunan qərarlara əsasən təşkilatın təhlükəsizlik və müdafiə arxitekturasının formalaşdırılması istiqamətində mühüm addımlar atılır və Azərbaycanın bu sahədə mərkəz kimi müəyyənləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Gələcəkdə Türkiyə, Azərbaycan və digər türk dövlətlərinin birgə hərbi təlimlərinin Bakıda keçirilməsi də bu əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu göstərir", - deyə ekspert bildirib.



Politoloqun fikrincə, Vətən müharibəsində əldə olunan Qələbə bütün türk dünyası üçün mühüm örnək yaradıb. "Qarabağ Zəfərinin yaratdığı sinerji digər türk dövlətləri üçün də mühüm nümunədir. Şübhəsiz ki, bütün türk dövlətləri bizim qardaşlarımızdır və hər biri xüsusi əhəmiyyət daşıyır. Lakin Türkiyə baxımından Azərbaycanla münasibətlər bütün türk dünyası ilə qurulan əməkdaşlığın əsasını təşkil edir. Bu münasibətlər digər türk dövlətləri ilə inkişaf etdirilən tərəfdaşlıq üçün nümunəvi modeldir. Bu dərinlikdə və bu səviyyədə münasibətlər indiyədək heç bir başqa dövlətlə formalaşmayıb. Buna görə də bu strateji əməkdaşlığın dəyərini düzgün qiymətləndirmək son dərəcə vacibdir. Türkiyə ilə Azərbaycan arasında təhsil, elm, iqtisadiyyat və digər sahələrdə əməkdaşlıq da sürətlə genişlənir. Bu gün universitetlərimiz, iş dünyamız və müxtəlif sahələr üzrə qurumlarımız Azərbaycan ilə çox sıx əməkdaşlıq edir", - deyə Hüsamettin İnanç əlavə edib.

# "TV Berlin" kanalı: "Azərbaycan Almaniya və Avropa üçün strateji tərəfdaş kimi mövqeyini möhkəmləndirir"

Almaniya paytaxtının televiziya kanalı olan "TV Berlin"də Azərbaycan-Almaniya münasibətlərinə həsr olunmuş geniş reportaj yayımlanıb.



AZƏRTAC xəbər verir ki, reportajda Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycanın son illər enerji təhlükəsizliyi, ticarət, nəqliyyat və regional sabitlik sahələrində Almaniya və Avropa üçün getdikcə daha böyük əhəmiyyət kəsb etdiyi qeyd olunub. Bu baxımdan Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Bakıya son səfərinin əhəmiyyəti xüsusi vurğulanıb. Qeyd olunub ki, səfər çərçivəsində enerji, nəqliyyat, rəqəmsal infrastruktur və regional bağlantılar üzrə əməkdaşlığın genişləndirilməsi müzakirə edilib. Avropa İttifaqının Cənubi Qafqazda bağlantıların inkişafına yeni dəstək paketini açıqlamasının Brüsselin Azərbaycanı qitənin dayanıqlılıq, enerji təhlükəsizliyi və ticarət strategiyasının mühüm elementi kimi qiymətləndirdiyini göstərdiyi vurğulanıb.

Materialda Azərbaycan-Almaniya münasibətlərinin dinamik inkişafından da söz açılıb, iki ölkə arasında siyasi dialoqun son illərdə yeni mərhələyə qədəm qoyduğu diqqətə çatdırılıb. Bildirilib ki, Prezident İlham Əliyev 2023-cü ildən bəri Almaniyaya beş dəfə səfər edib. Bu səfərlərin ikisi Kansler Olaf Şoltsun dəvəti ilə Berlinə, üçü isə Münxen Təhlükəsizlik Konfransı ilə əlaqədar baş tutub. Həmçinin ötən ilin aprelində Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin Azərbaycana səfər edən ilk rəsmi Almaniya Prezidenti olduğu qeyd olunub. Bundan başqa, ötən ilin dekabrında Almaniya Kansleri Fridrix Merts ilə Prezident İlham Əliyev arasında telefon danışığı xatırlanıb, Kanslerin dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət etdiyi bildirilib. Bu təmasların Azərbaycanın Almaniyanın Şərq tərəfdaşlığı siyasətində artan rolunun göstəricisi olduğu diqqətə çatdırılıb.




Reportajda Cənubi Qafqazın Avropa, Xəzər hövzəsi və Mərkəzi Asiyanı birləşdirən əsas geosiyasi məkanlardan biri olduğu vurğulanıb. Bu kontekstdə Azərbaycanın yerləşdiyi coğrafiyanın regionda əməkdaşlığın genişlənməsi və sabitliyin möhkəmlənməsi üçün unikal imkanlar yaratdığı qeyd edilib. Xüsusilə Orta dəhlizin Avropa və Mərkəzi Asiya arasında yükdaşımaların əsas marşrutlarından birinə çevrildiyi, Almaniya kimi ixracyönümlü iqtisadiyyat üçün etibarlı və alternativ logistika xətlərinin strateji əhəmiyyət daşıdığı diqqətə çatdırılıb. Yaxın Şərqdə baş verən geosiyasi gərginlik və beynəlxalq ticarət marşrutlarına təsir göstərən risklər fonunda Azərbaycanın Şərqlə Qərb arasında etibarlı tranzit ölkəsi kimi rolunun daha da gücləndiyi qeyd olunub. Bu məqam Hamburqda fəaliyyət göstərən Orta dəhliz üzrə ekspert Mirko Novakın açıqlamasında da xüsusi vurğulanıb: "Orta dəhliz malları ucuz və rəqabətli şəkildə bazara çıxarmaq üçün lazımi marşrutlar və imkanlar təklif edir".






Auslandsjournal: Deutschland und Aserbaidschan - Eine Partnerschaft im Wandel

Enerji sahəsində əməkdaşlıq reportajda əsas istiqamətlərdən biri kimi təqdim olunub. Rusiya-Ukrayna müharibəsindən sonra Avropanın enerji mənbələrinin şaxələndirilməsini sürətləndirdiyi və bu çərçivədə Azərbaycan "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya təbii qaz ixracını müharibədən əvvəl illik təxminən 8 milyard kubmetr həcmdən 13 milyard kubmetrə çatdırdığı bildirilib. Almaniyanın "Uniper", SEFE və VNG şirkətlərinin hər il Azərbaycandan 3 milyard kubmetrdən artıq qaz aldığı qeyd olunub. Bununla yanaşı, Azərbaycanın külək və günəş enerjisinə yatırımları artırdığı, Xəzər regionunu Avropa ilə birləşdirəcək gələcək "yaşıl enerji" layihələrinin mühüm iştirakçılarından birinə çevrilmək niyyətində olduğu vurğulanıb. Bildirilib ki, bu əməkdaşlıq Almaniya üçün yeni asılılıq deyil, enerji mənbələrinin şaxələndirilməsi və enerji təhlükəsizliyinin gücləndirilməsi deməkdir. Berlində fəaliyyət göstərən tanınmış jurnalist Evald Köniq Azərbaycanın enerji ixracının Avropa və xüsusilə Almaniya üçün önəminə toxunaraq deyib: "Beləliklə, Azərbaycan Almaniya ilə əməkdaşlıqda getdikcə daha çox mərkəzi rol oynayacaq".

"TV Berlin" Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində atılan addımlara da xüsusi yer ayıraraq, bu məsələnin bölgədə əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaratdığını vurğulayıb. Bildirilib ki, ötən ilin avqustunda Vaşinqtonda sülh sazişinin paraflanması Cənubi Qafqazda uzunmüddətli sabitliyin təmin olunması baxımından mühüm diplomatik mərhələdir. Tranzit yükdaşımaların bərpasına və iqtisadi əlaqələrin genişləndirilməsinə yönəlmiş təşəbbüslərin regionda yeni nəqliyyat marşrutlarının formalaşmasına, ticarətin artmasına və Avropa ilə Mərkəzi Asiya arasında iqtisadi inteqrasiyanın güclənməsinə töhfə verə biləcəyi qeyd olunub.

Materialda Almaniyanın Azərbaycanın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı olduğu, ölkədə maşınqayırma, tikinti, logistika, energetika və xidmət sahələrində 200-dən çox Almaniya şirkətinin fəaliyyət göstərdiyi də diqqətə çatdırılıb. Eləcə də Azərbaycanın iqtisadi potensialı, əlverişli coğrafi mövqeyi, multikultural ənənələri və sabit tərəfdaş kimi formalaşan imicinin ölkəmizin Almaniya üçün əhəmiyyətini daha da artırdığı vurğulanıb.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev reportajda bu əməkdaşlığın böyük və çoxşaxəli potensialı barədə qeyd edib: "Almaniya-Azərbaycan tərəfdaşlığında enerji təhlükəsizliyi, iqtisadi dayanıqlılıq, Asiya ilə Avropa arasında konnektivliyin gücləndirilməsi və etibarlı təchizat zəncirləri mühüm yer tutur. Bütün bunlar vətəndaşlarımız və iqtisadiyyatlarımız üçün böyük fayda verir".

Reportajın yekununda xüsusilə qeyd edilib ki, dəyişən geosiyasi şəraitdə Almaniya ilə Azərbaycanın əməkdaşlığı artıq enerji sektoru ilə məhdudlaşmır. Ticarət, nəqliyyat-kommunikasiya əlaqələri, Avropa ilə Asiya arasında konnektivliyin inkişafı, dayanıqlı təchizat zəncirlərinin formalaşdırılması və regional sabitliyin möhkəmləndirilməsi iki ölkə arasında tərəfdaşlığın əsas istiqamətlərinə çevrilir. Bu baxımdan Azərbaycan Avropanın strateji xəritəsində getdikcə daha mühüm mövqe tutur.

# "Bakı ilə Bratislava arasında münasibətlər strateji tərəfdaşlıq məzmunu qazanıb"

Müasir beynəlxalq münasibətlər sistemində geosiyasi proseslərin sürətlə dəyişdiyi, enerji təhlükəsizliyi, nəqliyyat-logistika marşrutları və regional sabitlik məsələlərinin qlobal siyasətin əsas prioritetlərinə çevrildiyi bir dövrdə Azərbaycan özünün ardıcıl və praqmatik xarici siyasəti sayəsində beynəlxalq nüfuzunu davamlı şəkildə artırır. Həyata keçirilən balanslaşdırılmış xarici siyasət kursu ölkəmizi təkcə Cənubi Qafqazın aparıcı dövlətinə deyil, həm də Avropa ilə Asiyanı birləşdirən mühüm geostrateji mərkəzə çevirib. Azərbaycanın siyasi sabitliyi, müstəqil qərarvermə imkanları, zəngin enerji resursları, beynəlxalq nəqliyyat dəhlizlərində artan rolu və regional əməkdaşlıq təşəbbüsləri ölkəmizi dünya dövlətlərinin etibarlı tərəfdaşlarından biri edib.



**Milli Məclisin deputatı Pərvin KƏRİMZADƏ** qəzetimizə aşıqlamasında deyib ki, bu reallıq fonunda Avropa İttifaqına üzv dövlətlərin Azərbaycanla münasibətlərə xüsusi önəm verməsi təsadüfi deyil: "Son illər Avropa ölkələri ilə siyasi dialoqun intensivləşməsi, iqtisadi əlaqələrin genişlənməsi və enerji sahəsində strateji əməkdaşlığın dərinləşməsi Azərbaycanın beynəlxalq mövqeyinin güclənməsinin əyani göstəricisidir. Slovakiya ilə münasibətlər də məhz bu strateji xəttin uğurlu davamı kimi diqqəti cəlb edir. İyulun 14-də Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin Azərbaycana rəsmi səfəri və Prezident İlham Əliyevlə Şuşada keçirilən görüş bu baxımdan xüsusi siyasi əhəmiyyət daşıyır. Səfərin məhz Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşadan başlaması həm rəmzi, həm də siyasi mesaj baxımından mühüm məna kəsb etdi. Bu gün Şuşa artıq yalnız tarixi və mədəni irsin simvolu deyil, eyni zamanda beynəlxalq diplomatiyanın mühüm məkanlarından birinə çevrilib. Dünyanın müxtəlif ölkələrinin dövlət və hökumət başçılarının Şuşaya səfərləri Azərbaycanın ərazi bütövlüyünün beynəlxalq səviyyədə qəbul edilməsinin, Qarabağın yeni inkişaf mərhələsinə qədəm qoymasının və bölgənin beynəlxalq əməkdaşlıq platformasına çevrilməsinin bariz nümunəsidir", - deyə deputat bildirib.

O qeyd edib ki, Prezident İlham Əliyevin bəyanatında vurğuladığı kimi, Slovakiya-Azərbaycan əlaqələrinin inkişafı uğurla davam edir və bizim siyasi təmaslarımız müntəzəm xarakter alır. İki ölkə arasında münasibətlər sistemli və davamlı inkişaf edir. Prezident İlham Əliyevin ötən ilin sonunda Slovakiyaya etdiyi rəsmi səfər və Slovakiya Prezidentinin Azərbaycana cavab səfəri diplomatik münasibətlərdə qarşılıqlılıq prinsipinin və yüksək etimadın göstəricisidir.

P.Kərimzadə vurğulayıb ki, Azərbaycan və Slovakiya arasında siyasi dialoqun intensivləşməsi yalnız yüksəksəviyyəli qarşılıqlı səfərlərlə məhdudlaşmır: "Parlamentlərarası əməkdaşlıq, hökumətlərarası komissiyaların fəaliyyəti, biznes-forumlar və müxtəlif iqtisadi platformalar münasibətlərin institusional əsaslarını daha da möhkəmləndirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, nümayəndə heyətlərinin geniş tərkibi də onu göstərir ki, tərəflər təkcə siyasi dialoq aparmır, eyni zamanda konkret layihələrin reallaşdırılması istiqamətində praktiki fəaliyyət göstərirlər. 2024-cü ildə Azərbaycan və Slovakiya arasında Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamənin imzalanması münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsini təmin edib. Bu sənəd kağız üzərində qalan siyasi niyyət deyil, artıq konkret layihələr və qarşılıqlı təşəbbüslərlə öz təsdiqini tapır. Dövlət başçısının ifadə etdiyi kimi, belə fəal siyasi təmaslar və birgə layihələrin icra olunması, əlbəttə ki, güclü siyasi iradə tələb edir. Bu fikir həm də onu göstərir ki, Bakı ilə Bratislava arasında münasibətlər qarşılıqlı etimada və milli maraqların uzlaşdırılmasına əsaslanır".

Deputat bildirib ki, Slovakiyanın Avropa İttifaqının üzvü kimi Azərbaycanla münasibətlərə xüsusi önəm verməsi ölkəmizin Avropa üçün strateji əhəmiyyətini bir daha nümayiş etdirir. Bu gün Avropa enerji təhlükəsizliyinin təmin olunmasında yeni tərəfdaşlara ehtiyac duyur. Hazırda Azərbaycan təbii qazını 16 ölkəyə, o cümlədən Avropa İttifaqının 10 üzv dövlətinə ixrac edir. Slovakiyanın da 2024-cü ildən etibarən "Cənub qaz dəhlizi" layihəsinə qoşulması bu əməkdaşlığın yeni istiqamətlərini formalaşdırır. "Avropa İttifaqının Rusiya qazından mərhələli şəkildə imtina etməsi fonunda Slovakiyanın enerji təhlükəsizliyi məsələsi daha da aktuallaşıb. Prezident Peter Pelleqrininin də qeyd etdiyi kimi, mövcud şəraitdə Azərbaycan Slovakiyanın enerji təminatında əsas tərəfdaşlardan biri kimi çıxış edir. Bu isə ölkəmizi təkcə enerji ixracatçısı deyil, Avropanın enerji təhlükəsizliyinin mühüm təminatçılarından biri statusuna yüksəldir. Amma ikitərəfli münasibətlər yalnız enerji sektoru ilə məhdudlaşmır. İqtisadi-ticari əlaqələr, hərbi-texniki əməkdaşlıq, sənaye, yüksək texnologiyalar, nəqliyyat-logistika və digər istiqamətlər də prioritet sahələr sırasındadır. Orta dəhlizin əhəmiyyətinin artdığı müasir mərhələdə Slovakiya Azərbaycanın tranzit imkanlarından istifadə etməklə Asiya bazarlarına daha qısa və təhlükəsiz çıxış əldə edə bilər. Bu baxımdan iki ölkə arasında logistika və nəqliyyat sahəsində əməkdaşlığın genişləndirilməsi gələcək üçün mühüm perspektiv vəd edir", - deyə P.Kərimzadə əlavə edib.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan genişmiqyaslı bərpa-quruculuq işlərində Slovakiyanın iştirakı münasibətlərin humanitar və siyasi etimad komponentini daha da gücləndirir. Prezident İlham Əliyevin xüsusi vurğuladığı kimi, Slovakiya Qarabağın bərpasında fəal iştirak edən dost ölkələrdən biridir. Ağdam rayonunun Baş Qərvənd kəndində Slovakiya şirkəti tərəfindən həyata keçirilən "ağıllı kənd" layihəsi müasir yaşayış konsepsiyasının tətbiqi baxımından mühüm əhəmiyyət daşıyır. Bundan əlavə, Milan Rastislav Ştefanik adına 840 şagirdlik tam orta məktəbin Slovakiya tərəfindən Azərbaycana hədiyyə edilməsi iki xalq arasında dostluğun və qarşılıqlı etimadın bariz nümunəsidir. Bu layihələr təkcə sosial infrastrukturun bərpasına xidmət etmir. Onlar eyni zamanda Avropa şirkətlərinin Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi inkişaf modelinə inamının göstəricisidir. Xarici investisiyaların cəlbi, yeni texnologiyaların tətbiqi, müasir şəhərsalma konsepsiyalarının reallaşdırılması Qarabağın regionun ən inkişaf etmiş iqtisadi məkanlarından birinə çevrilməsi strategiyasının mühüm tərkib hissəsidir.

Deputat vurğulayıb ki, diqqətçəkən məqamlardan biri də Prezident Peter Pelleqrininin Azərbaycanı yaxşı tanıyan siyasətçilərdən biri olmasıdır: "Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Peter Pelleqrini hələ parlament Sədri və Baş nazir olduğu dövrdə ölkəmizə səfərlər edib, COP29 çərçivəsində Azərbaycanda olub və prezident seçildikdən sonra ilk rəsmi səfərlərindən birini məhz Azərbaycana edib. Bu fakt onun Azərbaycanla münasibətlərə şəxsi səviyyədə də xüsusi əhəmiyyət verdiyini göstərir və gələcək əməkdaşlıq üçün əlavə siyasi etimad mühiti yaradır. Ümumilikdə Slovakiya Prezidentinin Azərbaycana rəsmi səfəri bir daha göstərdi ki, Bakı ilə Bratislava arasında münasibətlər artıq klassik diplomatik əlaqələr çərçivəsini aşaraq, strateji tərəfdaşlıq məzmunu qazanıb. Qarşılıqlı siyasi etimad, enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq, iqtisadi layihələr, Qarabağın bərpasında Slovakiyanın iştirakı və Avropa ilə Azərbaycan arasında körpü rolunun güclənməsi bu tərəfdaşlığın gələcəkdə daha da genişlənəcəyini göstərir. Prezident İlham Əliyevin vurğuladığı kimi: "Əminəm ki, bundan sonra da bu münasibətlər uğurla inkişaf edəcək. Çünki biz konkret işlərin tərəfdarıyıq". Məhz bu prinsip - siyasi iradə, qarşılıqlı etimad və konkret nəticələrə əsaslanan əməkdaşlıq Slovakiya-Azərbaycan münasibətlərinin əsasını təşkil edir və iki ölkə arasında strateji tərəfdaşlığın uzunmüddətli perspektivdə daha da möhkəmlənəcəyinə ciddi zəmin yaradır".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan və Slovakiya arasında biznes körpüsü qurulur

Bu gün dünyada ölkələr arasında iqtisadi əlaqələrin inkişafı, qarşılıqlı investisiyaların təşviqi və biznes dairələri ilə birbaşa əməkdaşlıq imkanlarının yaradılması davamlı inkişafın əsas istiqamətlərindən biri hesab olunur. Bu baxımdan müxtəlif ölkələrin iş adamlarını, dövlət nümayəndələrini və iqtisadi qurumlarını bir araya gətirən biznes-forumlar mühüm platforma rolunu oynayır.

Biznes-forumlar yalnız görüş və müzakirə məkanı deyil, həm də yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirildiyi, tərəfdaşlıqların qurulduğu, iqtisadi potensialın təqdim olunduğu strateji dialoq meydanıdır. Belə tədbirlər vasitəsilə şirkətlər öz məhsul və xidmətlərini nümayiş etdirir, bazar imkanlarını araşdırır, investisiya layihələri və birgə təşəbbüslər üzrə fikir mübadiləsi aparırlar.

Başqa sözlə, müxtəlif ölkələrin biznes dairələrini bir araya gətirən forumlar iqtisadi tərəfdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran layihələrin reallaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Bu mənada Bakıda Azərbaycan-Slovakiya biznes-forumunun keçirilməsi də iki ölkə arasında iqtisadi münasibətlərin genişləndirilməsi, mövcud potensialın üzə çıxarılması və yeni əməkdaşlıq istiqamətlərinin formalaşdırılması zərurətindən irəli gəlib. Avropanın mühüm iqtisadi məkanlarından biri olan Slovakiya ilə Azərbaycanın enerji, sənaye, nəqliyyat, kənd təsərrüfatı, texnologiya və digər sahələrdə əməkdaşlıq imkanları genişdir. Azərbaycan-Slovakiya biznes-forumu həmçinin iqtisadi münasibətlərin yalnız dövlətlərarası səviyyədə deyil, özəl sektorlar arasında da inkişaf etdirilməsinin vacibliyini göstərən mühüm hadisə kimi diqqəti cəlb edir.

Qeyd edək ki, Azərbaycan-Slovakiya biznes-forumu ərəfəsində iki ölkə arasında iqtisadi əməkdaşlığın gündəliyində duran əsas məsələlər yüksək səviyyədə müzakirə olunub. Belə ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov Slovakiyanın Baş nazirinin müavini, iqtisadiyyat naziri Denisa Sakova ilə görüş keçirib. Görüşdə Azərbaycan ilə Slovakiya arasında strateji tərəfdaşlığın inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb. Tərəflər yüksəksəviyyəli siyasi təmasların və davamlı iqtisadi dialoqun ikitərəfli münasibətlərin dərinləşməsində mühüm rol oynadığını, bu istiqamətdə qarşılıqlı təşəbbüslərin əhəmiyyətini vurğulayıblar. Müzakirələr zamanı biznes və ticarət əlaqələrinin genişləndirilməsi, eləcə də qarşılıqlı investisiyaların təşviqi istiqamətində mövcud imkanlar nəzərdən keçirilib.

Nazirlər arasında keçirilən görüşün ardınca Bakıda Azərbaycan-Slovakiya biznes-forumu öz işinə başlayıb. Azərbaycan və Slovakiyanın İqtisadiyyat nazirliklərinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və Slovakiyanın İnvestisiyalar və Ticarətin İnkişafı Agentliyinin (SARIO) birgə təşkilatçılığı ilə keçirilən forum iki ölkənin işgüzar dairələrini eyni platformada bir araya gətirib.

Tədbirdə hər iki ölkənin dövlət qurumlarının nümayəndələri, eləcə də sənaye, əczaçılıq, maliyyə, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, turizm, nəqliyyat, logistika, səhiyyə, daşınmaz əmlak və digər sahələri təmsil edən 100-ə yaxın şirkətin nümayəndəsi iştirak edib. Geniş tərkibli iştirak forumun Azərbaycan və Slovakiya arasında iqtisadi əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi, biznes əlaqələrinin genişləndirilməsi və qarşılıqlı investisiya imkanlarının dəyərləndirilməsi baxımından əhəmiyyətini bir daha nümayiş etdirib.

Forumda qeyd olunub ki, Azərbaycan ilə Slovakiya arasında strateji tərəfdaşlıq münasibətləri iqtisadi əməkdaşlığın daha çox dərinləşməsi üçün möhkəm əsas formalaşdırır. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində artan rolu, əlverişli investisiya mühiti, inkişaf etmiş nəqliyyat-logistika infrastrukturu və investorlar üçün yaradılmış stimullaşdırıcı mexanizmlər iki ölkənin biznes dairələri üçün yeni əməkdaşlıq perspektivləri açır.

Azərbaycan ilə Slovakiya arasında iqtisadi əməkdaşlığın inkişafı üçün mövcud potensialın daha səmərəli reallaşdırılması hər iki ölkənin biznes ictimaiyyəti və aidiyyəti qurumları tərəfindən perspektivli istiqamət kimi qiymətləndirilir. Xüsusilə qarşılıqlı investisiyaların təşviqi, işgüzar dairələr arasında davamlı əlaqələrin qurulması və əməkdaşlığın genişləndirilməsi ikitərəfli iqtisadi münasibətlərin dərinləşməsinə töhfə verə bilər. Üstəlik də sahibkarlar arasında birbaşa əlaqələrin artması, qarşılıqlı biznes missiyalarının təşkili, investisiya imkanları barədə məlumat mübadiləsinin gücləndirilməsi və birgə təşəbbüslərin dəstəklənməsi yeni tərəfdaşlıqların formalaşmasına əlverişli zəmin yaradır. Bu istiqamətdə mövcud əməkdaşlıq mexanizmlərinin inkişaf etdirilməsi iqtisadi əlaqələrin şaxələndirilməsinə və qarşılıqlı ticarət dövriyyəsinin artırılmasına xidmət edən mühüm amillərdən biri kimi dəyərləndirilir.

Beləliklə, forum çərçivəsində əldə olunan nəticələr göstərir ki, Azərbaycan və Slovakiya arasında iqtisadi tərəfdaşlıq yalnz mövcud əlaqələrin inkişafı ilə məhdudlaşmır, həm də gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinə də xidmət edir. Tədbirin gündəliyində gələcəyə hesablanmış təşəbbüslərin yer alması iki ölkə arasında iqtisadi dialoqun davamlı xarakter daşıdığını nümayiş etdirib. Bu baxımdan Slovakiya tərəfinin cari ilin sentyabrında Azərbaycanda keçiriləcək İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumuna dəvət olunması qarşılıqlı investisiya əməkdaşlığının daha çox genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Forum zamanı hər iki ölkənin biznes və investisiya imkanlarına dair təqdimatların keçirilməsi, ardınca isə işgüzar dairələr arasında B2B görüşlərin təşkil olunması müzakirələrin praktiki mərhələyə keçməsinə şərait yaradıb. Məhz bu formatda keçirilən görüşlər şirkətlər arasında birbaşa əlaqələrin qurulması, yeni tərəfdaşlıq imkanlarının araşdırılması, investisiya layihələrinin müzakirəsi və gələcək birgə təşəbbüslərin formalaşdırılması baxımından mühüm platforma rolunu oynayır. Bu isə Azərbaycan-Slovakiya iqtisadi münasibətlərinin yeni mərhələdə daha dinamik inkişafı üçün əlavə imkanlar yaradır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Qarabağ Universiteti:
## inkişafın yeni mərhələsi

**2025/2026-cı tədris ili Qarabağ Universitetində sürətli institusional böyümə, akademik keyfiyyətin yüksəldilməsi, elmi fəaliyyətin genişləndirilməsi, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və tələbə nailiyyətləri ilə zəngin mühüm mərhələ olmuşdur. İki il əvvəl fəaliyyətə başlayan bu təhsil müəssisəsi başa vurduğumuz tədris ilində müasir, tələbəmərkəzli, tədqiqatəsaslı və beynəlxalq əməkdaşlığa açıq universitet modelinin formalaşdırılması istiqamətində mühüm nəticələr əldə etmişdir.**




Qarabağ Universitetinin sürətli inkişafının əsasında Azərbaycan Prezidenti İlham Əliyevin universitetə xüsusi diqqəti və davamlı dövlət dəstəyi dayanır. Dövlət başçısının 2025-ci ildə iki dəfə universitetdə olması, Qarabağ Universitetinin Klinikası və Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun, Biznes və iqtisadiyyat fakültəsinin yeni binasının açılışında iştirakı, Mühəndislik fakültəsinin yeni binasının təməlini qoyması universitetin inkişafına verilən strateji əhəmiyyətin bariz ifadəsidir.






### Keyfiyyətli tələbə kontingenti və sürətli institusional inkişaf

2025/2026-cı tədris ilinin mühüm nəticələrindən biri yüksək akademik göstəricilərə malik gənclərin Qarabağ Universitetinə marağının artması olmuşdur. 600-dən çox bal toplamış 127 abituriyent bu universiteti seçmişdir. Əvvəlki tədris ilində bu göstəricinin 101 nəfər olması qəbul keyfiyyətində müsbət dinamikanı göstərir.

Ümumilikdə 500-dən çox bal toplamış 332 gənc, 400-dən çox nəticə göstərmiş 613 gənc Qarabağ Universitetinin tələbəsi adını qazanmışdır. Universitetə qəbul olunan ən yüksək nəticəli tələbə 684 bal toplamışdır. Respublika fənn olimpiadalarının beş qalibinin müsabiqədənkənar qaydada universitetə qəbul olunması da istedadlı gənclərin artan marağının göstəricisidir.

İlk dəfə tələbə qəbulu aparılan "Tibb" ixtisasında keçid balının 614,6, "Tibb bacısı (qardaşı) işi" ixtisasında 490,6 bal olması yeni akademik proqramlara yüksək marağı nümayiş etdirmişdir. İncəsənət fakültəsində "İnstrumental ifaçılıq" və "Musiqi müəllimliyi" ixtisasları üzrə qəbul göstəriciləri də ölkə üzrə yüksək nəticələr sırasında yer almışdır.

Tələbə sayının 2143-ə çatması, akademik və inzibati heyətin 400 nəfəri ötməsi, kadr hazırlığı həyata keçirilən ixtisasların sayının 25-dən 34-ə yüksəlməsi Qarabağ Universitetinin qısa müddətdə böyük ali təhsil müəssisəsinə çevrilmək istiqamətində sürətlə irəlilədiyini göstərir. Universitetin əməkdaşları sırasında 5 xarici ölkə vətəndaşının yer alması isə formalaşmaqda olan beynəlxalq akademik mühitin və müxtəlif təcrübələrin tədris prosesinə cəlb olunmasının təzahürlərindən biridir.

### Akademik keyfiyyət və beynəlxalq standartlara uyğun təhsil

Ötən tədris ilində əsas prioritetlərdən biri təhsil proqramlarının müasir əmək bazarının tələbləri və beynəlxalq akademik standartlara uyğun formalaşdırılması olmuşdur. Yeni ixtisaslar üzrə tədris planları hazırlanaraq təsdiq edilmiş, fakültələrdə tədris, tədqiqat, innovasiya, sənaye əməkdaşlığı və tələbələrlə iş istiqamətləri sistemli inkişaf etdirilmişdir.

Ən mühüm nailiyyətlərdən biri Biznes və iqtisadiyyat fakültəsinin "Mühasibat" və "Maliyyə" proqramlarının ACCA tərəfindən beynəlxalq akkreditasiyadan keçməsi olmuşdur. Qarabağ Universitetinin ilk beynəlxalq proqram akkreditasiyası kimi tarixə düşən bu nəticə proqramların məzmun və təlim nəticələrinin beynəlxalq tələblərə uyğunluğunun təsdiqidir.

Akademik keyfiyyət tələbələrin beynəlxalq peşə imtahanlarındakı uğurlarında da özünü göstərmişdir. Biznes və iqtisadiyyat fakültəsinin bir tələbəsi ACCA-nın "Financial Management" imtahanında Azərbaycan, Türkiyə və Gürcüstan regionu üzrə birinci, dünya üzrə beşinci yeri tutmuş, digər tələbəmiz "Financial Reporting" imtahanında region üzrə birinci nəticə göstərmişdir.

İqtisadiyyat ixtisası üzrə bakalavriat proqramının Oksford Universitetinin iqtisadçı alimləri ilə birgə hazırlanması akademik məzmunun beynəlxalq təcrübə əsasında yenilənməsinin mühüm nümunəsidir.

### Qarabağda yeni tibbi təhsil və klinik ekosistemin qurulması

2025/2026-cı tədris ilinin mühüm yeniliklərindən biri Qarabağ Universitetində tibbi təhsilin və klinik fəaliyyətin əsasının qoyulması olmuşdur.

Tibb və sağlamlıq elmləri fakültəsində beynəlxalq təcrübə əsasında hazırlanmış kompetensiyaya əsaslanan 6 illik "Tibb" və 4 illik "Tibb bacısı (qardaşı) işi" proqramlarının tədrisinə başlanılmışdır. Yeni model inteqrasiya olunmuş fənlərarası tədrisə, klinik düşünmənin, praktik bacarıqların, tədqiqat və analitik təfəkkürün inkişafına əsaslanır. Pasiyentmərkəzli yanaşma, simulyasiya və klinik bacarıq təlimləri, əsas və klinik elmlərin inteqrasiyası, beynəlxalq təcrübəli professor-müəllim heyətinin tədrisə cəlbi yeni tibbi təhsil modelinin əsas elementləridir.

Tədris proqramına "İncəsənət və humanitar elmlər" komponentinin daxil edilməsi gələcək həkimlərin peşə bilikləri ilə yanaşı, kommunikasiya, komanda işi, yaradıcı düşünmə və özünüifadə bacarıqlarının inkişafına xidmət edir.

Qarabağ Universitetinin Klinikasının fəaliyyətə başlaması tələbələrin klinik təcrübəsi üçün yeni imkanlar yaratmaqla yanaşı, Qarabağ regionunda müasir səhiyyə ekosisteminin formalaşdırılmasına mühüm töhfədir.

### Elmi-tədqiqat fəaliyyətində yeni mərhələ

Qarabağ Universitetinin qısa müddətdə mühüm irəliləyiş əldə etdiyi istiqamətlərdən biri elmi-tədqiqat fəaliyyətidir. Tədqiqat mühitinin formalaşdırılması, akademik heyətin elmi fəaliyyətə təşviqi və nüfuzlu elmi bazalarda təmsilçiliyin genişləndirilməsi artıq konkret nəticələrlə müşayiət olunur.

Scopus bazasında indekslənən nəşrlərin sayı 2024-cü ildə 6, 2025-ci ildə 26, 2026-cı ilin ilk altı ayında isə 30 olmuşdur. Beləliklə, 2024-2026-cı illərdə Scopus bazasında məqalələrin sayı 62-yə çatmış, həmin nəşrlərə 139 istinad edilmişdir. 2026-cı ilin ilk yarısında dərc olunan 30 məqalə artıq 2025-ci ilin tam illik göstəricisini üstələmişdir.

Elmi nəticələr keyfiyyət və beynəlxalq səviyyə baxımından da diqqət çəkir. Universitet əməkdaşlarının tədqiqatları "Evolution Equations and Control Theory", "PLoS ONE", "Journal of Environmental Management", "Scientific Reports", "ACS Omega", "IEEE Access" və "RSC Advances" kimi beynəlxalq elmi jurnallarda dərc edilmişdir. Bu, universitetdə formalaşan elmi potensialın qlobal akademik mühitə çıxış imkanlarının genişləndiyini göstərir.

Tədqiqatların tematik istiqamətləri də universitetin strateji missiyası ilə uzlaşır. Elmi nəşrlərin BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri üzrə bölgüsündə ən yüksək göstərici 9 məqalə ilə "İqlim fəaliyyəti" istiqamətində qeydə alınmışdır. "Ləyaqətli iş və iqtisadi artım" mövzusuna 7, "Sənaye, innovasiya və infrastruktur" istiqamətinə 6, "Əlçatan və təmiz enerji" sahəsinə 6, "Sağlamlıq və rifah" mövzusuna 4 məqalə həsr edilmişdir.

Gənc tədqiqatçıların elmi fəaliyyətə cəlbi diqqət mərkəzində saxlanılmışdır. Qarabağ Universitetindən Doktorant və gənc tədqiqatçıların XXVIII Respublika elmi konfransında 18, "Qərbi Azərbaycana qayıdış" III konqres-festivalında isə 20-yə yaxın gənc əməkdaş elmi məruzələrlə çıxış etmişdir. Bundan əlavə, Bakı Dövlət Universitetinin evsahibliyi, Qarabağ Universitetinin yerli və xarici universitetlərlə birlikdə tərəfdaşlıq etdiyi "Türk dünyasında transformasiya və inteqrasiya: iqtisadiyyat, siyasət və texnologiya" beynəlxalq konfransında 20-dən çox gənc əməkdaşımız təmsil olunmuşdur. Bu nəticələr yeni tədqiqatçı nəslinin formalaşdırılması və gənc akademik heyətin elmi mühitə inteqrasiyası istiqamətində görülən işlərin miqyasını göstərir.

Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi" çərçivəsində 20-dən çox ölkədən 100-dən artıq türkoloq alimin Qarabağ Universitetində bir araya gəlməsi xüsusi əhəmiyyət daşımışdır. Xankəndidə keçirilən müzakirələr şəhərin beynəlxalq akademik əməkdaşlıq və elmi fikir mübadiləsi məkanı kimi mövqeyinin güclənməsinə töhfə vermişdir.

### Beynəlxalq strateji akademik tərəfdaşlıqlar

2025/2026-cı tədris ili Qarabağ Universitetinin beynəlxalq akademik şəbəkəsinin genişləndirilməsi ilə yadda qalmışdır. Universitetin Türk Universitetlər Birliyinə - TÜRKÜNİB-ə üzv qəbul olunması beynəlmiləlləşmə istiqamətində mühüm institusional addımdır.

İstanbul Texniki Universiteti ilə təhsil və elmi əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması mühəndislik təhsilinin inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Ankara Universiteti, Hacettepe Universiteti, Başkent Universiteti, Qazi Universiteti, İzmir Yüksək Texnologiya İnstitutu, Ankara Hacı Bayram Veli Universiteti və digər aparıcı ali təhsil müəssisələri ilə əməkdaşlığın yaradılması və inkişafı da bu istiqamətdə görülən ardıcıl işlərin tərkib hissəsidir. Qazaxıstanın Əl-Farabi adına Qazax Milli Universiteti ilə Əməkdaşlıq Memorandumunun imzalanması Mərkəzi Asiyanın qabaqcıl ali təhsil müəssisələri ilə əlaqələrin inkişafına yeni imkanlar yaratmışdır.

Qarabağ Universiteti Qazaxıstanın Almatı şəhərində Qazaxıstan və Azərbaycan ali təhsil müəssisələrinin II Rektorlar Forumunda və Azərbaycan ali təhsil müəssisələrinin "Study in Azerbaijan" beynəlxalq sərgisində təmsil olunmuşdur. Bundan əlavə, VII Türkoloji Yay Məktəbinə Qarabağ Universitetinin evsahibliyi etməsi, müxtəlif ölkələrdən gənc alim və tanınmış mütəxəssislərin Xankəndidə bir araya gəlməsi universitetin türk dünyasının akademik əməkdaşlığında artan rolunu göstərmişdir.

### Təhsil, sənaye və əmək bazarı arasında yeni əməkdaşlıq imkanları

Qarabağ Universitetində təhsilin real iqtisadiyyat və əmək bazarı ilə əlaqələndirilməsi inkişaf modelinin əsas istiqamətlərindəndir.

SOCAR ilə imzalanmış əməkdaşlıq müqaviləsi təhsil, tədqiqat, innovasiya və sənaye əməkdaşlığının inkişafı üçün strateji platforma yaratmışdır.

Azərbaycan Beynəlxalq Bankı ilə əməkdaşlıq çərçivəsində 100-dən artıq tələbənin bankın baş ofisi və müxtəlif filiallarında təcrübə keçməsi onların real iş mühiti ilə erkən mərhələdə tanışlığına imkan vermişdir.

Dövlət Vergi Xidməti ilə əməkdaşlıq nəticəsində 22 tələbə vergi orqanlarında könüllülük fəaliyyətinə cəlb olunmuşdur. Hüquqşünaslıq ixtisası üzrə tələbələr üçün Milli Məclis, Ali Məhkəmə və Məhkəmə-Hüquq Şurasında təcrübə imkanları yaradılmışdır.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun "Zəfərdən Gələcəyə" Mentorluq Proqramı və Bakı Fond Birjası ilə əməkdaşlıq tələbələrin peşəkar inkişafı və qabaqcıl sahə təcrübəsi ilə erkən tanışlığı üçün mühüm imkanlar yaratmışdır. ARDNF-nin proqramı çərçivəsində Biznes və iqtisadiyyat fakültəsinin 10 tələbəsi investisiya və maliyyə sahəsində təcrübəli mütəxəssislərdən mentorluq dəstəyi almaq imkanı qazanmışdır. BFB ilə imzalanmış Əməkdaşlıq Memorandumu çərçivəsində isə fakültənin 4 tələbəsi cari ilin iyul ayında təqaüd əsaslı təcrübə proqramına cəlb olunmuşdur.

### Tələbə nailiyyətləri: Xankəndidən milli və beynəlxalq platformalara

Ötən tədris ili Qarabağ Universiteti tələbələrinin milli və beynəlxalq səviyyədə mühüm uğurları ilə yadda qalmışdır.

"Enactus Qarabağ" komandası universitetin ilk dəfə iştirak etdiyi "Enactus Azərbaycan" milli yarışında 24 universitet komandası arasında qalib olmuş və Tailandın Banqkok şəhərində keçirilən Enactus Dünya Kubokunda Azərbaycanı təmsil etmişdir.

Qarabağ Universitetinin komandası Türkiyədə keçirilən "Türk Dünyası PUA" (GÖKTÜRK) yarışında aerokosmik proqram təminatı və əlaqəli sistemlərin inteqrasiyasına əsaslanan layihə ilə üçüncü yerə layiq görülmüşdür.

"Vergilər" mövzusunda ümumrespublika olimpiadasında 29 ali təhsil müəssisəsindən 352 tələbə arasında Qarabağ Universitetinin tələbələri birinci və ikinci yerləri qazanmışlar.

Tələbələr Beynəlxalq STEAM Azərbaycan Festivalında, Beynəlxalq Astronavtika Konqresində və müxtəlif innovasiya platformalarında universiteti layiqincə təmsil etmiş, bir sıra innovativ layihələr beynəlxalq forum və sərgilərdə maraqla qarşılanmışdır.

Hüquqşünas tələbələr Baş Prokurorluğun hüquqi mövzuda məqalə müsabiqəsinin qalibi olmuş və "Azərbaycan Respublikasının Konstitusiyası və dövlət suverenliyi" hüquq viktorinasında uğur qazanmışlar.

Səkkiz tələbənin "Hənifə Məlikova-Zərdabi adına təqaüd proqramı - 2025"in qalibi olması, beş tələbənin "Həmkarlar ittifaqı təqaüdü"nə layiq görülməsi də akademik və ictimai fəallığın mühüm göstəricilərindəndir.

Heydər Əliyev Sarayında Elm və Təhsil Nazirliyi, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan ali təhsil müəssisələrinin tələbələri arasında bədii yaradıcılıq müsabiqə-festivalının yekun konsertində Qarabağ Universitetinin tələbələrinin təqdim etdiyi çıxışlar tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır.

Tələbələrimiz Qarabağ Universitetini Vaşinqtonda keçirilən Jessup Beynəlxalq Məhkəmə Müsabiqəsində (Philip C. Jessup International Law Moot Court Competition) və Vyanada keçirilən Vis Beynəlxalq Kommersiya Arbitrajı Müsabiqəsində (Willem C. Vis International Commercial Arbitration Moot) təmsil etmişlər.

### Tələbəmərkəzli yanaşma və zəngin universitet həyatı

Qarabağ Universitetində tələbə yalnız təhsil prosesinin iştirakçısı deyil, universitet mühitinin və inkişaf prosesinin fəal tərəfdaşı kimi qəbul edilir. Bu yanaşma tələbələrlə müntəzəm görüşlər, açıq müzakirələr və qeyri-formal dialoq formatları vasitəsilə davam etdirilmişdir.

Tələbələrin elmi və yaradıcı potensialının üzə çıxarılması, tədqiqat fəaliyyətinə erkən mərhələdən cəlbi də tələbəmərkəzli yanaşmanın mühüm istiqamətidir. Pedaqoji fakültənin təşkilatçılığı ilə "Süni intellektlə təhsilin yenidən formalaşdırılması" mövzusunda "EDUcon 2026" I tələbə elmi konfransı və Mühəndislik fakültəsinin təşkilatçılığı ilə "Gələcəyin Mühəndisi" tələbələrin I Elmi-Texniki konfransı keçirilmişdir. Bu platformalar tələbələrə araşdırma və innovativ ideyalarını təqdim etmək, akademik müzakirələrdə iştirak etmək və tədqiqat bacarıqlarını inkişaf etdirmək imkanı vermişdir.

Qarabağda ilk beynəlxalq BMT Modeli konfransının - QUMUN 2026-nın Xankəndidə keçirilməsi də əlamətdar hadisə olmuşdur. Elm və Təhsil Nazirliyinin qrant müsabiqəsi çərçivəsində "Gənclərin Beynəlxalq Dialoq Platforması" İctimai Birliyinin təşkilatçılığı, Qarabağ Universitetinin evsahibliyi etdiyi və Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının tərəfdaşlığı ilə keçirilən konfrans 20-dən çox ölkədən 100-dən artıq nümayəndəni bir araya gətirmişdir. BMT Təhlükəsizlik Şurası, UNESCO, İqtisadi və Sosial Şura və Beynəlxalq Ədalət Məhkəməsinin fəaliyyətini modelləşdirən simulyasiya sessiyalarında sülh quruculuğu, dayanıqlı inkişaf, urbanizasiya, "yaşıl texnologiyalar" və süni intellekt kimi qlobal məsələlər müzakirə olunmuşdur.

Beləliklə, 2025/2026-cı tədris ilində tələbə həyatı akademik təhsillə məhdudlaşmamış, elmi tədqiqat, ictimai fəallıq, könüllülük, beynəlxalq dialoq, yaradıcılıq və sağlam həyat tərzini birləşdirən çoxşaxəli inkişaf mühiti kimi formalaşmışdır.

### Qarabağın elmi, mədəni və ictimai həyatında fəal rol

2025/2026-cı tədris ilində Qarabağ Universiteti Xankəndinin və bütövlükdə Qarabağ regionunun elmi, mədəni və ictimai həyatının fəal iştirakçısına çevrilmişdir.

Universitetin ictimai və milli əhəmiyyətli mövzular ətrafında müzakirə platforması kimi rolu genişlənmişdir. Yeni Azərbaycan Partiyası və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilmiş "Böyük qayıdış: Heydər Əliyev ideyalarının təntənəsi" mövzusunda tədbirin keçirilməsi Ulu Öndərin zəngin irsinin gənc nəslə çatdırılması baxımından xüsusi əhəmiyyət daşımışdır.

İncəsənət fakültəsinin təşkilatçılığı ilə Milli Musiqi Günü və Üzeyir bəy Hacıbəylinin 140 illiyinə həsr olunmuş konsertlər, sərgilər və ustad dərsləri keçirilmişdir. Fakültənin tələbə və əməkdaşlarının "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında Cıdır düzündə konsert proqramı ilə çıxışı universitetin Qarabağın mədəni həyatında artan rolunun göstəricisi olmuşdur. "Birinci Qarabağ Səs Konqresi" isə təhsil, tibb və incəsənətin kəsişməsində yeni elmi-yaradıcı platformanın əsasını qoymuşdur.

Qarabağ Universitetinin Pedaqoji fakültəsinin təşkilatçılığı ilə I Qarabağ Təhsil Forumu keçirilmişdir. Forumun əsas məqsədi təhsilimizin əsas perspektivlərini, gələcəyin vətəndaşını yetişdirmək uğrunda orta və ali məktəblərin birbirinə inteqrasiyası məsələlərini müzakirə etmək olmuşdur. Bununla yanaşı, "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" mövzusunda bootcamp, məhkəmə sisteminin inkişafına dair elmi konfrans, Türkoloji Yay Məktəbi və digər tədbirlər Xankəndidə yeni akademik müzakirə mühitinin formalaşmasına xidmət etmişdir.

Qarabağ Universitetinin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində təşkil olunan "Urban Expo" sərgisində öz pavilyonu ilə təmsil olunması və beynəlxalq şəhərsalma platformalarında iştirakı Universitetin Qarabağda davamlı şəhər və insan kapitalı ekosisteminin qurulmasındakı rolunu beynəlxalq auditoriyaya təqdim etməyə imkan vermişdir.

### Müasir infrastruktur, rəqəmsallaşma və yeni universitet mühiti

Universitetin sürətli akademik inkişafı müasir infrastrukturun yaradılması və tədris prosesinin ardıcıl rəqəmsallaşdırılması ilə paralel aparılmışdır. Hesabat dövründə Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusu və Qarabağ Universitetinin Klinikası istifadəyə verilmiş, Biznes və iqtisadiyyat fakültəsi yeni tikilmiş binada fəaliyyətə başlamış, Mühəndislik fakültəsinin yeni tədris binasının təməli qoyulmuşdur. Müasir auditoriyalar, laboratoriyalar, kitabxana, tələbə yaşayış imkanları, simulyasiya və klinik bacarıq məkanları yeni nəsil təhsil mühitinin infrastruktur əsaslarını formalaşdırır.

Bununla yanaşı, Qarabağ Universitetində rəqəmsallaşma yalnız texnoloji yeniliklərin tətbiqi deyil, tədris və idarəetmə fəlsəfəsinin mühüm tərkib hissəsi kimi həyata keçirilir. Əsas məqsəd akademik və inzibati proseslərdə çevikliyi, şəffaflığı və əlçatanlığı təmin edən, məlumatların vahid sistemdə toplanmasına və qərarların data əsasında qəbuluna imkan verən müasir universitet ekosistemi formalaşdırmaqdır.

Bu məqsədlə 2025/2026-cı tədris ilindən Blackboard Learning Management System (LMS) platformasının tətbiqinə başlanılmışdır. Tədris prosesinin rəqəmsal mühitdə vahid sistem üzərindən idarə edilməsinə imkan verən platforma vasitəsilə tələbələr dərs materiallarına çıxış əldə edir, tapşırıqları onlayn təqdim edir və akademik nəticələrini operativ izləyirlər. Müəllimlər üçün isə tədrisin sistemli idarə olunması, qiymətləndirmənin çevik və şəffaf təşkili, tələbələrlə interaktiv ünsiyyət və akademik prosesin dinamikasının izlənilməsi imkanları yaradılmışdır. Platformanın səmərəli tətbiqi məqsədilə ADA Universitetinin dəstəyi ilə müəllim heyəti üçün xüsusi təlimlər təşkil edilmişdir.

Elektron sənəd dövriyyəsi sisteminin istifadəyə verilməsi və kitabxanada KOHA sisteminin tətbiqi istiqamətində görülən işlər də vahid rəqəmsal universitet mühitinin formalaşdırılmasına xidmət edir. Universitetin yeni rəsmi vebsaytının istifadəyə verilməsi isə rəqəmsal kommunikasiya, məlumatların əlçatanlığı və institusional görünürlük baxımından mühüm addım olmuşdur.

### İnkişafın yeni mərhələsinə doğru

2025/2026-cı tədris ilinin nəticələri göstərir ki, Qarabağ Universiteti artıq yalnız təhsil verən ali təhsil müəssisəsi deyil. Universitet Xankəndidə həyatın canlanmasının, Qarabağda yeni insan kapitalının formalaşdırılmasının, elmi və mədəni mühitin inkişafının əsas mərkəzlərindən birinə çevrilməkdədir.

İlk beynəlxalq proqram akkreditasiyasının əldə edilməsi, ilk elmi jurnal və monoqrafiyanın nəşri, tələbələrin milli və beynəlxalq yarışlardakı uğurları, yeni tibbi təhsil və klinik ekosistemin yaradılması, nüfuzlu universitetlərlə strateji əməkdaşlığın genişləndirilməsi və müasir infrastrukturun qurulması tədris ilinin əsas nailiyyətləridir.

Əldə olunan nəticələr 2026/2027-ci tədris ilinə daha böyük hədəflərlə qədəm qoymaq üçün möhkəm zəmin yaratmışdır. Bakalavriat səviyyəsi üzrə ixtisasların sayının 49-a çatdırılması və 1403 tələbənin qəbulu nəzərdə tutulur. Qəbul yalnız dövlət sifarişi əsasında və əyani təhsil forması üzrə həyata keçiriləcək. Plan yerlərinin 758-i Azərbaycan, 645-i ingilis bölməsi üzrə müəyyən edilmişdir. İngilis dilində tədris imkanlarının genişləndirilməsi universitetin beynəlmiləlləşmə strategiyasının və qlobal akademik məkana inteqrasiya hədəfinin mühüm istiqamətidir.

Yeni tədris ilinin ən mühüm strateji yeniliklərindən biri Türkiyənin nüfuzlu İstanbul Texniki Universiteti ilə birgə 4 mühəndislik ixtisası üzrə beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsi olacaqdır. Dünyanın qabaqcıl texniki universitetlərindən biri ilə reallaşdırılacaq proqramlar Qarabağ Universitetində mühəndislik təhsilinin beynəlxalq standartlar əsasında inkişafı, qabaqcıl akademik təcrübənin mənimsənilməsi və qlobal əmək bazarında rəqabətədavamlı mütəxəssislərin hazırlanması baxımından yeni mərhələnin başlanğıcıdır.

*Beləliklə, qısa müddətdə əldə edilmiş nəticələr Qarabağ Universitetində tələbəmərkəzli, tədqiqatəsaslı və innovasiyayönümlü universitet modelinin ardıcıl formalaşdırıldığını göstərir. Qarşıda daha böyük hədəflər və yeni inkişaf mərhələsi dayanır. Əsas məqsəd dəyişməzdir: Qarabağın dirçəlişinə, Azərbaycanın ali təhsil və elm ekosisteminin inkişafına, ölkəmizin gələcəyi üçün yüksəkixtisaslı, müasir kompetensiyalara malik və milli dəyərlərə bağlı insan kapitalının hazırlanmasına davamlı töhfə vermək. Bu istiqamətdə dövlətimizin yüksək diqqət və qayğısı, tərəfdaşlarımızın dəstəyi, professor-müəllim heyətimizin peşəkarlığı, tələbələrimizin istedadı və əməkdaşlarımızın fədakar əməyi ən böyük güc mənbəyimizdir.*

***Şahin BAYRAMOV,***
***Qarabağ Universitetinin rektoru***

# Ağdamda "Qarabağ şahinləri" batalyonunun komandiri Yaqub Rzayevin xatirəsi anılıb





Ağdamda Birinci Qarabağ müharibəsi iştirakçısı, "Qarabağ şahinləri" batalyonunun komandiri Yaqub Rzayevin xatirəsi anılıb.

Ağdam Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirdə Yaqub Rzayevin ailə üzvləri, döyüş yoldaşları, şəhid ailələri, qazilər, YAP Ağdam Rayon Təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə "Şəhidlər" Abidə Kompleksini ziyarət edərək, önünə gül dəstələri düzüblər. Ağdam Muğam Mərkəzində davam edən tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Yaqub Rzayevin keçdiyi döyüş yolundan bəhs edən sənədli film nümayiş etdirilib.

Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov, Milli Məclisin deputatı Elman Məmmədov və başqaları çıxış edərək, Yaqub Rzayevin həyat yolundan, Vətən uğrunda göstərdiyi qəhrəmanlıqlardan və Qarabağ döyüşlərindəki igidliyindən bəhs ediblər. Məlumat verilib ki, Yaqub Ələsgər oğlu Rzayev 1944-cü il oktyabrın 4-də Ağdam rayonu Çuxurməhlə kəndində anadan olub. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və təcavüzü başlayanda Y.Rzayev Ağdamda könüllülərdən ibarət "Qarabağ şahinləri" batalyonunu yaradaraq, Qarabağdakı azərbaycanlı kəndlərinin müdafiəsində iştirak edib. Ağdamla Əsgəran arasında strateji cəhətdən ən mühüm ərazini, Ağdamın ən böyük qəbiristanlığını "Qaraağacı qəbiristanlığını" mərdliklə müdafiə edib. 1992-ci il fevralın 26-da Xocalı soyqırımı zamanı Yaqub Rzayevin döyüşçüləri əhaliyə kömək etməyə çalışıblar. Həmin gün Yaqubun oğlu Canpolad da şəhid olub və ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Sonda Yaqub Rzayevin ailə üzvləri çıxış edərək göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Heydər Əliyev irsi ədəbi düşüncələrdə

Yeni Azərbaycan Partiyası Lənkəran Rayon Təşkilatının qərargahında Azərbaycan Yazıçılar Birliyinin Lənkəran regional bölməsinin üzvləri ilə birlikdə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində təşkil olunan tədbir "Heydər Əliyev irsi ədəbi düşüncələrdə" adlanırdı.



Ulu Öndər Heydər Əliyevin və Vətən müharibəsi şəhidlərinin əziz xatirəsini birdəqiqəlik sükutla anılmasıyla başlanan tədbirdə YAP Lənkəran Rayon Təşkilatının sədri İqbal Əmənullayev dedi: "14 iyul 1969-cu il qüdrətli Azərbaycan dövlətinin təməlinin qoyulduğu gün kimi tarixə düşmüşdür. Heydər Əliyevin hakimiyyətə gəldiyi illərdə respublikada klassik mədəni irsimizin öyrənilməsi, milli özünüdərk, milli mənlik şüurunun dirçəldilməsi dahi şəxsiyyətin simasında dolğun mövcudluğunu yaşamışdır. Ulu Öndər həmişə Azərbaycan yazarlarının qayğısına qalmış, onların fəaliyyətini yüksək qiymətləndirmiş, yazıçı və şairlərə Dövlət mükafatları, fəxri adlar verilməsini, onların yubileylərinin keçirilməsini diqqət mərkəzində saxlamışdır. Onun siyasi fəaliyyətində ədəbiyyat amilinin yeri, rolu və imkanları çox geniş anlayış olmuşdur".

Natiq Ulu Öndərin təşəbbüsü ilə 27 aprel 1978-ci ildə Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbit olunduğunu da görüş iştirakçılarının diqqətinə çatdırdı.

"Heydər Əliyev həmişə Azərbaycan ədəbiyyatının nümayəndələrinə hami olmuş, klassik ədəbiyyatın inkişafı, xalqa qaytarılması istiqamətində bir sıra möhtəşəm işlər görmüşdür", - deyən Azərbaycan Yazıçılar Birliyinin Lənkəran regional bölməsinin sədri, yazıçı-publisist Qafar Cəfərli bildirdi ki, Heydər Əliyev ədəbiyyat və mədəniyyət xadimləri ilə şəxsən tanış olur, onların yaradıcılığını yaxından öyrənir və bu insanlara həmişə xüsusi diqqət və qayğı göstərirdi.

Yazıçılar Birliyinin üzvləri - professor Yədulla Ağazadə, şair Səyavuş Süleymanlı, yazıçı-publisist Hafiz Mirzə, şair Əhməd Haqsevər, şair Ziyafət Yəhya, şair Xatirə Xatun, şair Bəxtiyar Əliyar, yazıçı-publisist Bəxtiyar Hüseynov, dosent Leyla Məcidova, yazıçı-publisist Xudaverdi Cavad, şair Ofelya Nəzərova çıxış edib Heydər Əliyevin "Dədə Qorqud" dastanının 1300 illiyinin keçirilməsi ilə bağlı imzaladığı sərəncamın ən unudulmazlar sırasında olduğundan, Nizami Gəncəvi ilə bağlı gördüyü böyük işlərdən, Füzuli və Nəsiminin yubileylərinin beynəlxalq miqyasda qeyd edilməsindən, Molla Pənah Vaqifin məqbərəsinin inşa edilməsindən bəhs etdilər. Onlar Heydər Əliyevin Hüseyn Cavidə nə qədər həssas yanaşdığından və onun nəşinin uzaq Sibirdən vətənə gətirmək kimi üzərinə böyük bir missiyanı götürməsindən söhbət açdılar. Eləcə də Azərbaycan bədii ədəbi irsinin mahir bilicisi olmuş Heydər Əliyevin milli ədəbiyyata, onun ölməz yaradıcılarına olan xüsusi maraq və sevgisindən danışdılar.

*Zəfər ORUCOĞLU*

# "Tərəfdaşlıq ruhu Azərbaycanın WUF13-ə evsahibliyi zamanı əsas yanaşmasını təşkil edib"

"Ümumilikdə 176 ölkədən 58 mindən çox iştirakçını bir araya gətirən WUF13 - Ümumdünya Şəhərsalma Forumunun indiyədək keçirilmiş ən böyük sessiyası olmaqla yanaşı, bugünkü Yüksəksəviyyəli İclasa doğru mühüm mərhələ olub".



AZƏRTAC xəbər verir ki, bu sözləri Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Yeni Şəhər Gündəliyinin həyata keçirilməsinin ortamüddətli icmalına həsr olunmuş Yüksəksəviyyəli İclasda çıxışı zamanı deyib. O bildirib ki, forum tarixində ilk dəfə olaraq Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Liderlər Seqmenti təşkil edilib.

"Dövlət və hökumət başçılarını, eləcə də beynəlxalq təşkilatların rəhbərlərini bir araya gətirən bu platforma şəhər inkişafını ən yüksək siyasi səviyyəyə yüksəldərək onun dayanıqlı inkişafın, iqlim dayanıqlılığının və insan rifahının təmin edilməsində rolunu bir daha nümayiş etdirib. Bu siyasi impulsun davamı olaraq forum çərçivəsində Yeni Şəhər Gündəliyinə həsr olunmuş Nazirlər Görüşü keçirilib. Tədbirdə 111 ölkədən nümayəndə, o cümlədən 80 nazir və nazir müavini iştirak edib. Müzakirələr inteqrasiyalı planlaşdırma, adekvat və əlçatan mənzil siyasəti, çoxsəviyyəli idarəetmə və daha güclü tərəfdaşlıqlar vasitəsilə öhdəliklərdən praktik icraya keçmək istiqamətində ortaq qətiyyəti nümayiş etdirdi. Bu prioritetlər "Sədrin Xülasəsi"ndə öz əksini tapıb və "Bakı Fəaliyyətə Çağırış" sənədi ilə daha da möhkəmləndirilib. Bu sənədlər Yeni Şəhər Gündəliyinin həyata keçirilməsinin ikinci mərhələsində ortaq öhdəliklərimizin konkret nəticələrə çevrilməsi üçün ümumi çərçivə yaradır", - deyə komitə sədri əlavə edib.

O bildirib ki, Azərbaycan bu yanaşmanı tam şəkildə dəstəkləyir və şəhərsalma siyasətinin formalaşdırılması və həyata keçirilməsinə cavabdeh olan dövlət qurumu kimi Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Yeni Şəhər Gündəliyinin prinsiplərinin milli səviyyədə praktik fəaliyyətə çevrilməsinə sadiqdir.

"Təcrübəmiz sübut edir ki, bu gündəliyin həyata keçirilməsi heç bir qurum və ya tərəfdaş tərəfindən təkbaşına mümkün deyil. Bunun üçün milli və yerli hökumətlər, beynəlxalq təşkilatlar və bütün tərəfdaşlar arasında səmərəli əməkdaşlıq vacibdir. Məhz bu tərəfdaşlıq ruhu Azərbaycanın Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına evsahibliyi zamanı əsas yanaşmasını təşkil edirdi. Məqsədimiz yalnız uğurlu qlobal forum keçirmək deyil, həm də beynəlxalq dialoqu gücləndirmək, siyasi iradəni möhkəmləndirmək və yeni tərəfdaşlıqlar formalaşdırmaq idi. Bu gün keçirilən Yüksəksəviyyəli İclas bizə həmin siyasi dinamikanı davam etdirmək, əməkdaşlığı daha da gücləndirmək və Yeni Şəhər Gündəliyinin bugünkü və gələcək nəsillərin rifahı naminə daha sürətli icrasını təmin etmək imkanı yaradır. Azərbaycan dayanıqlı şəhərsalmanın təşviqi naminə UN-Habitat, BMT sistemi, üzv dövlətlər və bütün tərəfdaşlarla əməkdaşlığını bundan sonra da qətiyyətlə davam etdirəcək", - deyə Anar Quliyev vurğulayıb.

# "Bir Pəncərə" Rəqəmsal Logistika Platforması təqdim olunub

İyulun 16-da xarici ticarət əməliyyatları üzrə məlumatları, xidmətləri və prosesləri vahid rəqəmsal ekosistemdə birləşdirən "Bir Pəncərə" İnformasiya Sistemi (İS) - Rəqəmsal Logistika Platformasının rəsmi təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət qurumlarının rəhbərləri və nümayəndələri, biznes sektorunun təmsilçiləri, logistika sahəsində fəaliyyət göstərən şirkətlər və media nümayəndələri iştirak ediblər.

Bildirilib ki, platforma Azərbaycan Prezidentinin 15 dekabr 2025-ci il tarixli 547 nömrəli fərmanına uyğun olaraq Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən yaradılıb. Yeni sistem idxal, ixrac, tranzit və nəqliyyat əməliyyatları üzrə məlumatları, xidmətləri və sənəd dövriyyəsini vahid rəqəmsal mühitdə inteqrasiya etməklə xarici iqtisadi fəaliyyət iştirakçıları üçün daha sadə, şəffaf və izlənilə bilən xidmət imkanları yaradır.

Qeyd olunub ki, "Bir Pəncərə" İnformasiya Sistemi sahibkarların inzibati yükünün azaldılmasına, dövlət xidmətlərinə çıxışın asanlaşdırılmasına və xarici ticarət proseslərinin daha səmərəli təşkilinə xidmət edir. Platformanın tətbiqi ilə logistika zəncirində operativliyin artırılması, məlumat mübadiləsinin sürətləndirilməsi və ticarət əməliyyatlarının optimallaşdırılması nəzərdə tutulur. Uzunmüddətli perspektivdə sistem Azərbaycanın daha çevik və dayanıqlı xarici ticarət ekosisteminin formalaşmasına, biznes mühitinin rəqabət qabiliyyətinin yüksəldilməsinə, ölkənin tranzit potensialının gücləndirilməsinə və təchizat zəncirlərinin daha səmərəli qurulmasına mühüm töhfə verəcək.



Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov bildirib ki, dövlət başçısının təsdiq etdiyi "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" və "Bir Pəncərə" İnformasiya Sisteminin yaradılması barədə fərman dövlət xidmətlərinin vahid rəqəmsal mühitdə təqdim olunmasına, dövlət informasiya sistemlərinin inteqrasiyasına və xarici ticarət proseslərinin tam rəqəmsallaşdırılmasına yeni imkanlar yaradıb.

"Bir Pəncərə" İnformasiya Sistemi logistika ekosisteminin bütün iştirakçılarını vahid platformada birləşdirərək yükdaşımalarının planlaşdırılması, icazələrin alınması, məlumat mübadiləsi və logistika xidmətlərinin daha operativ təşkilini təmin edəcək. Dünyada bu modelin tətbiq olunduğu ölkələrin sayı məhduddur. Azərbaycan dövlət-biznes əməkdaşlığı əsasında vahid rəqəmsal ekosistem formalaşdırmaqla beynəlxalq ticarətdə etibarlı və müasir logistika qovşağı kimi mövqeyini daha da möhkəmləndirir", - deyə nazir müavini qeyd edib.

Dövlət Gömrük Komitəsi sədrinin müavini Natiq Şirinov qeyd edib ki, "Bir Pəncərə" platforması sahibkarlar üçün gömrük prosedurlarının sadələşdirilməsi və dövlət xidmətlərinin əlçatanlığının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, layihənin tam tətbiqindən sonra sahibkarların eyni məlumatı müxtəlif dövlət qurumlarına təkrar təqdim etməsinə ehtiyac qalmayacaq: "Məlumat mübadiləsi vahid elektron platforma vasitəsilə həyata keçiriləcək ki, bu da həm vaxt itkisini, həm də inzibati yükü əhəmiyyətli dərəcədə azaldacaq. Rəqəmsal texnologiyaların tətbiqi gömrük rəsmiləşdirilməsinin sürətini artırmaqla yanaşı, xidmətlərin şəffaflığını və operativliyini də yüksəldəcək".

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı isə çıxışında bildirib ki, Azərbaycanda nəqliyyat və logistika sahəsində həyata keçirilən rəqəmsal transformasiya tədbirləri ölkənin xidmətlər balansında nəqliyyat sektorunun rolunun daha da güclənməsinə mühüm töhfə verə bilər. Onun sözlərinə görə, bu ilin birinci rübündə Azərbaycanın tədiyyə balansında qarşılıqlı xidmətlər dövriyyəsinin 30 faizi nəqliyyat xidmətlərinin payına düşüb. Ümumi dəyəri 1,3 milyard dollar olan nəqliyyat xidmətlərinin 69 faizi qeyri-rezidentlərin Azərbaycanın nəqliyyat xidmətlərindən istifadəsi hesabına formalaşıb: "Hesabat dövründə qeyri-neft-qaz sektoru üzrə nəqliyyat xidmətlərinin ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 24,5 faiz artıb, idxalı isə 10,6 faiz azalıb. Nəticədə nəqliyyat xidmətləri üzrə profisit 54,4 faiz artaraq 500 milyon dollara çatıb. Bu göstəricilər nəqliyyat xidmətlərinin Azərbaycanın xidmətlər balansında dayanıqlı və artan əhəmiyyətə malik strateji istiqamətlərdən birinə çevrildiyini göstərir".

Çıxışlarda layihənin Azərbaycanın rəqəmsal inkişaf strategiyasında rolu, dövlət və özəl sektor arasında əməkdaşlığın genişləndirilməsinə verəcəyi töhfələr və platformanın gələcək inkişaf istiqamətləri diqqətə çatdırılıb.

Layihə rəhbəri Ehtiram Quliyev platformanın əsas funksionallıqları barədə məlumat verərkən bildirib ki, sistem dörd əsas alt sistemdən ibarətdir və idxalatçılar, ixracatçılar, daşıyıcılar, ekspeditorlar, logistika şirkətləri və digər maraqlı tərəflər üçün geniş imkanlar yaradır.

Tədbir iştirakçıları platformanın canlı təqdimatını izləyib, sistemin iş prinsipləri ilə tanış olublar. Biznes nümayəndələri isə ilkin istifadə təcrübələrini bölüşərək xidmətlərə çıxışın sadələşdirilməsi, proseslərin sürətləndirilməsi və əməliyyatların daha çevik təşkili baxımından əldə olunan nəticələri diqqətə çatdırıblar.

Qeyd edilib ki, "Bir Pəncərə" İnformasiya Sistemi uzunmüddətli inkişaf perspektivi üçün nəzərdə tutulmuş milli rəqəmsal platformadır. Növbəti mərhələlərdə sistemə yeni dövlət xidmətlərinin, əlavə inteqrasiyaların və beynəlxalq əməkdaşlıq imkanlarının daxil edilməsi planlaşdırılır.

# "Azərbaycan-Türkiyə münasibətləri ortaq milli iradənin formalaşdırdığı unikal müttəfiqlik modelidir"

"Azərbaycan ilə Türkiyə arasında formalaşmış qardaşlıq və strateji müttəfiqlik münasibətləri beynəlxalq münasibətlər sistemində özünəməxsus yer tutur. Bu əməkdaşlıq modeli yalnız iki dövlət arasında imzalanan sənədlərə və siyasi razılaşmalara əsaslanmır. Onun təməlində əsrlər boyu formalaşmış ortaq tarix, dil, mədəniyyət, milli kimlik, mənəvi dəyərlər və ən əsası, iki xalqın qarşılıqlı etimadı dayanır. Məhz buna görə də, Azərbaycan-Türkiyə münasibətləri dünyanın müxtəlif regionlarında mövcud olan klassik dövlətlərarası ittifaqlardan fərqlənir və uzunmüddətli strateji tərəfdaşlıq nümunəsi kimi qiymətləndirilir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında **türk siyasi eksperti Kadir Uğur YILMAZ** deyib.

Ekspert qeyd edib ki, beynəlxalq münasibətlər tarixində eyni dilə, dinə və etnik kökə malik xalqlar arasında belə ciddi qarşıdurmaların yaşandığı çoxsaylı nümunələr mövcuddur. Onun sözlərinə görə, Yaxın Şərqdə ərəb dövlətləri arasında uzun illərdir davam edən siyasi ziddiyyətlər, eləcə də slavyan xalqları arasında baş verən müharibələr göstərir ki, ortaq mənşə və mədəni yaxınlıq özlüyündə möhkəm müttəfiqlik yaratmaq üçün kifayət etmir.

"Azərbaycan ilə Türkiyə arasındakı münasibətləri fərqləndirən əsas cəhət ondan ibarətdir ki, bu qardaşlıq siyasi maraqların məhsulu deyil. Bu münasibətlərin əsasında xalqların əsrlər boyu qoruyub saxladıqları ortaq milli şüur, qarşılıqlı etimad və mənəvi bağlılıq dayanır. Dövlətlər bu birliyi sonradan rəsmiləşdiriblər", - deyə Kadir Uğur Yılmaz vurğulayıb.

Onun sözlərinə görə, dünyanın bir çox ölkəsində dövlətlər arasında ittifaqlar siyasi hakimiyyətlərin dəyişməsi, geosiyasi maraqların yenilənməsi və ya beynəlxalq şəraitin dəyişməsi ilə zəifləyir. Azərbaycan ilə Türkiyə arasında münasibətlər isə bu baxımdan fərqli xüsusiyyətə malikdir: "Burada münasibətləri qoruyan əsas amil cəmiyyətlərin ortaq iradəsidir. Hər iki ölkədə insanlar bir-birini, sadəcə, dost deyil, doğma qardaş hesab edirlər. Məhz bu ictimai münasibət dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib. Bu səbəbdən Azərbaycan-Türkiyə əlaqələri siyasi konyunkturadan asılı deyil və uzunmüddətli strateji xarakter daşıyır. Ümummilli Lider Heydər Əliyevin irəli sürdüyü "İki dövlət, bir millət" konsepsiyası artıq yalnız siyasi şüar deyil, iki ölkənin əməkdaşlıq fəlsəfəsini müəyyən edən əsas prinsipdir. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın həyata keçirdikləri ardıcıl siyasət nəticəsində bu konsepsiya konkret layihələr və strateji qərarlar vasitəsilə daha da möhkəmləndirilib".



Ekspert bildirib ki, enerji təhlükəsizliyi sahəsində həyata keçirilən TANAP, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi layihələr, həmçinin nəqliyyat sahəsində Bakı-Tbilisi-Qars dəmir yolu xətti və Orta dəhlizin inkişafı Azərbaycan ilə Türkiyənin təkcə regional deyil, Avrasiya məkanında da strateji əhəmiyyətini artırıb. Onun sözlərinə görə, müdafiə sənayesi və hərbi əməkdaşlıq sahəsində əldə olunan nailiyyətlər də iki ölkə arasında etimadın yüksək səviyyədə olduğunu nümayiş etdirir. Xüsusilə birgə hərbi təlimlər, müdafiə sənayesində əməkdaşlığın genişləndirilməsi və təhlükəsizlik sahəsində koordinasiya regionda sabitliyin qorunmasına mühüm töhfə verir.

Kadir Uğur Yılmaz 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstəyin qardaşlıq münasibətlərinin real təzahürü olduğunu bildirib. O qeyd edib ki, müharibədən sonra Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərində Türkiyə şirkətlərinin fəal iştirakı, eyni zamanda iki ölkənin Zəngəzur dəhlizi, regional nəqliyyat marşrutları və iqtisadi inteqrasiya istiqamətində birgə fəaliyyət göstərməsi strateji tərəfdaşlığın davamlı inkişaf etdiyini göstərir.

Ekspert hesab edir ki, Azərbaycan ilə Türkiyə münasibətlərinin fərqli cəhətlərindən biri də tərəflərin bir-birinə heç vaxt "böyük qardaş" və ya "himayədar dövlət" kimi yanaşmamasıdır.

"Hər iki dövlət qarşılıqlı münasibətlərini suverenliyə hörmət, bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı etimad prinsipləri əsasında qurur. Məhz bu yanaşma münasibətlərin davamlılığını təmin edir və onları digər beynəlxalq əməkdaşlıq modellərindən fərqləndirir", - deyə o bildirib.

Kadir Uğur Yılmaz vurğulayıb ki, bu qardaşlığın inkişafında yalnız dövlət qurumları deyil, elm və təhsil müəssisələri, media, vətəndaş cəmiyyəti institutları, mədəniyyət xadimləri, iş adamları və gənclər təşkilatları da mühüm rol oynayır. Humanitar əlaqələrin genişlənməsi, ortaq mədəni layihələrin həyata keçirilməsi, tələbə mübadiləsi proqramları və birgə elmi təşəbbüslər gələcək nəsillərin də bu birliyi eyni ruhda davam etdirməsinə xidmət edir.

Ekspert əlavə edib ki, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi, Orta dəhlizin inkişafı, regional enerji və logistika layihələrinin həyata keçirilməsi Azərbaycan ilə Türkiyənin geosiyasi əhəmiyyətini daha da artırır və bütün türk dünyasının inteqrasiyası üçün yeni imkanlar yaradır.

"Kənardan baxıldıqda Azərbaycan və Türkiyə iki müstəqil dövlətdir. Lakin bu dövlətlərin arxasında ortaq tarixə, ortaq mədəniyyətə, ortaq dilə və eyni milli yaddaşa malik vahid bir millət dayanır. Məhz buna görə Azərbaycan-Türkiyə münasibətləri adi strateji tərəfdaşlıq deyil, beynəlxalq münasibətlər tarixində xalq iradəsi üzərində qurulmuş ən uğurlu qardaşlıq modelidir. Bu model gələcəkdə də regionda sülhün, təhlükəsizliyin və inkişafın əsas təminatçılarından biri olacaq", - deyə türk siyasi ekspert Kadir Uğur Yılmaz bildirib.

# İqtisadiyyat və sosial həyat

## Ölkə üzrə yarım ildə 33,1 milyard manatlıq sənaye məhsulları istehsal edilib

**Sənaye sektorunda 2026-cı ilin yanvar-iyun aylarında 33,1 milyard manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,1 faiz çox sənaye məhsulu istehsal edilib.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu dövr emal sənayesində 10 milyard 912,6 milyon manat məbləğində və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 2,5 faiz çox məhsul istehsal olunub və sənaye xarakterli xidmətlər göstərilib.

Emal sənayesində 6 ayda daha çox artım avtomobil, qoşqu və yarımqoşquların istehsalı (2,2 dəfə), əczaçılıq məhsullarının istehsalı (35,5 faiz), toxuculuq sənayesi (34,0 faiz), dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı (20,6 faiz), maşın və avadanlıqların quraşdırılması və təmiri işləri (20,5 faiz), tütün məmulatlarının istehsalı (19,4 faiz), kağız və karton istehsalı (11,1 faiz), qida məhsullarının istehsalı (9,9 faiz), metallurgiya sənayesi (6,6 faiz), tikinti materiallarının istehsalı (4,7 faiz) sahələrində olub.

## Əsas kapitala 9,3 milyard manat investisiya yönəldilib

**İlin əvvəlindən ötən 6 ayda ölkə üzrə əsas kapitala 9 milyard 295,2 milyon manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 13,8 faiz çox investisiya yönəldilib.**

Dövlət Statistika Komitəsi xəbər verir ki, neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi real ifadədə 34,3 faiz artaraq 3 milyard 163,6 milyon, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə real ifadədə 5,5 faiz artaraq 6 milyard 131,6 milyon manat olub.

Əsas kapitala yönəldilmiş investisiyaların həcmi məhsul istehsalı sahələri üzrə real ifadədə 22,1 faiz artaraq 5 milyard 41,6 milyon, xidmət sahələri üzrə real ifadədə 9,3 faiz artaraq 2 milyard 955,2 milyon, yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyaların həcmi isə real ifadədə 2,7 faiz azalaraq 1 milyard 298,4 milyon manat olub.

## Əlilliyi olan 7424 şəxsə 6 ayda 297 min reabilitasiya vasitəsi verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi cari ilin birinci yarımilində əlilliyi olan 7424 şəxsi 297 min reabilitasiya vasitəsi ilə təmin edib.**

Qeyd olunan reabilitasiya vasitələrindən 666-sı təkərli oturacaq (o cümlədən 18-i mühərrikli təkərli oturacaq), 1133-ü aşağı və yuxarı ətraf protezi, 1805-i əsa, qoltuqaltı və dirsəkaltı ağac olub. Həmçinin əlilliyi olan şəxslərə 3880 cüt protez və ortopedik ayaqqabı, 608 eşitmə aparatı, 127 korset və s. reabilitasiya vasitələri təqdim olunub.

Reabilitasiya vasitələrini almaq üçün özlərinin və ya yaxınlarının Bakıya, Agentliyin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinə gəlmək imkanı olmayan əlilliyi olan şəxslərə bu vasitələr evlərinə aparılaraq təqdim olunub.

## "Şahdəniz"in kiçik "qardaş"ı

### "Abşeron"un böyük perspektivləri var

**"Abşeron" qaz-kondensat yatağının işlənməsinin İlkin Hasilat Sxemi (İHS) mərhələsi üzrə hasilata başlamasının 3 ili tamam oldu. Ötən dövr ərzində yataqdan təqribən 4,8 milyard kubmetr təbii qaz və 1,8 milyon tonadək kondensat hasil edilib. Bu barədə Energetika Nazirliyi məlumat yayıb.**



"Abşeron"un işlənməsinin bu mərhələsi sualtı hasilat quyusunu SOCAR-ın "Neft Daşları"ndakı mövcud qurğuları ilə əlaqəli yeni qaz emalı platformasına birləşdirir. İHS mərhələsinin hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir.

"Abşeron" yatağı Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşir. 2009-cu ildə "Abşeron"un kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında SOCAR və "TotalEnergies" şirkətləri arasında saziş imzalanıb.

Dənizdə, suyun 500 metr dərinliyində yerləşən "Abşeron" yatağının ehtiyatları 350 milyard kubmetr qaz və 45 milyon ton kondensat həcmində qiymətləndirilir. Yeri gəlmişkən, vurğulayaq ki, kondensat tərkibli olması (qazla yanaşı əhəmiyyətli dərəcədə neft ekvivalenti) layihənin iqtisadi səmərəliliyini daha da artırır. Xəzərin Azərbaycan sektorunda yerləşən "Abşeron" qaz-kondensat yatağı "Şahdəniz"dən sonra ölkəmizin ən böyük ikinci təbii qaz mənbəyidir.

"Abşeron" bugünkü uğurlarına çatanadək uzun bir yol gəlib. Belə ki, hələ 1990-cı illərin sonlarında "Abşeron" üzrə digər xarici tərəfdaşlarla kontrakt imzalanmışdı. "Şahdəniz" üzrə müqavilədən sonra bu sənədin imzalanması göstərirdi ki, Azərbaycan təkcə neft diyarı deyil, artıq həm də böyük həcmdə qaz hasil edən ölkəyə çevrilir.

Lakin müəyyən müddətdən sonra "Abşeron"un birinci kontraktına xitam verildi. Tərəfdaşlar görkəmli geoloq, akademik Xoşbəxt Yusifzadənin qazılan quyunun yerinin düzgün seçilmədiyi barədə fikri ilə razılaşmadılar. Buna görə də müsbət nəticə əldə edilmədi.

Növbəti addım isə uğurla nəticələndi. Qeyd etdiyimiz kimi, "Total"la saziş imzalandı və bu şirkətin SOCAR-la birgə işi qələbə gətirdi. 2011-ci ilin əvvəlində yataqda Heydər Əliyev adına yarımdalma qazma qurğusu vasitəsilə qazma prosesi başlandı. Sonrakı işlər də qrafik üzrə həyata keçirildi.

2020-ci il sentyabrın 19-da Prezident İlham Əliyev Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak etdi. Belə ki, yataqda istismar olunan platformanın dörd əsas dayaq bloku və digər sualtı qurğular bu zavodda "BOS Şelf" şirkəti tərəfindən tikilib.

Dövlət başçısı BDÖZ-də "Abşeron" yatağının kəşf edilməsinin əhəmiyyətini vurğulayaraq demişdir: "Beləliklə, bizim neft-qaz potensialımızın inkişafı üçün çox böyük resurs əldə edildi. Bu yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları vardır. Amma mən hesab edirəm ki, daha çox olacaq. Çünki artıq bizdə olan təcrübə onu göstərir ki, ehtimal olunan resurslardan daha böyük resurslar üzə çıxır və 100 milyon ton kondensat - bu da xam neftə bərabər olan bir məhsuldur. Beləliklə, Azərbaycan bundan sonra da etibarlı qaz təchizatçısı olacaqdır. Onu da bildirməliyəm ki, "Abşeron"un birinci mərhələsində çıxarılacaq qaz daxili tələbatlara istiqamətləndiriləcək. Çünki buna da ehtiyac var. Artan əhali, artan sənaye bunu tələb edir. İkinci mərhələdə hasil olunacaq qaz isə ixrac yolu ilə dünya bazarlarına çıxarılacaq. Çünki artıq bu yatağın tam işlənməsi mərhələli yollarla öz həllini tapacaq. Eyni zamanda bizim neft hasilatımızın sabit qalması üçün bu yatağın böyük önəmi var. Çünki 100 milyon ton kondensat - bu da Bakı-Tbilisi-Ceyhan ixrac boru xətti ilə dünya bazarlarına çıxarılacaq".

"Abşeron" layihəsi əməliyyat şirkəti tərəfindən idarə olunur. Tərəfdaşların pay bölgüsü isə belədir: "TotalEnergies "(Fransa) - 35 faiz (bu şirkət həm də operatordur), SOCAR (Azərbaycan) - 35 faiz, ADNOC (Birləşmiş Ərəb Əmirlikləri) - 30 faiz. Yatağın tammiqyaslı işlənməsi mərhələsində hasilatın illik 5 milyard kubmetrə çatdırılması planlaşdırılır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Azərbaycan artıq dünyada beynəlxalq tranzit və logistika ölkəsi kimi qəbul olunur




**Azərbaycan bu gün Orta dəhlizdə qovşaq ölkə kimi xüsusi çəkiyə malikdir. Amma Prezident İlham Əliyevin həyata keçirdiyi logistika siyasəti təkcə Orta dəhlizdə uğur qazanmağımızla bitmir. Aparılan danışıqlar və görülən tədbirlər Azərbaycanı qlobal səviyyədə tranzit ölkəyə çevirib.**

Hazırda ölkəmiz üzərindən quru yüklərlə yanaşı, neft və neft məhsulları da ixrac olunur. Bu günədək Qazaxıstan Azərbaycan ərazisindən keçməklə milyonlarla ton neft ixrac edib. İndi Türkmənistan da Azərbaycan üzərindən böyük həcmdə neftin daşınmasına maraq göstərir. Ötən ay Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun ölkəmizə səfəri zamanı dövlət başçıları tərəfindən bu məsələ müzakirə olunub. Dost ölkə öz neftinin Azərbaycan üzərindən Avropa bazarına ixrac etməkdə maraqlıdır. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanın Türkmənistana neft daşıyan müasir tipli "Dostlug" tankerinin hədiyyə edilməsi qardaş ölkədə yüksək qiymətləndirilir. Bakı görüşündən sonra iqtisadiyyat naziri Mikayıl Cabbarovun Aşqabadda Türkmənistan neftinin tranziti ilə bağlı danışıqlar aparması onu göstərir ki, hər iki tərəf bu məsələdə qərarlıdır.

Hazırda Azərbaycan Avropaya ənənəvi enerji resurslarını satmaqla "qoca qitə"nin bu sahədəki təhlükəsizliyində önəmli rol oynayır. Ölkəmiz gələcəkdə Avropanın elektrik enerjisi ilə təminatında da vacib rol oynayacaq. Gələcək hədəfimiz Avropaya "yaşıl enerji" ixrac etməkdir. Bir neçə il əvvəl başlanan danışıqlar hazırda uğurla davam edir.

Xəbər verildiyi kimi, Bakıda "Yaşıl Enerji"nin İnkişafı və Ötürülməsi Sahəsində Strateji Tərəfdaşlıq çərçivəsində keçirilən 12-ci görüşdə Avropanın gələcəkdə "yaşıl enerji" ilə təminatı geniş müzakirə olunub. Xatırladaq ki, "qoca qitə"yə "yaşıl enerji" tranziti ilə bağlı Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında 17 dekabr 2022-ci ildə saziş imzalanıb. Azərbaycan Orta dəhlizdə olduğu kimi, burada da əsas tranzit ölkəsi olmaqla yanaşı, həm də əsas istehsalçı olacaq. Belə ki, hazırda ölkəmizdə "yaşıl enerji"yə keçidlə bağlı mühüm layihələr icra olunur. Dünyanın bu sahədə ixtisaslaşmış nüfuzlu şirkətləri ilə bir sıra layihələr icra edilib, digərləri isə icra olunmaq mərhələsindədir.

Azərbaycan etibarlı tərəfdaş olduğu üçün xarici investisiyaların cəlb edilməsində heç bir problemi yoxdur. Ölkəmizə olan güvənin nəticəsidir ki, "yaşıl enerji" istehsalı sahəsində böyük nüfuza malik şirkətlər Azərbaycanla əməkdaşlıq edir. 2020-ci ildən Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın BP, Avstraliyanın "Fortescue Future Industries", Çinin "China Gezhouba Group Overseas Investment", "Total Energies", ABŞ-nin "Nobel Energy", Çex Pespublikasının "A-Z Czech Engineering" və Türkiyənin "Baltech" şirkətləri bərpaolunan enerji layihələri ilə bağlı əməkdaşlıq etdiyimiz şirkətlərdir.

İşğaldan azad olunmuş ərazilərimizdə büdcə vəsaiti hesabına "yaşıl enerji" mənbələrinin yaradılmasında mühüm işlər görülüb. Burada yeni tikilən və bərpa edilən su-elektrik stansiyaları mövcud olduğu ərazi ilə yanaşı, ölkənin ümumi enerji təminatına da töhfə verir. Üstəlik, Zəngilan və Cəbrayıl rayonlarında günəş və külək-elektrik stansiyaları tikiləcək. Ümumilikdə 2030-cu ilə qədər ölkəmizdə təxminən 6 qiqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi nəzərdə tutulub. Bundan əlavə, daha 10 qiqavatlıq bərpaolunan enerji layihələri üzrə tərəfdaş şirkətlərlə müqavilələr və anlaşmalar imzalanıb.

Məlumdur ki, dövlət başçısı tərəfindən işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunub. O da bəllidir ki, bu ərazilər yüksəkpotensiallı "yaşıl enerji" mənbələrinə malikdir. Mütəxəssislər Füzuli, Cəbrayıl, Zəngilan rayonlarında günəş, Laçın və Kəlbəcər rayonlarında külək enerjisi potensialını yüksək qiymətləndirirlər. Hazırda BP tərəfindən Cəbrayıl rayonu ərazisində 240 MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyası layihəsi həyata keçirilir. Bundan əlavə, "China Gezhouba Group Overseas Investment" və "Nobel Energy" şirkətləri ilə imzalanmış müqavilələr çərçivəsində işğaldan azad olunmuş digər ərazilərdə də günəş-elektrik stansiyalarının tikintisi nəzərdə tutulur.

Azərbaycan həmçinin Avropadan Mərkəzi Asiyaya uzanan rabitə və internet xətlərinin tranzitini həyata keçirən ölkədir. Dünyanın informasiya tranzitində də ölkəmiz önəmli rol oynayır. Bütün bunlar sübut edir ki, Prezident İlham Əliyevin logistika siyasəti sayəsində Azərbaycan bir çox sahə üzrə mühüm tanzit ölkə kimi qəbul olunur. Buna görə də Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin, beynəlxalq və regional təşkilatların sayı sürətlə artır. Son dövrlər Avropa İttifaqının fikir ayrılıqlarını kənara qoyaraq Azərbaycanla əməkdaşlığa can atmasının bir səbəbi də qlobal logistikada önəmli tranzit ölkəsi olmağımızdır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Türk dövlətlərində dinamik iqtisadi artım

### Bu ilin ilk rübündə birlik ölkələrində 673,5 milyard dollarlıq ÜDM istehsal edilib

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Türk Dövlətləri Təşkilatının Katibliyi ilə birgə 8 dildə təqdim etdiyi "Türk iqtisadi icmalı"nın 2026-cı ilin I rübünə dair buraxılışı nəşr edilib.**




İİTKM-nin Türk Dünyası Araşdırmalar Mərkəzinin hazırladığı icmalda 2026-cı ilin I rübü üzrə Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistanın, həmçinin müşahidəçi üzvlər Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikasının (ŞKTR) iqtisadi göstəricilərinin təhlili təqdim edilib. İcmal son iqtisadi inkişaf göstəricilərinə əsaslanaraq TDT üzvlərinin potensialı və qlobal iqtisadiyyata təsirini qiymətləndirib.

Cari ilin birinci rübündə türk dövlətləri 673 milyard 557,5 milyon dollarlıq ÜDM ilə qlobal iqtisadiyyatda 2,34 faizlik paya sahib olub. Əhalisi isə 178,8 milyon nəfərlə qlobal əhalinin 2,8 faizini təşkil edib. Bu göstəricilər türk dövlətlərinin həm iqtisadi, həm də demoqrafik baxımdan mühüm yer tutduğunu bir daha təsdiq edir.

Bu dövrdə Qırğızıstan, Özbəkistan və Türkmənistan müvafiq olaraq 10,1, 8,7 və 8,5 faiz artım tempini nümayiş etdirərək sənaye və kənd təsərrüfatı sektorunda davamlı inkişafı təmin edib. ŞKTR-də iqtisadi artım 6,3, Qazaxıstanda 3 faiz olub. Təşkilatın ən böyük iqtisadiyyatına sahib Türkiyədə isə 2,5 faiz iqtisadi böyümə qeydə alınıb. Macarıstanda ÜDM-in artım tempi 1,7, Azərbaycanda 0,3 faiz təşkil edib.

Ticarət dövriyyəsi həm qlobal inteqrasiya, həm də TDT ölkələri arasında iqtisadi inteqrasiya üçün xüsusi əhəmiyyət daşıyır. Cari ilin I rübündə türk dövlətlərinin ümumi ticarət dövriyyəsi 326 milyard 011,55 milyon dollar təşkil edib ki, bu da 8,75 trilyon dollar həcmində olan qlobal ticarət dövriyyəsinin təxminən 3,73 faizinə bərabərdir.

Türkiyə ən yüksək ticarət dövriyyəsinə malik olmaqla 155,122 milyard dollarla TDT-də liderlik edir. Macarıstan, Qazaxıstan və Özbəkistan müvafiq olaraq 87,445 milyard, 32,908 milyard və 18023 milyard dollarlıq ticarət əməliyyatları həyata keçiriblər.

Hesabat dövründə Özbəkistan və Qırğızıstanda kənd təsərrüfatı və sənaye sektorlarında davamlı ixrac artımı müşahidə edilib. Bu göstəricilər bölgədəki ticarət dinamikalarının fərqliliyini və türk dövlətlərinin güclü ixrac performansından faydalandığını göstərir.

Sənaye sektorunda Qırğızıstan, ŞKTR və Özbəkistan müvafiq olaraq 14, 9,2 və 8 faiz artımla liderlik edib. Türkmənistanda sənaye sektorunda 2,4 faiz inkişaf qeydə alınıb. Bu artıma genişmiqyaslı istehsal və infrastruktur layihələri müsbət təsir göstərib. Türkiyədə isə sənaye sektoru 1,1 faiz artıb.

Kənd təsərrüfatı sektorunda ŞKTR 7,9 faiz ilə ən güclü artım nümayiş etdirib. Bu sektorda Özbəkistan 5,1, Qazaxıstan 3,4, Qırğızıstan 2,8, Türkiyə 2,7 faiz artıma nail olub.

İnvestisiyalar, xüsusilə sabit kapital sahəsindəki investisiyalar uzunmüddətli artım üçün çox vacibdir. Cari ilin I rübündə Özbəkistan və Qırğızıstan sabit kapital investisiyalarında müvafiq olaraq 29,6 və 25,5 faiz artım nümayiş etdiriblər ki, bu da əsasən infrastruktur, enerji və istehsal sahələrinə edilən böyük sərmayələr hesabına mümkün olub. Bu dövrdə Azərbaycan və Macarıstan da müvafiq olaraq 14,9 və 12,2 faiz sabit kapital investisiyalarında sağlam artım nümayiş etdiriblər.

Bank sektoruna gəldikdə, hesabat dövründə Qırğızıstanın bu sektorunun cəmi aktivlərində 23, Özbəkistanın 19,6, Qazaxıstanın 11, Türkiyənin 7,4, Macarıstanın 6,8, Azərbaycanın 5,7 faiz artımı olub. Həmin dövrdə ŞKTR bank sektoru isə 5,04 faiz artım əlavə edib. Bu göstəricilər iqtisadi inkişafı və investisiyaları dəstəkləyən maliyyə xidmətlərinin güclənməsinə əsaslanır.

Dövlət büdcəsinin performansı iqtisadi sağlamlığın vacib göstəricisidir. Qırğızıstanda dövlət büdcəsi gəlirlərində 48,8, dövlət büdcəsi xərclərində 42,3 faiz olmaqla ən yüksək artım qeydə alınıb. Türkiyədə dövlət büdcəsi gəlirlərində 44,4, dövlət büdcəsi xərclərində 45,5 faiz olmaqla yüksək artıma nail olunub. Həmçinin Özbəkistanda dövlət büdcəsi gəlirlərində 35, dövlət büdcəsi xərclərində 24,1 faiz olmaqla yüksək artım müşahidə edilib. ŞKTR, Qazaxıstan, Macarıstanda həm gəlirlər, həm də xərclər sahəsində sabit artım göstərərək effektiv maliyyə idarəetməsi nümayiş etdiriblər.

*R.MÜTƏLLİBOV,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Musiqi xadimlərimiz

# 64 illik ömrün notları

**Musiqi mədəniyyətimizin inkişafında və zənginləşməsində böyük xidmətlər göstərmiş görkəmli bəstəkar Eldar Rüstəmov xalqımızın yaddaşında dərin iz qoymuşdur. Onun bəstələdiyi simfonik əsərlər bu gün də dinləyicilərin, tamaşaçıların zövqünü oxşayır. Tamaşaçılar sözünü ona görə qeyd edirik ki, Eldar Rüstəmov həm də bir çox film üçün musiqilər bəstələmişdir. Bənzərsiz əsərləri ilə filmlərimizə tamaşaçı marağını və sevgisini daha da artırmışdır.**

Tanınmış bəstəkar Eldar Səid oğlu Rüstəmov 13 iyul 1946-cı ildə Bakıda anadan olub, musiqiçi ailəsində böyüyüb. Dinlədiyi musiqilər özü də hiss etmədən zərrə-zərrə onun ürəyinə, qəlbinə süzülüb. Elə buna görə də kiçik yaşlarından musiqinin sehrinə düşüb, bu sahəyə böyük maraq göstərib. Çox keçməyib ki, bu maraq onun gələcək həyat yolunu, taleyini müəyyənləşdirib.

Eldar Rüstəmov əvvəl Bakı Musiqi Akademiyasında musiqinin sirlərinə dərindən yiyələnib, sonra elmi işlərini uğurla müdafiə edərək professor adı alıb. Elə professor kimi də bir zamanlar təhsil aldığı musiqi ocağında işləməyə başlayıb. Vaxtilə kitablardan oxuduqlarını, müəllimlərindən mənimsədiklərini böyük həvəs və sevgi ilə gələcəyin musiqiçilərinə tədris edib. Elmi, biliyi, nümunəvi davranışı və xeyirxahlığı ilə tələbələrinin sevgisini qazanıb. Onlarca gənc musuqiçiyə bilik verib, yol göstərib. Onların bacarıqlı musiqiçi kimi formalaşmasına çalışıb. Eldar Rüstəmov ömrünün sonuna qədər bu təhsil ocağında müəllim işləyib.

Bakı Musiqi Akademiyasının professoru Eldar Rüstəmov bəstəkarlıqla yanaşı, həm də dirijor kimi fəaliyyət göstərib. Çox məharətlə skripka ifa edən bəstəkar bir-birindən dəyərli əsərləri ilə könülləri oxşayıb. O, 64 illik ömründə böyük sənətkarlıqla simfonik və kamera musiqisi janrlarında, həmçinin xor



əsərləri və filmlərimizə yazdığı bənzərsiz bəstələri ilə musiqi tariximizə mühüm töhfələr verib. Ömrünün müxtəlif illərində yaratdığı əsərlərlə, bəstələdiyi musiqilərlə tanış olduqca Eldar Rüstəmovun necə böyük bir sənətkar olduğu aydın şəkildə gözlərimiz qarşısında canlanır. Görkəmli bəstəkarın skripka və piano üçün bəstələdiyi sonata, "Sən gedəndən" romansı, solist, xor və simfonik orkestr üçün "Heyranam, Vətən" odası, Solo skripka üçün Sonata, 2 akapella xoru - "Səadət nəğməsi", "Bahar", "Düşdü yada" romansı, kiçiktərkibli simfonik orkestr üçün "Meşə nağılı" süitası, "Bir də baxsan mənə" akapella xoru, xor və simfonik orkestr üçün işləmələri və başqa əsərləri bu gün də dinlənilir.

"Yeraltı əhvalat", "Mən Xəzəri görürəm", "Özünü onun yerinə qoy", "Yay gününün xəzan yarpaqları", "Qoca palıdın nağılı", "Təqib" və başqa filmlər üçün yazdığı musiqilər isə orjinallığı ilə seçilir.

Atalar yaxşı deyib: "Ot kökü üstə bitər". Yaradıcılığı haqqında qısaca söhbət açdığımız Eldar Rüstəmov görkəmli bəstəkar, Xalq artisti Səid Rüstəmovun ailəsində dünyaya göz açıb. Təəssüf ki, bəstəkar az yaşayıb. Musiqi mədəniyyətimizdə həmişə yeri görünən görkəmli bəstəkar ılıq bir yaz günündə 23 aprel 2010-cu ildə dünyasını dəyişib. Amma yaradıcılığı ilə Azərbaycan musiqi mədəniyyətinə və kino sənətinə dəyərli töhfələr vermiş unudulmaz sənətkar həmişə bəstələdiyi əsərlərində yaşayır və böyük ehtiramla yad edilir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Səsi yaddaşlara, obrazları tarixlərə həkk olunan sənətkar

**Azərbaycan səhnəsində aktyorluq məharəti, ecazkar səsi ilə yaddaqalan obrazlar yaratmış aktyorlar çox olub.**

Onların sırasında Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Ələsgər Ələkbərov, Möhsün Sənani və başqalarının adlarını qürur hissi ilə çəkə bilərik. Özünəməxsus sənəti ilə seçilənlər arasında Xalq artisti İlham Əsgərovun da öz yeri var. Onun istər klassik, istərsə də müasir qəhrəmanlarının hər biri dərin fəlsəfi, lirik, dramatik məzmun kəsb edən portretə çevriliblər.

AZƏRTAC xəbər verir ki, Xalq artisti İlham Əsgərovun anadan olmasının 68-ci ildönümü tamam olur.

1958-ci il iyulun 16-da anadan olan İlham Əsgərov 1980-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Dram teatrı və kino aktyoru fakültəsini bitirib. 1982-ci ildən ömrünün sonunadək Akademik Milli Dram Teatrının aktyoru olub. İstedadlı aktyor Akademik Teatrın ən populyar tamaşalarında iştirak edib. O, Azərbaycan Dövlət Radiosunun məşhur "Bulaq" verilişinin aparıcılarından biri olub. İlham Əsgərov "Közərən ocaqlar"da Əli, "İblis"də Ərəb, "Atabəylər"də Əbubəkir, "Fəryad"da Loğman və Əmir, "Dar ağacı"nda Sabutay, "Rəqabət"də Nadir, "Büllur sarayda" Həbib, "Mahnı dağlarda qaldı"da Nicat, "Sevgililərin cəhənnəmdə vüsalı"nda Anaşkin, "Tənha iydə ağacı"nda doktor Altay, "Hökmdar və qızı"nda Məhəmməd xan, "Qarabağna-



mə"də İbrahim xan, "Kral Lir"də Fransa kralı, "Bu dünyanın adamları"nda Nemət Səmədzadə, "Qaraca qız"da Piri baba və digər tamaşalarda yaddaqalan obrazlar qalereyası yaradıb. O, həmçinin bir sıra bədii filmlərdə, seriallarda da unudulmaz rolları ilə tamaşaçı sevgisi qazanıb.

Onun əməyi hər zaman yüksək qiymətləndirilib. Belə ki, 2000-ci ildə "Əməkdar artist", 2006-cı ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb.

İlham Əsgərov 2015-ci il sentyabrın 6-da Bakıda vəfat edib. O, Masallı rayonunun Xoşçobanlı kəndində dəfn olunub.



## "Liman"dan "Uzaq, yaşıl ada"ya uzanan ömür nəğməsi

**Onu hamı sevirdi. Şövqlə ifa etdiyi "Liman", "Saçlarına gül düzüm", "Kimlər gəldi, kimlər getdi", "Kəpənək", "Zəfəran", "Çay", "Sən uzaq yaşıl ada" və yüzlərlə belə mahnılarla hər kəsin qəlbini ovsunlayır, yaddaşlara əbədi həkk olunurdu.**

AZƏRTAC xəbər verir ki, bu gün Xalq artisti, "Şöhrət" ordenli, bir çox mükafatın laureatı, Azərbaycan estradasının banilərindən olan Mirzə Babayevin anadan olmasından 113 il ötür. Hər dəfə M.Babayevin sənət dünyası haqqında fikirləşəndə adama elə gəlir ki, o, ifa etdiyi mahnının musiqisini də, sözlərini də özü yazıb. Sənətkarın özünəməxsus üslubu - ifa zamanı bəzən pıçıltı ilə dediyi sözlər belə dinləyicinin bütün varlığına hopur.

Mirzə Babayevin ömür kitabını vərəqlədikcə gözlərimiz qarşısında xalqımızın musiqi tarixinin unudulmaz bir dövrü canlanır. Görkəmli estrada ifaçısının Tofiq Quliyev, Emin Sabitoğlu, Rauf Hacıyev və digər bəstəkarlarla birgə yaratdığı mahnılar musiqi mədəniyyətimizin parlaq incilərindəndir. Onun repertuarında xarici ölkə xalqlarının mahnıları da yer tapmışdı.

O, müxtəlif illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin estrada orkestrində, Azərbaycan Dövlət Akademik Filarmoniyasında, Azərbaycan Dövlət Konsert Birliyində çalışıb. Görkəmli estrada müğənnisi dünyanın bir çox ölkəsində yüksək ifaçılıq məharəti ilə Azərbaycanın musiqi sənətinin təbliğatçısı kimi çıxış edib, milli estrada musiqimizi yüksəklərə qaldırıb. Müğənni 30-dan artıq filmdə rol alıb. "Kölgələr sürünür", "Qaraca qız", "Sən niyə susursan", "Dəli Kür", "Dərviş Parisi partladır", "Qorxma, mən səninləyəm", "Bəyin oğurlanması" filmlərindəki epizodik rolları tamaşaçının yaddaşına əbədi həkk olunub. Onun bənzərsiz ifası obrazların daha qüvvətli alınmasına əhəmiyyətli dərəcədə təsir göstərib. "O olmasın, bu olsun" filmində Məşədi İbadın mahnılarını Mirzə Babayev oxuyub. Yaxud "Onu bağışlamaq olarmı?" filmində Tərlanın mahnısı hər birimizin qəlbindədir. Onun milli musiqi mədəniyyəti sahəsindəki xidmətləri yüksək qiymətləndirilib, Vətənin ən yüksək fəxri adlarına layiq görülüb, bir sıra orden və medallarla təltif olub. Mirzə Babayev 2003-cü il yanvarın 13-də, ömrünün 90-cı ilində dünyasını dəyişib.

İllər, qərinələr keçəcək, lakin unudulmaz estrada ulduzu Mirzə Babayevin zəngin musiqi irsinin şölələri heç vaxt sönməyəcək. Bu böyük sənətkarın yaradıcılığından bir məktəb olaraq neçə-neçə nəsil bəhrələnəcək.

## Regionlarda peşəkar teatr dərsləri Qusarda davam edib

**Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) "Regionlarda peşəkar teatr dərsləri" layihəsi çərçivəsində Qusar Dövlət Ləzgi Dram Teatrında "Danışan bədən: bədənin ideya və sözlə sinxronlaşdırılması" mövzusunda ustad dərsi təşkil olunub.**

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə keçirilən ustad dərsi aktyor, rejissor Ceyhun Dadaşov və MEMİM-in əməkdaşı teatrşünas Dağlar Yusif tərəfindən aparılıb. Ustad dərsi zamanı səhnədə söz və bədən dilinin uyğunlaşması, psixofiziki bütövlüyün əldə edilməsi, daxili impulsun fiziki ifadəyə çevrilməsi və aktyor plastikasının formalaşdırılması ilə bağlı praktik məşğələlər icra edilib. Teatr kollektivinin həvəslə iştirak etdiyi dərsdə C.Dadaşov və D.Yusif tərəfindən müəllifin qayəsi və aktyor oyunu, səhnə mədəniyyəti və s. məsələlərə toxunulub, bir sıra səhnə hərəkətləri real icra olunub.

Qeyd edək ki, 2024-cü ilin oktyabr ayından təşkil olunan layihə teatr kollektivlərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi,



regionlarda aktiv yaradıcı mühitin formalaşdırılması, teatr sənəti ilə bağlı müasir tendensiyaların diqqətə çatdırılması məqsədi daşıyır. Layihə ötən il Lənkəran Dövlət Dram Teatrında, Qax Dövlət Gürcü Dram Teatrında, Qazax, Ağdam və Füzuli Dövlət Dram teatrlarında uğurla həyata keçirilib.

● Kino tariximiz

# Nizami ruhunun ekran təcəssümü

**Azərbaycan kino sənətinin "qızıl fond"una daxil olan ekran əsərlərindən biri də mütəfəkkir şair Nizami Gəncəvinin həyat və mənəvi dünyasından bəhs edən "Nizami" bədii filmidir. 1982-ci ildə çəkilən bu film milli mədəniyyətimizin ən möhtəşəm əsərlərindəndir.**

Görkəmli rejissor Eldar Quliyevin quruluş verdiyi bu tarixi-bioqrafik dram sadə bir şairin ömür yolunu deyil, XII əsr intibah dövrünün ictimai-siyasi mənzərəsini, insan azadlığı və ədalət axtarışlarını fəlsəfi baxış nöqteyi-nəzərindən tamaşaçıya çatdırır. Azərbaycan kinosunun çətin sınaqlardan keçdiyi bir dövrdə "Azərbaycanfilm" və "Mosfilm" kinostudiyalarının birgə layihəsi kimi ərsəyə gələn bu ekran əsəri həm ssenari dərinliyi, həm də möhtəşəm aktyor oyunu ilə indiyəcən aktuallığını qoruyur.

Filmin ssenari müəllifləri - tanınmış yazıçı İsa Hüseynov (Muğanna) və rejissor Eldar Quliyev XII əsr Gəncə mühitini canlandırmaq üçün uzunmüddətli tarixi araşdırmalar aparmışlar. Filmin musiqi tərtibatı dahi bəstəkar Qara Qarayevə məxsusdur. Bu musiqi bəstəkarın ölümündən əvvəl kino sahəsində imza atdığı son və ən möhtəşəm şah əsərlərindən biri hesab olunur.

"Mosfilm"in maliyyə və texniki dəstəyi sayəsində filmin çəkilişləri təkcə Bakı, Gəncə və Şamaxı ilə məhdudlaşmamış, Türkmənistan, Özbəkistan və Qırğızıstanın tarixi məkanlarında lentə alınmışdır.

### Filmin süjet xətti və fəlsəfi ideyası

Məşhur yazıçı-ssenarist İsa Hüseynov və rejissor Eldar Quliyevin ortaqlığı ilə yazılmış ssenari ənənəvi, xronoloji bioqrafik janrdan uzaqdır. Ssenari daha çox kino-pritça və fəlsəfi dram formatında qurulub. Müəlliflər şairin həyatındakı real faktları onun daxili sarsıntıları, poemalarındakı mistik obrazlar və fəlsəfi düşüncələri ilə sintez ediblər. Film iki əsas müstəvidə inkişaf edir: real və xəyali dünyada. Real dünya dedikdə XII əsrin Gəncə mühiti, saray intriqaları, müharibələr, aclıq və şairin xalqın dərdinə şərik olması əks olunur. Xəyali dünyada isə Nizaminin poemalarındakı fəlsəfi ideyaların ekranda vizuallaşması, şairin öz qəhrəmanları, məsələn, İsgəndər ilə xəyali dialoqları təsvir edilir.

Film Gəncənin mürəkkəb ictimai-siyasi ab-havası ilə açılır. Nizami artıq dövrünün ən nüfuzlu mütəfəkkiri və ustad sənətkarıdır. Yerli hökmdarlar və din xadimləri onun xalq arasındakı nüfuzundan çəkinir, sənətkarı öz tərəflərinə çəkməyə çalışırlar. Lakin Nizami saray təmtərağından, mədhiyyə yazmaqdan imtina edərək Gəncə ətrafındakı kasıb evində yaradıcılıqla məşğul olur. Onun bu mövqeyi saray əyanı Müzəffərinin rəhbərlik etdiyi qüvvələrin böyük qəzəbinə səbəb olur.

Ssenarinin ən həssas xətlərindən biri şairin sevgisi və ilham mənbəyi ilə bağlıdır. Filmdə aktrisa Həmidə Ömərova eyni anda iki obrazı canlandırır: Nizaminin erkən itirdiyi böyük sevgisi Afaqı və şairin xəyalında canlanan, ona çətin anlarda yol göstərən ilham pərisi Pərini. Afaqın ölümü şairi dərindən sarsıdır. Lakin bu kədər onun yaradıcılığını daha da ilahiləşdirir, onu bəşəri sevgiyə doğru ucaldır.

### Tarixi görüşlər

Filmin ssenarisində ən yaddaqalan fəlsəfi kulminasiya nöqtələrindən biri Şirvanşahlar sarayından qaçan və böyük məhrumiyyətlər yaşayan digər dahi şair Xaqani Şirvani ilə Nizaminin görüşüdür. Gəncə düzənliyində baş tutan bu görüşdə iki sənətkar azadlıq, yaradıcılıq, sənətkarın cəmiyyətdəki rolu və hökmdarlara münasibət barədə dərin dialoq aparırlar. Xaqaninin çəkdiyi iztirablar Nizaminin ədalət axtarışlarını daha da alovlandırır.

Atabəylər dövlətinin qüdrətli hökmdarı Qızıl Arslan (obrazı canlandıran Hacımurad Yegizarovdur) Gəncəyə gələrkən Nizami ilə görüşmək istəyir. Nizami hökmdarın hüzuruna sadə libasda gedir. Əslində, bu görüş şair-hökmdar dialoqu deyildi, ssenarinin ən güclü fəlsəfi toqquşması idi. Nizami Qızıl Arslana ədalətli olmağı, müharibələri dayandırmağı və xalqı incitməməyi nəsihət edir. Ona öz əsərini verir. Hökmdar Nizaminin cəsarətinə və müdrikliyinə heyran qalaraq şairə Həmdünyan kəndini bağışlayır.

Ömrünün son illərində Nizami "İsgəndərnamə" poeması üzərində işləyir. Ssenaridə şairin yaratmaq istədiyi "Xoşbəxtlər şəhəri" (heç bir ağanın, nökərin, zülmün olmadığı cəmiyyət) fəlsəfəsi qabardılır. Lakin real dünyada Gəncə yenidən müharibə, qarət və aclıq girdabına sürüklənir. Şair xalqın göz yaşlarını gördükcə daxili sarsıntı keçirir. O, yazdıqları ilə real həyat arasındakı uçurumu gördükdə mənəvi böhran yaşayır.

### Tarixi faktların bədii təhrifi və rejissor sərbəstliyi

"Nizami" filmi əvvəldə də qeyd etdiyimiz kimi, sənədli xronika deyil, bədii kino-pritça olduğundan ssenari müəllifləri şairin fəlsəfəsini, daxili dünyasını qabarıq göstərmək üçün bəzi bədii təhriflərə və tarixi sərbəstliklərə yol vermişlər. Dövrün ideoloji tələbləri və kinonun dramaturgiya qanunları real tarixlə filmin ssenarisi arasında müəyyən fərqlər yaratmışdır. Burada ssenarinin ən təsirli kulminasiya nöqtələrindən biri iki dahi şairin Nizami və Xaqaninin Gəncə çöllərindəki görüşüdür. Kino nəzəriyyəçiləri yazırlar ki, real tarixdə Nizami Gəncəvi ilə Xaqani Şirvaninin şəxsən görüşməsinə dair heç bir tarixi fakt yoxdur. Onlar eyni dövrdə, eyni coğrafiya-



da yaşasalar da, yalnız bir-birlərinin yaradıcılıqlarına bələd olublar, şeirlərində bir-birlərinə işarələr ediblər. Filmdə bu görüş iki fərqli sənətkar taleyini üz-üzə gətirmək üçün uydurulmuş bədii təxəyyülün nəticəsidir.

Həmidə Ömərovanın canlandırdığı Pəri obrazı şairin yanında gəzən, ona yol göstərən, bəzən xəyal, bəzən isə real bir qadın kimi təsvir olunur. Nizaminin real həyatında Dərbənd hökmdarının ona verdiyi qıpçaq qızı - kəniz Afaq olub və şair onu sonsuz məhəbbətlə sevib. Lakin filmdəki Pəri obrazı da tamamilə bədii təxəyyülün məhsuludur. Rejissor şairin daxili səsi, ilham pərisi və "Xəmsə"dəki qadın ideallarını gerçəkləşdirmək üçün bu simvolik obrazı ssenariyə daxil etmişdir.

Filmdə Nizami ilə Atabəy hökmdarı Qızıl Arslanın çadırda baş tutan görüşü böyük bir siyasi-fəlsəfi qarşıdurma kimi təqdim edilir. Nizami hökmdara olduqca cəsarətli, az qala onu mühakimə edən tərzdə nəsihətlər verir. Bu görüş tarixi reallıqdır, 1188-ci ildə baş verib. Lakin o zaman şairlərin feodal hökmdarlarla münasibətləri dövrün ciddi saray etiketlərinə tabe idi. Filmdəki kəskin və tamamilə müstəqil ton sovet dövrünün "Xalq şairi zalım şahlara qarşı" ideoloji konsepsiyasından irəli gəlirdi. Rejissor Nizaminin humanist ideyalarını qabartmaq üçün dialoqu daha müasir və inqilabi xarakterdə qurmuşdur.

Filmin sonuna yaxın Nizaminin xəyalında canlanan və ekranda vizual şəkildə göstərilən pulun, zülmün, sinfi bərabərsizliyin olmadığı "Xoşbəxtlər şəhəri" təsvir olunur. Nizami bu ideyanı XII əsrdə fəlsəfi reallıq kimi deyil, ədəbi utopiya kimi yazmışdır. Ssenari müəllifləri isə bu səhnəni filmə daxil edərək sanki Nizaminin əsrlər əvvəl sovet sosializminin təməlini qoyduğuna eyham vururlar. Bu da filmin çəkildiyi 1980-ci illərin sovet senzurasın-




dan keçməsi üçün edilmiş bədii-siyasi bir gediş idi.

### Filmdə aktyor ansamblı

1982-ci ildə ekranlaşdırılan "Nizami" filminin ən böyük uğurlarından biri rejissor Eldar Quliyevin topladığı unikal aktyor ansamblı və onların yaratdığı dolğun xarakterlərdir. Tarixi şəxsiyyətləri canlandırmaq aktyordan təkcə xarici bənzərlik deyil, həm də dövrün fəlsəfəsini, daxili dünyasını vizual dilə çevirmək məharəti tələb edir.

"Nizami" filmindəki aktyor oyunu statik bədii təsvirlərdən uzaq, psixoloji gərginlik və emosional dərinliklə zəngindir. Filmin mərkəzində dayanan və ən çox müzakirə edilən şübhəsiz ki, Müslüm Maqomayevin canlandırdığı Nizami Gəncəvi obrazıdır. Estrada və opera ulduzu kimi tanınan M.Maqomayevin bu rola seçilməsi o dövrdə böyük risk hesab olunurdu. Lakin Müslüm peşəkar dram aktyorlarını kölgədə qoyacaq bir performans nümayiş etdirdi. Onun Nizami obrazı bağıran, pafoslu danışan şair deyil. O, baxışları, daxili sükutu, kübarlığı və dərin kədəri ilə intellektual bir mütəfəkkiri canlandırmışdır. Şairin yaradıcılıq əzabları, saray intriqalarına qarşı göstərdiyi sarsılmaz və məğrur duruşu onun plastikası və gözlərindəki işıqla tamaşaçıya birbaşa ötürülür.

Həmidə Ömərova filmdə iki fərqli, lakin mahiyyətcə eyni ideyaya xidmət edən obrazı - Pəri və Afaqı canlandırır. Aktrisa bu rollarda şairin həyatındakı real qadını yox, onun sənətini qidalandıran ülvi məhəbbəti, saflığı və fədakarlığı simvolizə edir, Nizaminin daxili dünyasındakı zərifliyi üzə çıxarır.

Filmin çəkisini artıran digər mühüm xətt dövrün ustad aktyorlarının yaratdığı güclü obrazlardır. Həsənağa Turabov (Müzəfferi) dövrün ziddiyyətlərini, saray hiylələrini və feodal təfəkkürünü özünəməxsus kəsərli oyun tərzi və psixoloji dəqiqliklə təqdim edir. Onun obrazı Nizaminin əsas əleyhdarlarından biridir. Xaqani Şirvanini canlandıran Ələddin Abbasov Şirvan sarayının sıxıntılarından bezmiş, yaşlı və müdrik Xaqaninin faciəsini, eyni zamanda onun Nizamiyə olan heyranlığını və qardaşlıq sevgisini böyük ustalıqla çatdırır.

Dövlət rəhbərinin qüdrətini, eyni zamanda hakimiyyətin gətirdiyi daxili tənhalığı və şair sözünə olan ehtiyacı canlandıran Yegizarov (Qızıl Arslan) rola monarx əzəməti bəxş edib. Onun Nizami ilə dialoqları, sadəcə, iki aktyorun yox, iki fərqli dünyanın toqquşmasıdır.

"Nizami" filmində aktyor oyunu teatrallıqdan uzaq, kinonun gerçək və minimalist qanunlarına tam uyğundur. Aktyorlar rejissor Eldar Quliyevin fəlsəfi konsepsiyasını düzgün oxuyaraq, sadəcə, quru tarixi faktları yox, canlı və nəfəs alan insan taleyini ekrana gətiriblər.

Filmin sonu rəmzi xarakter daşıyır. Fiziki cəhətdən zəifləyən və dünyasını dəyişən Nizami mənəvi olaraq ölümsüzlüyə qovuşur. O, öz xəyali obrazları və Pərisi ilə birlikdə əbədiyyətə doğru addımlayır. Film tamaşaçıda belə bir fikir formalaşdırır: şair fiziki olaraq yox olsa da, onun qoyub getdiyi söz sənəti, humanizm və ədalət ideyaları əsrlər boyu yaşayacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***






# İspaniya, yoxsa Argentina?

2026 FIFA Dünya Çempionatının gözlənilən finalı futbolsevərlər üçün ən maraqlı qarşılaşmalardan biri hesab olunur.

Finalda son dünya çempionu Argentina ilə son Avropa çempionu İspaniya üz-üzə gələcək. Bu, həm iki fərqli futbol məktəbinin, həm də iki nəsil ulduzunun qarşıdurması kimi qiymətləndirilir.

Nəyə görə bu final xüsusi hesab olunur? Çünki Argentina ardıcıl ikinci dünya çempionluğunu qazanmağa çalışır. İspaniya isə 2010-cu ildən sonra ikinci dünya titulunu hədəfləyir.

Qarşılaşma təcrübə ilə gəncliyin dueli kimi təqdim olunur: Argentina tərəfdə Lionel Messi, İspaniya tərəfdə isə gənc ulduz Lamin Yamal ön plandadır.

Bu finalın çox gərgin və yüksəksəviyyəli keçəcəyi gözlənilir. Bir çox mütəxəssis İspaniyanın topa nəzarətini, Argentinanın isə həlledici anlarda effektiv hücumlarını oyunun əsas amilləri hesab edir.

Qeyd edək ki, mundialın final oyunu iyulun 19-u saat 23:00-da ABŞ-nin Nyu York Nyu Cersi stadionunda keçiriləcək.

## FIFA-dan tarixi qərar

FIFA DÇ-2026-nın final matçında ilk və ikinci hissələr arasındakı fasiləni uzatmağı nəzərdən keçirir. Bu barədə "The Athletic" nəşri məlumat yayıb.



Bildirilir ki, buna səbəb fasilə zamanı keçiriləcək musiqi şousudur. "MetLife" stadionunun meydanında təşkil olunacaq proqramda Castin Biber, Şakira, BTS, Madonna, Burna Boy, venesuelalı dirijor Qustavo Dudamel və PS22 xoru çıxış edəcəklər.

Şounun keçirilməsi üçün təşkilatçılar fasilə ərzində səhnəni quraşdırmalı və daha sonra sökməlidirlər. Bu səbəbdən FIFA fasilənin müddətini artırmağı planlaşdırır. Bununla yanaşı, qurum ümumi fasilənin 20 dəqiqəni keçməməsinə çalışır.

Qeyd edək ki, FIFA daha əvvəl çıxışın 11 dəqiqə davam edəcəyini açıqlamış və onu idman, musiqi və qlobal mədəniyyətin qovuşduğu möhtəşəm bayram adlandırmışdı.



## Keyn ikinci pilləyə yüksəldi

İngiltərə millisinin hücumçusu Harri Keyn yığmanın heyətində növbəti rekorda imza atıb. 31 yaşlı futbolçu yarımfinalda Argentinaya qarşı matçda meydana çıxmaqla İngiltərə millisində 121-ci oyununu keçirib.

Bununla da Keyn yığmanın tarixində keçirdiyi oyunların sayına görə Ueyn Runini geridə qoyaraq ikinci pilləyə yüksəlib. Bu göstəricidə rekord sabiq qapıçı Piter Şiltona məxsusdur. O, İngiltərə millisinin heyətində 125 matç keçirib.

## Salibanın zədəsi ciddidir

Fransa millisinin və İngiltərənin "Arsenal" klubunun müdafiəçisi Vilyam Saliba ciddi zədə səbəbindən əməliyyat olunacaq. Bu barədə "L'Equipe" nəşri məlumat yayıb.



Mənbənin iddiasına görə, 25 yaşlı futbolçu bel nahiyəsindən əməliyyat olunacaq. Onun 4-5 ay yaşıl meydanlardan kənarda qalacağı gözlənilir.

Qeyd edək ki, Saliba DÇ-2026-da Fransa millisinin əsas heyət oyunçusu olub. O, yarımfinalda İspaniyaya 0:2 hesablı məğlub olduqları görüşdə də start heyətində meydana çıxmışdı.



## Doğulduğu ölkəni yarımfinalda məğlub edən ilk oyunçu

İspaniya millisinin müdafiəçisi Emerik Laport dünya çempionatları tarixinə düşüb. 31 yaşlı futbolçu DÇ tarixində doğulduğu ölkəni yarımfinalda məğlub edən ilk oyunçu olub.

Laport Fransada anadan olub və bu ölkənin aşağı yaş qrupları üzrə yığmalarında 50-dən çox oyun keçirib. Lakin baş məşqçi Didye Deşamın rəhbərliyi altında Fransa millisində debüt etmək imkanı qazanmayıb.

Daha sonra yeniyetmə yaşlarında İspaniyanın "Atletik" (Bilbao) klubuna keçən müdafiəçi 2021-ci ildə İspaniya vətəndaşlığı alaraq bu ölkənin millisində çıxış etməyə başlayıb.

## Argentinalı oyunçular siyasi plakat açdılar

İngiltərə yığması üzərində qələbədən dərhal sonra Argentina seçmə komandasının oyunçuları yaşıl meydançada "Las Malvinas son Argentinas" ("Malvin adaları Argentinaya məxsusdur") sözləri yazılmış pankart nümayiş etdiriblər. Bu barədə xarici KİV-də məlumat yayılıb.




Qeyd edək ki, Malvin adlandırılan ərazi, əslində, Böyük Britaniyanın dənizaşırı mülkü olan və Buenos-Ayres tərəfindən suverenliyi mübahisələndirilən Folklend adalarıdır. 1982-ci ildə bu arxipelaqa nəzarət uğrunda Argentina və Böyük Britaniya arasında hərbi qarşıdurma yaşanıb. Yekunda adaların idarəçiliyi Londonun ixtiyarında qalıb. Xatırladaq ki, bir müddət əvvəl də Argentina hökuməti azarkeşlərə dünya çempionatının yarımfinal matçında siyasi xarakterli şüar və simvolların nümayişini qadağan etmişdi. Bu addımın zorakılığa yol açmamaq məqsədilə atıldığı bildirilmişdi.

Xatırladaq ki, Argentinanın təhlükəsizlik naziri Alexandra Monteoliva "La Voz" radiosunun efirində argentinalı azarkeşlərin Malvin (Folklend) adalarının təsviri olan köynəklər və ya bayraqlarla yarımfinal oyununa buraxılmayacağını bildirmişdi.

## Messi mundialdakı uğurlu çıxışının sirrini açdı

Argentina millisinin hücumçusu Lionel Messi yarımfinalda İngiltərə üzərində qazandığı qələbədən sonra təəssüratlarını bölüşüb.



"TyC Sport" superulduzun fikirlərini belə təqdim edib: "Bu gün bir daha sübut etdik ki, planetin ən yaxşı iki komandasından biriyik. Bu, etdiyimiz hər şeyin təsadüf olmadığını və heç kimin bizə heç nə vermədiyini göstərir. Ardıcıl ikinci dəfə dünya çempionatının finalına çıxmaq yalnız seçilmişlərin nail ola biləcəyi bir şeydir və bu komanda bunu bacardı. Keçən ilə qədər şübhələrim var idi və bunu Skaloni ilə daim müzakirə edirdim. Turnirə ən yüksək formada yaxınlaşmaq üçün əlimdən gələni etdim: ilboyu hazırlaşdım və çox çalışdım. Dekabr ayının hamısını Argentinada keçirdim, səhər və axşam məşq etdim. Bilirdim ki, buraya ən yaxşı vəziyyətdə gəlmək və sadəcə zövq almaq üçün əlimdən gələni edəcəyəm. Yalnız özümü yaxşı hiss etdiyim zaman dünya çempionatından zövq ala bilərdim. Düşünürəm ki, sonuncu Amerika Kubokunda fiziki cəhətdən yaxşı vəziyyətdə deyildim. Çiliyə qarşı ikinci matçda zədə aldım və finala qədər onu özümlə apardım. Nəticədə bütün turnirboyu özümü pis hiss etdim. Mundialdan zövq almaq və zirvədə olmaq üçün tam hazırlaşdım".

39 yaşlı Messi hazırkı dünya çempionatında 8 qol vurub və 4 məhsuldar ötürmə edib.

## Şakiranın geyimi mundialdan sonra hərraca çıxarılacaq

2026-cı il Dünya Çempionatı ilə bağlı xatirə əşyaları, o cümlədən müğənni Şakiranın səhnə kostyumu turnirin finalından sonra "Christie's" hərracında satışa çıxarılacaq. Bu barədə təşkilatın saytında məlumat verilib.



"Christie's" və "Global Citizen" 2026-cı il futbol üzrə dünya çempionatından sonra FIFA-nın vətəndaş təhsili fondunun xeyrinə xüsusi onlayn hərrac keçiriləcəyini elan edir. Hərracda turnirin ilk üç açılış matçının hər birində istifadə olunmuş toplar, eləcə də Şakira, BTS və Madonna ilə ilk "Global Citizen Halftime" şousunda istifadə olunacaq və hələ açıqlanmayan digər əşyalar təqdim olunacaq", - deyə məlumatda bildirilib. Hərrac iyulun 22-dən 29-dək "Christie's"in saytında keçiriləcək. Əldə olunan bütün vəsait FIFA-nın Qlobal Təhsil Fonduna və yoxsulluqla mübarizə aparan "Global Citizen" qeyri-hökumət təşkilatına yönəldiləcək. Pul 200 ölkədə uşaqların təhsil və futbola çıxış imkanlarının təmin edilməsinə sərf olunacaq.

"The Athletic"in məlumatına görə, lotlar arasında Lionel Messi, Raul Ximenes və ABŞ millisinin oyunçularının imzaladığı futbol köynəkləri finalın rəsmi topu və açılış oyunlarında istifadə olunan toplar, həmçinin Şakiranın turnirin rəsmi mahnısı "Dai Dai" üçün çəkilmiş klipdə geyindiyi geyim olacaq.

***Hazırladı:***
***Dönməz ABBASOV***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# "Azərbaycan Mədəniyyətinin Yay Məktəbi" layihəsi iştirakçılarının Qarabağa səfəri yekunlaşıb

Mədəniyyət Nazirliyinin və Azərbaycanın Özbəkistandakı səfirliyinin tabeliyindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə həyata keçirilən "Azərbaycan Mədəniyyətinin Yay Məktəbi" layihəsi çərçivəsində Qarabağ bölgəsinə təşkil olunan səfər başa çatıb.



Mədəniyyət mərkəzindən AZƏRTAC-a bildirilib ki, "Azərbaycan Mədəniyyətinin Yay Məktəbi" layihəsi çərçivəsində iştirakçılar əvvəlcə Xankəndi şəhərini ziyarət ediblər.

Layihə iştirakçıları Qarabağ Universitetində ali təhsil müəssisəsinin fəaliyyəti və yaradılmış müasir tədris imkanları ilə tanış olublar. Onlara Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə yaradılan universitetin işğaldan azad edilmiş ərazilərdə təsis edilən ilk dövlət ali təhsil müəssisəsi olduğu bildirilib. Qeyd olunub ki, müasir tədris infrastrukturu ilə təmin olunan universitetin əsas məqsədi region üçün yüksəkixtisaslı kadrlar hazırlamaq, elmi-tədqiqat mühitini inkişaf etdirmək və Xankəndinin yenidən mühüm elm və təhsil mərkəzinə çevrilməsinə töhfə verməkdir.

Daha sonra Azərbaycanın ərazi bütövlüyünün bərpasını və 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Qələbəni əks etdirən Zəfər parkı ziyarət olunub. Burada müharibənin gedişi, azad edilmiş şəhər və yaşayış məntəqələri, eləcə də Azərbaycan Respublikasının öz əraziləri üzərində suverenliyini tam bərpa etməsi barədə məlumatlar verilib. Vurğulanıb ki, Zəfər parkı Qələbənin xatirəsini yaşatmaqla yanaşı, Xankəndinin dirçəlişini, dinc həyatın bərpasını və Qarabağda aparılan genişmiqyaslı quruculuq işlərini də simvolizə edir.

Layihə çərçivəsində iştirakçıların növbəti dayanacağı Bakı şəhəri olacaq.

# Bolqarıstan "istəklilər koalisiyası"nda iştirakdan niyə imtina edib?

Xəbər verildiyi kimi, Bolqarıstan Rusiya təcavüzünə qarşı müdafiədə Ukraynanı dəstəkləmək üçün yaradılan "istəklilər koalisiyası"nda iştirak etməkdən imtina edib. Ölkənin Fransada səfərdə olan yeni Baş naziri Rumen Radev Parisdə media nümayəndələrinə bildirib: "Bolqarıstanın yeri orada deyil".



O, Fransa Prezidenti Emmanuel Makrondan "istəklilər koalisiyası"na qoşulmaq üçün dəvət aldığını, lakin Parisə başqa bir səbəbdən - 14 iyulda qeyd olunan Fransanın milli bayramı - Bastiliya Gününün qeyd olunması üçün gəldiyini bildirib.

R.Radevin mövqeyi budur ki, Kiyevə hərbi yardım göstərmək silahlı münaqişəni uzadır və yalnız gücləndirilmiş diplomatik səylər eskalasiyaya son qoya bilər. Bolqarıstanın Baş naziri həmçinin bildirib ki, o, otən ay Sofiyanın "milli maraqlarını qorumaq" üçün Avropa İttifaqından rus pravoslav kilsəsinin rəhbəri patriarx Kirilə və "Lukoil"un keçmiş prezidenti Vahid Ələkbərova qarşı sanksiyalar tətbiq etməməyi tələb edib. İyunun 18-də keçmiş prezident Rumen Radevin Baş nazir kimi ilk dəfə qatıldığı Avropa Şurasının iclasında o, patriarx Kiril və V. Ələkbərov qara siyahıdan çıxarılmasa, rəsmi Sofiyanın 21-ci sanksiyalar paketinə veto qoyacağını bildirib.

Bu arada Polşanın Baş naziri Donald Tusk Parisdə Ukraynaya kömək etmək istəyən ölkələrin Zirvə görüşündən sonra bildirib ki, Polşa, Böyük Britaniya və Fransa qoşunları "istəklilər koalisiyası"nın ilk təlimlərində iştirak edəcəklər. Təlimlər bu payız Polşada keçiriləcək. Donald Tusk bildirib ki, hərbi təlimlər Kiyevi dəstəkləyən bir qrup ölkəni sülh razılaşması və ya atəşkəs əldə edildikdən sonra "Ukrayna, eləcə də bütün region üçün konkret təhlükəsizlik zəmanətləri" təmin etməyə hazırlamaq məqsədi daşıyır.

Eyni zamanda Tusk Ukraynada tezliklə sülhün bərqərar olacağını gözləmədiyini qeyd edib. Baş nazirin dediyinə görə, Rusiya Prezident Vladimir Putinin rəhbərliyi altında münaqişəni ən azı qışa qədər uzadacaq. Donald Tusk jurnalistlərə bildirib: "Rusiya və Putinin sərt mövqeyi nəzərə alınmaqla, hazırda yaxın gələcəkdə atəşkəs və ya sülh razılaşmasının əldə edilməsi ehtimalı azdır". O əlavə edib ki, indiki vəziyyətdə daha çox Rusiyanın hücumlarının artması ehtimal olunur.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Odessa sahilləri yaxınlığında hücuma məruz qalmış gəmi kapitanının nəşi tapılıb

Ukraynanın Odessa sahilləri yaxınlığında dron hücumu nəticəsində həlak olmuş "Atlas Bey" mülki ticarət gəmisinin kapitanı Səməd Nəsrullayevin nəşi aşkarlanaraq Odessaya gətirilib. Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, müvafiq zəruri tədbirlər yekunlaşan kimi cənazə ölkəmizə yola salınacaq. "Həlak olan gəmi kapitanının ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin!", - deyə nazirliyin məlumatında qeyd olunub.

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3201**
**Sifariş 899**

**Qiyməti 60 qəpik**